# Azərbaycan Prezidenti İlham Əliyevin COP29 tribunasından yeni mesajları

**Mən beynəlxalq gündəlikdə mühüm məsələlərdən birini də qaldırmaq istəyirəm – neokolonializm və iqlim dəyişmələri. Fransa və Niderlandın xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasındadır.**

1966–1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib.

Əgər Avropanın əsas diplomatı Cozep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın.








Xalqın qəzeti!

# Xalq qəzeti

№ 250 (30654) 14 noyabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## BMT-nin Baş katibinin iqtisadi keçidə dəstək çağırışı



Səhifə ➩ 12

## “Yaşıl” keçid qlobal ekoloji böhrandan xilas yoludur



Səhifə ➩ 15

## Qərbin riyakarlığı bir daha faş oldu



Səhifə ➩ 17

## Azərbaycan dünyanı təmiz gələcəyə səsləyir




Səhifə ➩ 18

# Azərbaycan COP marafonunu əməli addımlara yönləndirib

## Prezident İlham Əliyev kiçik ada dövlətlərinin Sammitində

**Noyabrın 13-də Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammiti keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Sammitin moderatoru, Millətlər Birliyi təşkilatının (Commonwealth) Baş katibi Patrisia Skotlend tədbiri açaraq dedi:

– Zati-aliləri, hörmətli qonaqlar, xanımlar və cənablar, sizi salamlayıram.

İqlim dəyişmələrinin mənfi təsirinə xüsusən məruz qalan inkişaf etməkdə olan kiçik ada dövlətlərinə həsr olunmuş bu cür mühüm müzakirədə hamınızı salamlamaqdan məmnunam. Biz iqlim dəyişmələrinin ən kəskin təsiri ilə üzləşən ölkələrin rəhbərlərini eşitmək şərəfinə nail olacağıq.

Bugünkü tədbiri Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev ilə açmaqdan şərəf hissi duyuram. Cənab Prezident Azərbaycan iqtisadiyyatının tam və yaddaqalan transformasiyasına nail olub. Biz onun iqlim fəaliyyətində rolunun artmasının, daha güclü beynəlxalq tərəfdaşlığın qurulmasının, xüsusən də BMT, Qoşulmama Hərəkatı və Millətlər Birliyi kimi təşkilatlar vasitəsilə əməkdaşlığı gücləndirdiyinin şahidiyik. Həmin təşkilatlarda Azərbaycan dayanıqlı iqtisadi artım və müqavimət gücünü təşviq edib.

Cənab Prezident, sözü Sizə verirəm.

*

Dövlətimizin başçısı Sammitdə çıxış etdi.




### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Baş katib!

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar, əziz dostlar.

Mən Sammitin bütün iştirakçılarını salamlayıram. Azərbaycan COP29-a ev sahibi olduqdan sonra inkişaf edən kiçik ada dövlətləri ilə münasibətlərimiz yeni, daha yüksək səviyyəyə qalxıb. Kiçik ada dövlətlərinin səsi qlobal arenada eşidilməlidir. Mən inkişaf etmiş bütün ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə müraciət edirəm ki, kiçik ada dövlətlərinə maddi və texniki dəstək göstərsinlər ki, onlar ölkələrini iqlim dəyişmələrinin fəsadlarından qoruya bilsinlər. İqlim dəyişmələri hər bir ölkəyə, o cümlədən, Azərbaycana təsir göstərir. Görürük ki, Xəzər dənizi ilbəil daha da dayazlaşır. Görürük ki, çaylarımızda daha az su, dağlarımızda daha az qar var. Əfsuslar ki, keçmişdə heç vaxt görmədiyimiz daşqınlar və kəskin yağışlar bu gün reallıqdır. Bir sözlə, hər bir ölkə təsirə məruz qalır, lakin kiçik ada dövlətləri üçün bu ekzistensial təhlükədir.

Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir.

*(ardı 2-ci səhifədə)*

# COP29-a sədrlik – uğur perspektivi və dünyaya çağırış

**Prezident İlham Əliyev noyabrın 12-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimindəki çıxışında son dərəcə vacib məqamlara toxundu. Yazımızda həmin məqamların müəyyən qisminə nəzər salacaq, dövlətimizin başçısının səsləndirdiyi fikirlərin ölkəmizin COP29-a uğurlu sədrliyinə təminat məntiqi üzərində dayanacağıq.**




Ümumən, Azərbaycan istənilən mütərəqqi prosesə uğur qazandıran dövlət kimi özünü təsdiqləməyi bacarıb. Bu təsdiqləmə və onun verdiyi yüksək status gərgin və yorulmaz əməyin nəticəsidir. Təsdiqləmə, eyni zamanda, siyasi-fəlsəfi kateqoriya baxımından dünyanın axarını dəyişmə mahiyyətinə əsaslanan hadisədir. Yəni, Azərbaycan, prinsip etibarilə, dünyanın axarını dəyişmiş ölkədir.

Təsəvvür edin, 1991-ci ildə yenicə müstəqilliyini qazanmış Vətənimiz məhrumiyyətlərlə üzləşmişdi. SSRİ adlı böyük istiqsadi “zəncir”in qırılması müttəfiq respublika kimi Azərbaycanı çıxılmaz vəziyyətə salmış, asılı hala gətirmişdi. Üstəlik, ortada Ermənistanın təcavüzkarlığı var idi. O təcavüzkarlıq ki, 1991-ci ildən əvvəl start götürmüş, 1994-cü ilədək sürmüş, habelə otuz ilə yaxın müddətdə davamlı xarakter almışdı. 1993-cü ildə xalqın təkidi ilə ulu öndər Heydər Əliyevin ikinici dəfə respublikamıza rəhbərliyə gəlişi isə iqtisadi tənəzzülün dərinləşməsinin qarşısını almış, ölkədə hökm sürən özbaşınalıq və anarxiyaya son qoymuşdu.

Nəhayət, Heydər Əliyevin sayəsində Azərbaycan olduqca çətin və mürəkkəb şəraitdə – 1994-cü ildə “Əsrin müqaviləsi”nin imzalanmasını gerçəkliyə çevirməklə, sanki bir çayın axarının dəyişməsinə nail olmuşdu. Qətiyyətlə demək olar ki, böyük siyasət dühası bələliklə beynəlxalq aləmi yaşadığımız Cənubi Qafqaz coğrafiyasına gətirmişdi. Dünyanın axarını dəyişmək məhz bu idi.

Ulu öndərin müəyyənləşdirdiyi kurs Qərb kapitalının uzun fasilədən sonra yenidən regiona ayaq basma reallığını doğurmuşdu. O regiona ki, həmin kapitalın orada vaxtilə qeydə alınmış mövcudiyyət müddəti qısa olmuşdu. “Əsrin müqaviləsi” isə mövcudiyyət üçün möhkəm və dayanıqlı zəmin, ciddi müqavimət formalaşdırmış, təminat yaratmışdı. Bu gün Cənubi Qafqaz üzrə mürəkkəb oyunlar quran Qərb dünyası, ilk növbədə, bunu nəzərə almalı və malik olduğu statusa görə Azərbaycanın rolunu qiymətləndirməlidir. Amma, təəssüf ki, əksini görürük.

*(ardı 10-cu səhifədə)*



# Prezident İlham Əliyev kiçik ada dövlətlərinin Sammitində




(əvvəli 1-ci səhifədə)

Biz fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərmişik. Biz, həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək vermişik. Ondan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramımızdan yararlanıb. Qoşulmama Hərəkatında dördillik sədrliyimiz dövründə biz 80-dən artıq ölkəyə, o cümlədən, 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişik.

Həmin ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir. Bu ilin mayında COP-la bağlı planlarını müzakirə etmək üçün Baham adalarının, Tonqanın və Tuvalunun rəhbərləri Azərbaycana səfər etdilər. Qəbul olunmuş Bakı Kommünikesində COP29-da mənalı nəticələrin əldə olunmasına çağırış edilir və əlçatan iqlim maliyyəsinin vacibliyi qeyd olunur. Bu ilin sentyabrında İtki və Zərərə Cavab Fondunun fəaliyyətə başlaması ilə bağlı Bakıda ciddi irəliləyiş əldə olunmuşdur. Hazırda proses ehtiyac duyan ölkələrə, xüsusən də kiçik ada dövlətlərinə maliyyənin verilməsi üçün tamamlanmalıdır. Bu yay Azərbaycan Tonqada Millətlər Birliyi ilə Birgə Bəyannamə imzaladı.

Biz Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırırıq. Ətraf mühitin monitorinqi və qiymətləndirilməsi üçün Azərbaycanın Kosmos Agentliyi – "Azərkosmos"dan peyk məlumatlarından istifadə etmək üçün Millətlər Birliyi ilə Anlaşma Memorandumu imzalanmışdır.

Hörmətli xanımlar və cənablar, fürsətdən istifadə edərək, mən beynəlxalq gündəlikdə mühüm məsələlərdən birini də qaldırmaq istəyirəm – neokolonializm və iqlim dəyişmələri. Fransa və Niderlandın xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasındadır. Artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox hallarda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur.

Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sənt-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları, – gəlin, həmin ərazidəki xalqları alqışlayaq, – bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946–1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə, onların dekolonizasiya prosesi hələ də yubanır.

1966–1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik. Fransanın dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər siyahısı rejimin bu yaxınlarda insan hüquqları pozulmalarını qeyd etməsək, tam olmazdı. Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoymuş, 169 nəfəri yaralamışdır. 1700 insan həbs edilmişdir. Həmçinin bu il Martinika və Qvadelupada etirazlar zamanı 38 nəfər həbs olunub. Bütün bunlarla yanaşı, Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi. Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat – Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Fransadakı bütün siyası məhbuslar dərhal azad olunmalıdır.

Əgər Avropanın əsas diplomatı Cozep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək.

Çox sağ olun.

*

Sammitdə çıxış edən BMT-nin Baş katibi **Antonio Quterreş** inkişaf etməkdə olan kiçik ada dövlətlərinin böyük





ədalətsizliklərlə üzləşdiyini, iqlim dəyişmələrinin, artan qiymətlərin, COVID-19 pandemiyasının bu ölkələrə ciddi ziyan vurduğunu, onların hökumətlərinin çətin vəziyyətdə olduqlarını vurğulayaraq deyib: "Siz – kiçik ada dövlətləri nümayiş etdirirsiniz ki, iqlim ambisiyaları özünü necə büruzə verir. Siz cavab tədbirlərini görən ilk tərəfsiniz. Dünya sizi dəstəkləməli, ilk növbədə, temperatur artımının 1,5 dərəcədə saxlanılması üçün yorulmadan çalışmalıdır. Bu, o deməkdir ki, 2030-cu ilə qədər qlobal atılmalar illik əsasla 9 faiz azalacaq. Həmçinin ənənəvi yanacaqdan istifadə sürətlə və ədalətli şəkildə azalacaq, COP28-in nəticəsi təmin ediləcək. Bu, həmçinin o deməkdir ki, hər ölkə 1,5 dərəcəyə uyğun olması üçün COP30-a qədər yeni, iqtisadiyyatı əhatə edən milli iqlim fəaliyyəti planlarını və ya Milli səviyyədə müəyyən edilmiş töhfələr sənədini təqdim edəcək".

COP29-da dünya səviyyəli maliyyə arxitekturasının yaradılması istiqamətində mühüm addımların atıldığını qeyd edən Baş katib bildirib: "İş burada və indi başlayır. Bizə inkişaf etməkdə olan ölkələrin ehtiyac duyduğu trilyonlarla dollarlıq vəsaitləri toplayan yeni iqlim maliyyə məqsədi lazımdır və imtiyazlı dövlət vəsaitlərində xeyli artım olmalıdır".

Bu sahədə uğur qazanmaq üçün fəaliyyətin daha da gücləndirilməsinin zəruriliyini qeyd edən Antonio Quterreş deyib: "Bu COP çərçivəsində və ondan sonrakı dövrdə sizi fəaliyyəti tələb etmək üçün öz səlahiyyətlərinizdən istifadə etməyə çağırıram. Ədaləti tələb edin. Çünki yubanmaq olmaz".

*

Millətlər Birliyi təşkilatının (Commonwealth) Baş katibi **Patrisia Skotlend** iqlim maliyyələşməsi işində uğurlu rəhbərliyə görə Prezident İlham Əliyevə və Baş katib Antonio Quterreşə minnətdarlıq edərək deyib: "Mən fürsətdən istifadə edərək həm Prezident Əliyevə, həm də Baş katib Antonio Quterreşə bu işlərə sadiqliyə, güclü rəhbərliyə və hərtərəfli dəstəyə görə təşəkkürümü bildirmək istəyirəm. Ümid edirik ki, maliyyə ilə bağlı bu yanaşma sayəsində COP29-da real nəticələrə nail olacağıq. Gəlin, onlara təşəkkürümüzü bildirək".

Millətlər Birliyinin 56 üzvündən 25-nin inkişaf etməkdə olan ada dövləti olduğunu və onların çox gözəl potensialının mövcudluğunu qeyd edən Patrisia Skotlend vurğulayıb: "Onlar böyük çağırışlarla üzləşir. Onlar iqlim dəyişmələrinin intensivləşməsinə yüksək dərəcədə həssasdırlar. Bu, fiziki baxımdan daha az ərazi deməkdir. Bununla belə qlobal maliyyə qaydaları onların işini daha da çətinləşdirir. Bütün bunlar onların müqavimət gücünü zəiflədir. Bu səbəbdən kiçik ada dövlətlərinə verilən prioritet Birlik proqramımızın əsasını və beynəlxalq sistemdə fəaliyyətimizin özəyini təşkil edir".

Patrisia Skotlend COP29 çərçivəsində kiçik ada dövlətləri ilə bağlı xüsusi tədbirin təşkilinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirərək deyib: "COP29-a sədrlik edən tərəfin elan etdiyi iqlim maliyyələşməsinə dair Fondun yaradılması təşəbbüsü mənə böyük təəssürat bağışladı. Resursların açılmasını və paylanmasını təmin etmək üçün icra mexanizmlərinin işlənilməsinə dəstək verməyə hazırıq. Mən bu təklifi ona görə verirəm ki, üzv dövlətlərimiz təcili şəkildə iqlim maliyyəsi ilə bağlı vədlərə ehtiyac duyur. Onlar buna Yaşıl İqlim Fondu, İtki və Zərərlər Fondu xətti ilə nail ola bilər".

*

Sonra COP29-un prezidenti Muxtar Babayev və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin nümayəndə heyətlərinin rəhbərləri çıxış etdilər.

# Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin üçtərəfli görüşü

**Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin üçtərəfli görüşü olub.**



Sonra Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i imzalayıblar.

Daha sonra prezidentlər çıxış ediblər.

Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

– Hörmətli Kasım-Jomart Kemeleviç!

Hörmətli Şavkat Miromonoviç!

Əziz dostlar!

Bu gün Azərbaycan, Qazaxıstan və Özbəkistan münasibətlərinin tarixində əlamətdar hadisədir. Üç qardaş ölkə bu gün öz əməkdaşlığını yeni səviyyəyə qaldırır. Sazişin imzalanması, deyərdim ki, tarixi hadisədir. Biz ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndiririk və yaşıl enerji sahəsində fəal əməkdaşlıq edəcəyik. Həmçinin deyərdim ki, imzaladığımız bugünkü Saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır. Mahiyyət etibarilə, Mərkəzi Asiya və Qafqaz regionlarında inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı proseslər bu gün deməyə imkan verir ki, bu iki region bir çox məsələlərdə, o cümlədən yaşıl enerjinin inkişafı sahəsində sinxron fəaliyyət göstərir.

Biz Özbəkistanda, Qazaxıstanda və Azərbaycanda bərpaolunan enerji mənbələrinin yaradılması üzrə artıq əldə edilmiş böyük planlar və nəticələr haqqında bilirik. Yəni, biz, belə demək mümkünsə, paralel kursla gedirik və Xəzərin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə üç ölkəmiz arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlıqdır.

Dünən konfransdakı çıxışımda Azərbaycandan Qara dənizin dibi ilə Avropaya kabel xətti çəkməsi ilə bağlı ölkəmizin artıq həyata keçirilməkdə olan planlarından danışdım.

*(ardı 3-cü səhifədə)*

COP29 Baku Azerbaijan — COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024 — COP29 Baku Azerbaijan

# Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin üçtərəfli görüşü

**(əvvəli 2-ci səhifədə)**



Bu layihənin texniki-iqtisadi əsaslandırılması tamamlanmaq üzrədir və bununla da biz Mərkəzi Asiyanı, Qafqazı, Avropanı, Xəzər və Qara dənizləri vahid enerji dəhlizi ilə birləşdirəcəyik. Xüsusilə sevindirici haldır ki, bu Saziş hər zaman bir-birinə yaxın olan üç qardaş ölkə arasında imzalanır. Özbəkistanla münasibətlərimiz bu il müttəfiqlik münasibətləri səviyyəsinə çatıb, müvafiq saziş imzalanıb. Qazaxıstanla artıq uzun müddətdir ki, strateji tərəfdaş kimi əməkdaşlıq edirik. Qarabağın bərpasında bizə ilk yardım edən ölkələr Özbəkistan və Qazaxıstandır. Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına yaradıcılıq mərkəzi bu gün qardaşlığımızın bariz sübutudur. Əminəm ki, biz gələcəkdə də həmişə bir yerdə olacağıq və bir-birimizi dəstəkləyəcəyik. Əziz dostlarım, qardaşlarım Şavkat Miromonoviçə, Kasım-Jomart Kemeleviçə COP29-da iştirak etdiklərinə və öz iştirakları və dəyərli fikirləri, mesajları ilə tədbirimizi zənginləşdirdiklərinə görə minnətdaram.

Əziz dostlarıma bir daha təşəkkür etmək istəyirəm. Həmçinin bu gün burada iştirak edən əziz dostumuz, Səudiyyə Ərəbistanının nazirinə və Səudiyyə Ərəbistanından olan bütün dostlarımıza minnətdarlığımı ifadə edirəm. Dünən haqqında danışdığım "ACWA Power" şirkəti bizim yaxşı tərəfdaşımız, investorumuzdur və həm Azərbaycanda, həm də Mərkəzi Asiyada fəaliyyət göstərir. Ona görə də bu gün bu mərasimdən sonra əməkdaşlığımızı genişləndirən daha bir mərasim olacaq. Bu, Yaxın Şərqi, Mərkəzi Asiyanı, Xəzər regionunu, Qafqazı, Qara dənizi və Avropanı əhatə edir.

Beləliklə, mən bizim hamımızı təbrik edirəm və arzum budur ki, bu layihənin tezliklə həyata keçirilməsinin şahidi olaq. Sağ olun.

*

Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev** dedi:

– Hörmətli İlham Heydər oğlu!

Hörmətli Şavkat Miromonoviç!

Xanımlar və cənablar!

Bu gün biz davamlı inkişaf üçün ümumi səylərimizin tarixində yeni səhifə açırıq. Strateji tərəfdaşlıq Sazişinin imzalanması Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının inkişafı üzrə üçtərəfli əməkdaşlıqda mühüm mərhələdir. Sənəd dövlətlərimizin enerji sistemlərinin inteqrasiyası, habelə ekoloji cəhətdən təmiz enerjinin Avropaya və digər bazarlara çatdırılması üzrə etibarlı dəhlizlərin yaradılmasında yeni imkanlar açır. Qazaxıstan böyük tranzit ərazi kimi burada son dərəcə mühüm rol oynayır. Bu Sazişin praktiki nəticələri Orta Dəhlizin iqtisadiyyatlarımızı birləşdirən yaşıl körpü qismində inkişafına töhfə verəcək. Bu əsas sahədə sıx əməkdaşlıq üç dövlət arasında təcrübə və qabaqcıl texnologiyalar mübadiləsini gücləndirəcək və enerji təhlükəsizliyimizin gələcəkdə də möhkəmləndirilməsinə kömək edəcək.




Yaşıl enerji karbon neytrallığına doğru irəliləyən Qazaxıstan üçün prioritet istiqamətdir. Biz qazıntı resurslarından asılılığımızı azaltmaq, texnoloji yenilikləri inkişaf etdirmək və ekoloji davamlılığımızı dəstəkləyə biləcək infrastruktur yaratmaq üçün fəal işləyirik. Qazaxıstan xarici tərəfdaşlarla ümumi gücü 43 giqavat olan yaşıl layihələrin həyata keçirilməsinə dair razılaşmalar əldə edib.

Mən burada Səudiyyə Ərəbistanının energetika nazirini, eləcə də tanınmış "ACWA Power" şirkətinin nümayəndələrini salamlamaq istərdim. Əməkdaşlığınıza görə sizə minnətdarıq.

Əziz dostlar, bugünkü Saziş ortaq məsuliyyət, qarşılıqlı etimad və strateji tərəfdaşlığın dərk edilməsinin dünyanı yaxşılığa doğru necə dəyişdirdiyinin parlaq nümunəsi olacaqdır.

Yekun olaraq, İlham Heydər oğluna və Şavkat Miromonoviçə, həmçinin danışıqlar prosesinin bütün iştirakçılarına bu gün nəticələrini müşahidə edə biləcəyimiz səmərəli işə görə səmimi təşəkkürümü bildirmək istəyirəm.

Planlarımızın həyata keçirilməsində hamımıza uğurlar arzulayıram, onlar mahiyyət etibarilə çox perspektivli, hətta deyərdim ki, iddialıdır. Qoy bu strateji tərəfdaşlıq gələcək nailiyyətlərin bünövrəsinə çevrilsin və regionun, bütövlükdə dünyanın davamlı inkişafı üçün yeni imkanlar açsın. Diqqətinizə görə təşəkkür edirəm.

*

Özbəkistan Prezidenti **Şavkat Mirziyoyev** dedi:

– Hörmətli İlham Heydər oğlu!

Hörmətli Kasım-Jomart Kemeleviç!

Sizi salamlayıram. Əvvəlcə, Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Sammitinin uğurla keçirilməsi münasibətilə hörmətli İlham Heydər oğlunu bir daha təbrik etmək istərdim. Biz hamımız gördük ki, bu, Azərbaycanın nüfuzunun tanınmasıdır. Regionumuzda ilk dəfədir ki, belə möhtəşəm tədbir keçirilir və bu, Azərbaycanın qlobal miqyasda ən yüksək nüfuzunun bariz göstəricisidir. Bu gün biz Avropaya birlikdə yeni yaşıl enerji dəhlizi yaradırıq. Bu da tarixi hadisədir. Mən də fürsətdən istifadə edərək, çox işlər görən və görməyə çalışan Səudiyyə Ərəbistanının energetika nazirini təbrik etmək istəyirəm. Biz üç ölkə çox mehriban əməkdaşlıq edirik, Səudiyyə Ərəbistanı və "ACWA Power" şirkəti Özbəkistanda da çox iş görür. Mən çox minnətdaram ki, onlar bunu məmnuniyyətlə həyata keçirirlər və regionumuzda çox fəal iştirak edirlər.

Bərpaolunan enerji təkcə iqtisadi məqsəd deyil. Bu, bizim gələcəyə verdiyimiz töhfədir, gələcək nəsillər qarşısında məsuliyyət hissimizin nəticəsidir. Mən bu layihənin ekoloji əhəmiyyətini xüsusilə qeyd etmək istərdim. Nəql ediləcək enerji külək və Günəş enerjisidir, iqlimə təsiri azaltmağa kömək edəcək bərpaolunan və təmiz mənbədir. Bununla biz Paris Sazişi çərçivəsində iqlimin qorunması üzrə birgə səyləri və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağı dəstəkləyirik. Ölkələrimiz əhəmiyyətli dərəcədə bərpaolunan enerji resurslarına malikdir və qlobal enerji keçidinə mühüm töhfə verə bilər. Özbəkistanda bu istiqamətdə genişmiqyaslı işlər aparılır, yaşıl enerjinin inkişafı üçün böyük proqram qəbul edilib. Biz 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin payını 40 faizə çatdırmağı, həmçinin 4,2 giqavatlıq enerjisaxlama sistemləri yaratmağı planlaşdırırıq. Bundan başqa, ilin sonunadək biz əlavə olaraq 2,6 giqavat bərpaolunan enerji və 300 meqavat enerjisaxlama sistemlərini şəbəkəyə birləşdirəcəyik. Hər il təxminən 2 giqavat Günəş və külək enerjisi istehsal etmək gücünü işə salırıq.

Hörmətli tədbir iştirakçıları, bu layihənin həyata keçirilməsinin iqtisadi səmərəsini dövlətlərimizin hamısı hiss edəcək. Minlərlə iş yeri açılacaq, enerji infrastrukturu inkişaf etdiriləcək, texnoloji və biznes əlaqələri genişlənəcək və bunun əsas nəticəsi olaraq əhalimizin həyat səviyyəsi yüksələcək. Bu layihənin icrasını sürətləndirmək üçün qarşımızda bir sıra mühüm vəzifələr durur. Bu, çox böyük və iddialı layihədir, biz bu iddialı layihənin həyata keçirilməsini sürətləndirmək üçün hər şeyi edəcəyik. Bu, birgə müəssisənin yaradılması, texniki-iqtisadi əsaslandırmanın hazırlanması, maliyyələşdirmə mənbələrinin və tender prosedurlarının razılaşdırılmasıdır. Biz, bütün iştirakçılar bu prosesləri mümkün qədər sürətləndirməliyik. Mən bu mühüm regional layihənin birgə həyata keçirilməsinə sadiqliyimizi bir daha təsdiqləmək istərdim.

*

Daha sonra Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin iştirakı ilə Azərbaycan, Qazaxıstan, Özbəkistan, Səudiyyə Ərəbistanı Krallığı arasında "Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan Respublikasının, Qazaxıstan Respublikasının, Özbəkistan Respublikasının və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında İcra Proqramı"nın imzalanması mərasimi olub.

İmzalanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin və Səudiyyə Ərəbistanının energetika naziri şahzadə Əbdül Əziz bin Salman Əl-Səudun görüşü keçirilib.

# Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşü

## Xankəndidə tikiş fabrikinin videobağlantı vasitəsilə açılışı





**Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb.**

Şavkat Mirziyoyev COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, bu tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu vurğuladı. Qeyd etdi ki, Özbəkistan Azərbaycana dost, qardaş və müttəfiq ölkə olaraq buna sevinir. Ali qonaq dedi ki, Özbəkistanda Azərbaycana xüsusi münasibət var.

İkitərəfli münasibətlərimizin inkişafında tarixi bir dövrün olduğunu vurğulayan Özbəkistan Prezidenti ölkələrimiz arasında bu il imzalanan müttəfiqlik münasibətləri haqqında Müqaviləni qeyd etdi. Şavkat Mirziyoyev nümayəndə heyətlərimizin yaxından işlədiyini, qarşıya qoyulan layihələrin uğurla icra edildiyini dedi.

Prezident İlham Əliyev ölkəmizə səfərə gələrək COP29-da iştirak etdiyinə görə Özbəkistan dövlətinin başçısına təşəkkürünü bildirdi.

İmzalanan sənədlərin önəminə toxunan Azərbaycan Prezidenti dedi ki, yaşıl enerjinin inkişafı və ötürülməsi layihələrinin həyata keçirilməsi əlaqələrimizin mahiyyətini göstərir.

Dövlətimizin başçısı Xankəndi şəhərində tikiş fabrikinin inşası ilə bağlı layihəyə görə minnətdarlığını bildirdi və burada xeyli sayda insanın işlə təmin olunacağının önəmini vurğuladı.

Söhbət zamanı Bakıda Özbəkistan Evi, Özbəkistanda isə Azərbaycan Evi layihələrinin icrasından məmnunluq bildirildi, ölkəmizin Özbəkistanda ticarət nümayəndəliyinin açılması, təhsil, maşınqayırma, inşaat, mədən, əczaçılıq, pambıqçılıq, turizm sahələrində layihələrlə bağlı fikir mübadiləsi aparıldı.

Sonra Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə Xankəndi şəhərində tikiş fabrikinin videobağlantı vasitəsilə açılış mərasimi oldu.

***(ardı 4-cü səhifədə)***

COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşü

**(əvvəli 3-cü səhifədə)**

**Prezident İlham Əliyev:** Təbrik edirəm!

**Prezident Şavkat Mirziyoyev:** Təbrik edirəm! Uğurlu başlanğıcdır.

**Prezident İlham Əliyev:** Burada həm Azərbaycan dilində, həm də özbək dilində yazılıb. Sözlər eynidir.

Bu fabrik birliyimizin daha bir rəmzidir. Mən qardaşım Şavkat Miromonoviçə minnətdarlığımı bildirirəm ki, bizim özbək dostlarımız qısa müddətdə Xankəndidə minlərlə insanın çalışacağı və təbii ki, mütləq əksəriyyəti qadınlardan ibarət gözəl müəssisənin yaradılmasına kömək göstərdilər. Bu, məşğulluqdur, bu, istehsaldır, bu, Qarabağın inkişafıdır. Özbək qardaşlarımız isə yenə burada birincidirlər. Füzulidə məktəb tikməkdə bizə ilk yardımçı oldular, işğaldan azad edilmiş ərazilərdə belə böyük bir müəssisə yaratmaqda bizə ilk köməyi göstərdilər.

Mən Şavkat Miromonoviçə, bütün özbək dostlarımıza və qardaşlarımıza belə qardaşlıq münasibətinə görə bir daha minnətdarlığımı bildirir və bu müəssisənin açılışı münasibətilə sizi təbrik edirəm.

*







Qeyd edək ki, bu tikiş fabrikinin inşası Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentlərinin tapşırıqlarına əsasən həyata keçirilib. Layihənin ümumi investisiya dəyəri 11 milyon manat təşkil edir. Fabrikin xammal tədarükü üçün birgə sənaye əməkdaşlığı həyata keçirilir. Müəssisə həm yerli, həm də Özbəkistan xammalı əsasında fəaliyyət göstərəcək. Regionda qeyri-neft ixracının artımına əhəmiyyətli töhfə verəcək fabrikdə istehsal olunacaq məhsulların 80 faizi müxtəlif ölkələrə ixrac ediləcək. Ərazisi 1,2 hektar olan fabrikdə ildə 3-5 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal ediləcək. Ümumilikdə burada 800 iş yeri yaradılacaq. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim almış 250 nəfər hazırda işlə təmin olunub. Müəssisədə əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşların məşğulluğuna xüsusi diqqət yetirilib. Azərbaycan–Özbəkistan birgə müəssisəsi olan tikiş fabriki iki ölkə arasında uğurlu əməkdaşlığın rəmzi olaraq ölkəmizdə yüngül sənayenin inkişafı üçün yeni imkanlar açır və ənənəvi dostluq, iqtisadi tərəfdaşlıq əlaqələrimizi möhkəmləndirir.

## Azərbaycan və Bolqarıstan prezidentlərinin iştirakı ilə enerji sazişi imzalanıb



**Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə görüşüb.**

Əvvəlcə Azərbaycan və Bolqarıstan prezidentlərinin iştirakı ilə “SOCAR və “Asarel Energy” arasında Birgə İnkişaf Sazişi” imzalanıb.

Görüşdə Prezident İlham Əliyev imzalanan sənədin əhəmiyyətini vurğuladı, bunun əməkdaşlığımızın möhkəmlənməsi işinə verdiyi töhfəyə toxundu.

Dövlətimizin başçısı COP29-da iştirak etdiyinə görə Bolqarıstan Prezidentinə minnətdarlığını bildirdi. Azərbaycan Prezidenti bu tədbirin artıq səmərəli nəticələr verdiyini deyərək vurğuladı ki, Paris Sazişinin karbon ticarəti üzrə 6-cı maddəsi ilə bağlı 10 ildən çoxdur müzakirələrin aparılmasına və indiyədək irəliləyişlərin əldə edilməməsinə baxmayaraq, məhz COP29-da bununla əlaqədar müvafiq irəliləyişlərə nail olunub.

COP29-un əhəmiyyətinə toxunan Bolqarıstan Prezidenti bu tədbirin mükəmməl səviyyədə təşkil olunduğunu vurğuladı. Qeyd etdi ki, burada əldə edilən nəticələr gələcək üçün böyük əhəmiyyət daşıyacaq.

Rumen Radev ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini məmnunluqla vurğuladı.

Görüşdə bərpaolunan enerji sahəsində yeni əməkdaşlıq layihələri müzakirə olundu, COP29 çərçivəsində beynəlxalq maliyyə və bank təşkilatlarının yeni maliyyə hədəfi ilə bağlı verdiyi açıqlamaların ciddi ümidlər vəd etdiyi bildirildi.

## Azərbaycan Prezidenti İlham Əliyevin Toqo Prezidenti ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Toqo Respublikasının Prezidenti For Essozimna Qna ilə görüşüb.**

Dövlətimizin başçısı COP29 tədbirində iştirak etdiyi üçün Toqo Prezidentinə təşəkkürünü bildirdi.

For Essozimna Qna COP29-a dəvətə görə minnətdarlığını ifadə edərək bu tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu vurğuladı.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Afrika ölkələri, o cümlədən Toqo ilə münasibətlərə böyük əhəmiyyət verir.

Söhbət zamanı ikitərəfli əməkdaşlıq məsələlərinə toxunuldu, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## Azərbaycan Prezidenti İlham Əliyevin Ruanda Prezidenti ilə görüşü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə görüşüb.**



COP29-a dəvətə, bu tədbirin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Ruanda Prezidenti qeyd etdi ki, dövlətimizin başçısının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılış mərasimində çıxışı çox dolğun və məzmunlu idi.

Prezident İlham Əliyev dəvəti qəbul edib COP29 tədbirində iştirakına görə Pol Kaqameyə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, COP sədrliyini öz üzərinə götürəndən etibarən Azərbaycana qarşı haqsız və ədalətsiz hücumlar olmuş, beynəlxalq mediada müxtəlif kampaniyalar təşkil edilmişdir ki, bunlar da qəbuledilməzdir. Azərbaycan Prezidenti dedi ki, belə təəssürat yaradılır ki, sanki dünyanı çirkləndirən inkişaf etməkdə olan dövlətlərdir.

Ruanda Prezidenti “Commonwealth” təşkilatı çərçivəsində də Azərbaycanla əməkdaşlıq məsələlərini qeyd etdi.

Dövlətimizin başçısı “Commonwealth” xətti ilə ölkəmizin kiçik ada dövlətlərinə maliyyə yardımı göstərdiyini və Azərbaycanın peyk imkanlarından istifadə edərək həmin ölkələrin iqlim dəyişikliyi nəticəsində qarşılaşdıqları məsələlərlə bağlı məlumat bazasının hazırlanacağını da bildirdi, Azərbaycanın praktiki baxımdan faydalı əməkdaşlığı daim dəstəklədiyini dedi.

Görüşdə Azərbaycanla Ruanda arasında ikitərəfli münasibətlər müzakirə olundu.

Ruanda Prezidenti Azərbaycanın “ASAN xidmət” təcrübəsinin çox maraqla qarşılandığını qeyd etdi. Bu təcrübənin Ruandada da tətbiq olunması istiqamətində birgə əməkdaşlıq məsələləri müzakirə olundu.

ASAN və DOST xidmətləri haqqında məlumat verən dövlətimizin başçısı burada göstərilən xidmətlərin keyfiyyətinin vətəndaşlar tərəfindən maksimum şəkildə müsbət qarşılandığını bildirdi.

Görüşdə iqtisadi-ticari əlaqələr, sərmayələr sahəsində əməkdaşlıq, insanlararası təmasların daha da genişləndirilməsi məsələləri müzakirə olundu, birgə işçi qrupunun yaradılması razılaşdırıldı.

Ruanda Prezidenti qeyd etdi ki, Azərbaycanla əməkdaşlığı daha da gücləndirmək niyyətindədir.

Pol Kaqame Prezident İlham Əliyevi ölkəsinə rəsmi səfərə dəvət etdi. Dövlətimizin başçısı da öz növbəsində Ruanda Prezidentini Azərbaycana rəsmi səfərə dəvət etdi.

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Azərbaycan Prezidenti İlham Əliyevin Konqo Prezidenti ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə görüşüb.**

COP29-un yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevi təbrik edən Deni Sassu-Nqesso ölkəmizə rəsmi səfərini məmnunluqla xatırladı.

Ali qonaq Azərbaycan Prezidentini ölkəsinə rəsmi səfərə dəvət etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıldı. Azərbaycanın müxtəlif nazirliklərinin ekspertlərindən ibarət nümayəndə heyətinin tezliklə Konqoya səfərinin təşkil edilməsi, iqtisadiyyat, ticarət, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq imkanlarına baxılması məsələsi qeyd olundu. Konqodan olan tələbələrin ölkəmizdə təhsil almalarına yaradılan şəraitə görə minnətdarlıq ifadə edildi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

Dövlətimizin başçısı COP29-da substantiv məsələlər üzrə də yaxşı nəticələrin əldə olunduğunu qeyd etdi. Bununla belə, prosesin bundan sonra da, yəni, tədbirin sonuna qədər davam etdiriləcəyi vurğulandı. Bu xüsusda, Paris Sazişinin 6-cı bəndi üzrə əldə edilmiş ilkin razılaşmalar müsbət qiymətləndirildi. Həmçinin İtki və Zərərə Cavab Fondunun fəaliyyətə başlaması və ona əlavə maliyyə töhfələrinin verilməsi məsələsinə toxunuldu. Görüşdə beynəlxalq maliyyə və bank təsisatları tərəfindən yeni maliyyə hədəfi ilə əlaqədar bəyan edilən mövqenin bu istiqamətdə müsbət addım olduğu qeyd edildi.

# Prezident İlham Əliyevin Çin Baş nazirinin müavini ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Çin Xalq Respublikası Baş nazirinin müavini Din Süesən ilə görüşüb.**

Din Süesən Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Qonaq qeyd etdi ki, COP29-da dövlətimizin başçısının çıxışı çox dolğun və məzmunlu idi. COP29-un yüksək səviyyədə təşkil edildiyini və bundan məmnun olduqlarını deyən Çin Xalq Respublikası Baş nazirinin müavini dedi ki, bu, bir daha onu göstərir ki, dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın çox yüksək təşkilatçılıq potensialı var. Prezident İlham Əliyev tərəfindən verilmiş tapşırıqların yüksək səviyyədə yerinə yetirildiyini vurğulayan Din Süesən qısa müddət ərzində Azərbaycanın belə miqyasda iş həyata keçirdiyini vurğuladı.

Çin Xalq Respublikası Baş nazirinin müavini bildirdi ki, Azərbaycanla Çin arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır və "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbulu əməkdaşlığımızı keyfiyyətcə yeni səviyyəyə qaldırıb.

Dövlətimizin başçısı da iki ölkə arasındakı münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyərək bununla da əlaqələrimizin məzmunca daha da zənginləşdiyini vurğuladı.

Söhbət zamanı COP-un hazırlığı prosesində Azərbaycanın Çinin BYD şirkəti ilə əməkdaşlığı, bu şirkətin elektrik avtobuslarının ölkəmizə idxalı qeyd edildi, COP çərçivəsində hazırda onlardan istifadə olunduğu bildirildi. BYD şirkətinin elektrik nəqliyyat vasitələrinin Azərbaycanda istehsalı ilə əlaqədar razılığın əldə olunduğu diqqətə çatdırıldı.

Ölkələrimizin çoxtərəfli diplomatiyaya və xalqlararası dialoqa böyük önəm verdiyi vurğulandı.

"Bir kəmər, bir yol" layihəsi çərçivəsində əməkdaşlığa toxunuldu, Azərbaycanın bu layihəni dəstəklədiyi bildirildi və son dövrlərdə yükdaşımalarda artım müsbət amil kimi qeyd olundu. Azərbaycanın nəqliyyat infrastrukturunun və Bakı limanının potensialının artırılmasının gələcək yükdaşımalar üçün daha geniş imkanlar yaratdığı bildirildi.

Çinlə Azərbaycan arasında mədəni-humanitar əlaqələrin inkişafından, yüksəksəviyyəli qarşılıqlı səfərlərin intensivliyindən və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızdan məmnunluq ifadə olundu.

# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Hökumətinin Sədri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustin ilə görüşüb.**

Rusiya Hökumətinin Sədrini salamlayan Prezident **İlham Əliyev** dedi:

– Sizi görməyimə şadam. Vaxt tapıb gəldiyiniz üçün sağ olun. Çox şadam ki, Rusiya bu konfransda yüksək səviyyədə təmsil olunub. Əminəm ki, Sizin müzakirələrdə şəxsən iştirakınız ona xüsusi əhəmiyyət verəcək.

Həmçinin konfransın Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi ərəfəsində və COP29-a hazırlıq prosesində Azərbaycana göstərilən dəstəyə görə Rusiya Federasiyasına minnətdarlığımı bildirmək istərdim. Bizim üçün bu, təbii ki, müstəsna hadisədir. Azərbaycanda heç vaxt belə miqyasda tədbirlər keçirilməyib. Biz şadıq ki, dost ölkələr bu tədbirdə fəal iştirak edir və yüksək səviyyədə təmsil olunurlar.

Əlbəttə, həmişə olduğu kimi, ikitərəfli gündəliyi bir daha nəzərdən keçirmək üçün yaxşı fürsətdir. Son vaxtlar Vladimir Vladimiroviç ilə tez-tez görüşürük, amma bununla belə, münasibətlərimizin gündəliyi o qədər genişdir ki, sanki görülən bütün işləri mütəmadi olaraq yoxlamağa və gələcək inkişaf istiqamətlərini müəyyən etməyə ehtiyac var.

Beləliklə, bir daha xoş gəlmisiniz.

*

Rusiya Federasiyası Hökumətinin Sədri **Mixail Mişustin** dedi:

– Hörmətli İlham Heydər oğlu, sağ olun.

Bütün tədbirlərin, xüsusən belə genişmiqyaslı, yəqin ki, Birləşmiş Millətlər Təşkilatının iqlim məsələlərinə həsr olunmuş ən böyük konfransının təşkilinə görə Sizə təşəkkür etmək istəyirəm. Burada hamı ən yüksək təşkilatçılıq səviyyəsini qeyd edir.

Həmçinin bildirmək istəyirəm ki, Vladimir Vladimiroviç Putin mənim uçuşumdan əvvəl şəxsən Sizə çoxlu, ən səmimi arzularını çatdırdı və xahiş etdi ki, hazırkı tədbirin uğurla keçməsi münasibətilə Sizi təbrik edim. Artıq hamı bunu qeyd edir.

Ümumiyyətlə, belə bir konfrans ilk dəfədir Cənubi Qafqazda keçirilir və bu, bildiyimə görə, gündəliyin təşkili üçün çox iş görmüş Azərbaycanın müstəsna rolunu vurğulayır. Gündəlik mürəkkəbdir. Hər kəs müzakirələrin yüksək səviyyəsini, həmçinin hazırkı konfransın tarazlaşdırılmış, o cümlədən nəticələr verən sənədini qeyd edir.

İkitərəfli gündəliyimizə gəldikdə, Siz bu barədə danışdınız. Birgə əmtəə dövriyyəsi artır. Biz ikitərəfli gündəliyimizin bütün istiqamətləri üzrə əməkdaşlıq edirik. Bunlar həm sənaye, energetika, həm kənd təsərrüfatı, həm də mədəni-humanitar, rəqəmsallaşma sahələridir. Biz Əli Hidayət oğlu ilə – hökumətdəki həmkarlarımızla bu gün bütün gündəlik üzrə iş apardıq.

Qonaqpərvərliyə görə Sizə bir daha çox təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun. Mənim də ən xoş arzularımı və salamlarımı Vladimir Vladimiroviçə çatdırın.

**Mixail Mişustin:** Sağ olun!

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm!

# Azərbaycan Prezidenti İlham Əliyevin Pakistanın Baş naziri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə görüşüb.**

Məhəmməd Şahbaz Şərif Pakistan Prezidenti Asif Əli Zərdarinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

COP29-un yüksək səviyyədə təşkil olunması münasibətilə dövlətimizin başçısını təbrik edən Məhəmməd Şahbaz Şərif vurğuladı ki, qardaş Azərbaycanda belə bir tədbirin keçirilməsinə görə çox seviniblər. Pakistanın Baş naziri Azərbaycan Prezidentinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılış mərasimində çox məzmunlu çıxış etdiyini dedi.

Prezident İlham Əliyev Pakistanın Baş nazirinə COP29-da iştirak etdiyinə görə minnətdarlığını bildirdi və özünün Pakistana səfərini məmnunluqla xatırladı.

Söhbət zamanı dövlətimizin başçısının Pakistana səfəri zamanı aparılmış müzakirələrin və imzalanmış sənədlərin ikitərəfli əlaqələrimizin inkişafı baxımından əhəmiyyəti qeyd olundu, ölkələrimiz arasında sərmayələr, iqtisadiyyat, ticarət və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu. Nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin intensivləşməsi məmnunluqla qeyd edildi. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızdan məmnunluq ifadə olundu. Eyni zamanda, Azərbaycan–Türkiyə–Pakistan üçtərəfli əməkdaşlığı çərçivəsində əlaqələrimizin əhəmiyyəti vurğulandı.

COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# Azərbaycan Prezidenti İlham Əliyevin Yunanıstanın Baş naziri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Yunanıstan Respublikasının Baş naziri Kiriakos Mitsotakis ilə görüşüb.**

Yunanıstanın Baş naziri COP29-un qısa müddət ərzində yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı. Beynəlxalq təşkilatlar çərçivəsində əlaqələr, mədəniyyət və turizm sahələrində əməkdaşlıq, Bakı ilə Afina arasında birbaşa uçuşların təşkili məsələləri qeyd edildi.

# Azərbaycan Prezidenti İlham Əliyevin Qabonun vitse-prezidenti ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Qabon Respublikasının vitse-prezidenti Cozef Ovondault Berre ilə görüşüb.**

Qabonun vitse-prezidenti COP29-a dəvətə görə dövlətimizin başçısına təşəkkür etdi, bu tədbirin ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan Afrika ölkələri ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verir.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün nümayəndə heyətlərinin səfərləri məsələsinə toxunuldu.

# Azərbaycan Prezidenti İlham Əliyevin BVF-nin sərəncamçı direktoru ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Beynəlxalq Valyuta Fondunun (BVF) sərəncamçı direktoru Kristalina Georgiyeva ilə görüşüb.**

Prezident İlham Əliyev COP29-da iştirakına görə Kristalina Georgiyevaya minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Azərbaycan ilə BVF arasında əməkdaşlığın səviyyəsindən razılığını ifadə etdi, əməkdaşlığımızın böyük hissəsinin iqtisadi və maliyyə siyasəti üzrə məsləhətləşmələrdən ibarət olduğunu vurğuladı.

Beynəlxalq Valyuta Fondu ilə sıx əməkdaşlığın davam etdirilməsinin önəmini bildirən dövlətimizin başçısı xüsusən də Azərbaycanın COP29-a sədrliyi dövründə inkişaf etməkdə olan ölkələrə əlavə maliyyə təminatı üçün fəal şəkildə iş aparılacağını dedi.

COP29-a dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Kristalina Georgiyeva bu tədbirin Azərbaycanda ən yüksək səviyyədə təşkil edilməsi ilə bağlı təbriklərini çatdırdı və onun uğurla başa çatacağına əminliyini bildirdi.

Kristalina Georgiyeva Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında maliyyə sahəsində əməkdaşlığın genişləndirilməsi üçün əlavə potensialın olduğunu qeyd etdi və ölkəmizi BVF vasitəsilə inkişaf etməkdə olan ölkələrə iqlim çağırışları ilə bağlı yardım proqramlarında iştiraka dəvət etdi.

Prezident İlham Əliyev bu istiqamətdə BVF ilə əməkdaşlıq təklifini müsbət qiymətləndirdi, qısa zamanda bunun üçün Azərbaycan tərəfindən zəruri addımların atılacağını dedi.

Söhbət zamanı ölkəmizlə BVF arasında əməkdaşlığa dair fikir mübadiləsi aparıldı, qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

# Azərbaycan Prezidenti İlham Əliyevin İranın vitse-prezidenti ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də İran İslam Respublikasının vitse-prezidenti, İranın Ətraf Mühitin Mühafizəsi Təşkilatının sədri xanım Şina Ənsari ilə görüşüb.**

COP29-un ölkəmizdə keçirilməsi münasibətilə Azərbaycan Prezidentini təbrik edən Şina Ənsari İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Məsud Pezeşkianın prezident seçilməsindən sonra onunla telefon danışığını məmnunluqla xatırlayan dövlətimizin başçısı vurğuladı ki, Məsud Pezeşkianın dövlət başçısı seçilməsindən sonra Azərbaycan hökumətinin müxtəlif səviyyəli nümayəndə heyətləri İrana səfər ediblər.

İran ilə Azərbaycan arasında çox yaxşı münasibətlərin olduğunu deyən Şina Ənsari əlaqələrimizin tarixi xarakter daşıdığını vurğuladı.

Söhbət zamanı Araz çayı üzərində birgə layihələr, Su Elektrik Stansiyasının tikintisi və ətraf mühit sahəsində əməkdaşlığımız qeyd olundu, hökumətlərarası komissiyanın fəaliyyətinin önəmi vurğulandı.

Şimal–Cənub nəqliyyat dəhlizinə toxunuldu, bu xüsusda Azərbaycan, Rusiya və İran arasında birgə əməkdaşlıq qeyd edildi.

Görüşdə Xəzər dənizinin ekoloji problemlərinin aradan qaldırılması və Xəzərdə hazırda suyun səviyyəsinin azalması probleminə toxunuldu, bu baxımdan sərhədyanı ölkələr arasında əməkdaşlığın vacibliyi vurğulandı.

Prezident İlham Əliyev Ermənistanın dağ-mədən sənayesinin tullantılarının Araz çayına axıdılması və bunun çayın ekoloji durumuna mənfi təsir etməsindən narahatlığını ifadə etdi.

Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektlərinə dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyevin AYİB-nin prezidenti ilə görüşü



**Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) prezidenti Odil Reno-Basso ilə görüşüb.**




Əvvəlcə Prezident İlham Əliyev və Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Odil Reno-Bassonun iştirakı ilə "Gəncə şəhərində su təchizatı və kanalizasiya sistemlərinin, yağış sularının idarəetmə sisteminin yenidən qurulması və tullantı sularının təmizlənməsi qurğusunun tikintisi üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və Avropa Yenidənqurma və İnkişaf Bankı arasında Anlaşma Memorandumu"nun imzalanması mərasimi oldu.

Görüşdə dövlətimizin başçısı imzalanan Memorandumun əhəmiyyətinə toxundu, bununla da əməkdaşlığımızın gündəliyində çox mühüm bir səhifənin açıldığını dedi və bu sənədin imzalanmasını əməkdaşlığımızda növbəti önəmli mərhələ kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Odil Reno-Bassonun COP29-da iştirakına görə təşəkkürünü bildirdi. Tədbirin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı burada artıq çox səmərəli nəticələrin əldə olunduğunu qeyd etdi.

Qonaqpərvərliyə və yüksək təşkilatçılığa görə minnətdarlığını bildirən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti COP29-un çox əhəmiyyətli bir tədbir olduğunu dedi. Qonaq imzalanan sənədi əməkdaşlığımızda önəmli hadisə kimi qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı arasında perspektiv layihələr və əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# Azərbaycan və Rusiya baş nazirlərinin görüşü

**Noyabrın 13-də Bakıda Azərbaycanın Baş naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Hökumətinin Sədri Mixail Mişustinlə görüşüb.**



Görüşdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) əhəmiyyəti qeyd edilib, konfransın iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq səylərə mühüm töhfə verəcəyinə əminlik ifadə olunub.

Tərəflər iki ölkə prezidentlərinin birgə səyləri və sıx təmasları sayəsində Azərbaycan-Rusiya strateji tərəfdaşlığının inkişafının yüksək dinamikasının qorunub saxlanıldığını qeyd ediblər. Rusiya Prezidenti Vladimir Putinin cari ilin avqustunda Azərbaycana dövlət səfəri zamanı, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının iclasında və BRICS Sammitində iştirakı çərçivəsində oktyabrda Moskva və Kazanda ali səviyyədə dialoqun davam etdirilməsinin ikitərəfli münasibətlərə yaxşı təkan verdiyini vurğulayıblar.

Qeyd edilib ki, belə sıx təmaslar prezidentlərə öz tapşırıqlarının icrasını nəzarətdə saxlamağa, həmçinin əməkdaşlığın yeni istiqamətlərini müəyyən etməyə imkan verir. Bu baxımdan dövlət başçılarının tapşırıqlarının icrası üzrə hökumət xətti ilə sıx işin davam etdirilməsinə qarşılıqlı hazırlıq ifadə olunub. Tərəflər ticarət-iqtisadi əməkdaşlığın ardıcıl inkişafından məmnunluqlarını bildiriblər. Cari ildə 9 ay ərzində 3,5 milyard dollar təşkil edən ticarət dövriyyəsinin artım dinamikasını nəzərə alaraq, ilin yekunlarına görə qarşılıqlı ticarətin yeni rekord həcmi proqnozlaşdırılıb.

Nəqliyyat-tranzit sahəsi əməkdaşlığın əsas istiqamətlərindən biri kimi qiymətləndirilib. İkitərəfli yükdaşımalarının sabit artımı qeyd edilib. Tərəflər "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinə xüsusi diqqət ayırıb, dəhlizin infrastrukturunun inkişafı üzrə səylərin artırılmasını alqışlayıblar.

Hökumət başçıları ikitərəfli layihələrin geniş siyahısını əhatə edən sənaye əməkdaşlığının səviyyəsini yüksək qiymətləndiriblər. Tərəflərin bir sıra yeni qarşılıqlı faydalı təşəbbüsləri nəzərdən keçirdiyi vurğulanıb. Aqrar-sənaye kompleksində əməkdaşlığın inkişaf tempindən məmnunluq ifadə olunub. Azərbaycan kənd təsərrüfatı məhsullarının, o cümlədən meyvə-tərəvəzin Rusiyaya tədarükünün davamlı artımı qeyd edilib. Həmçinin Rusiyanın Azərbaycanın buğda və gübrə tədarükü üzrə etibarlı tərəfdaşı kimi rolu vurğulanıb.

Tərəflər Azərbaycan və Rusiyanın iqlim gündəliyinə, xüsusilə Xəzər dənizinin dayazlaşması probleminə böyük diqqət yetirdiyini alqışlayıblar. Prezidentlərin tapşırığı ilə ikitərəfli işçi qrupu yaradılıb və onun qarşısında dəniz səviyyəsinin azalmasına təsir edən səbəbləri araşdırmaq və sonrakı dayazlaşmaya şərait yaradan amillərin yumşaldılması üzrə tədbirlər hazırlamaq vəzifəsi qoyulub.

Hökumət başçıları humanitar qarşılıqlı fəaliyyətin və regionlararası əməkdaşlığın ənənəvi yüksək səviyyəsindən məmnunluqlarını bildirib, mədəni, elm, gənclər mübadiləsinin, həmçinin qarşılıqlı turist axınının artmasını alqışlayıblar.

Əli Əsədov və Mixail Mişustin qarşılıqlı faydalı əməkdaşlığın daha da artırılması perspektivlərini müzakirə edib, ikitərəfli gündəliyin bütün spektri üzrə konstruktiv işin davam etdirilməsinə hazır olduqlarını təsdiqləyiblər.

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin Yaponiya heyəti ilə görüşü



**Noyabrın 13-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, COP29 üzrə Təşkilat Komitəsinin sədri Samir Nuriyev tədbirdə iştirak edən Tokionun qubernatoru Yuriko Koikenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə ölkəmizlə Yaponiya arasında münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub və münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğu bildirilib.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə COP29-a hazırlıq işlərinin müvəffəqiyyətlə həyata keçirildiyi, sədrliyimiz çərçivəsində iqlim gündəliyi üzrə bütün tərəflər arasında konsensusa nail olunması istiqamətində nəticəyönümlü səylər göstərildiyi vurğulanıb.

Öz növbəsində Y.Koike COP29-un uğurla təşkil edilməsi münasibətilə təbriklərini çatdırıb və COP29 sədrliyində ölkəmizə uğurlar arzulayıb.

Görüşdə, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri barədə məlumat verilib, dövlətimizin başçısı tərəfindən yaşıl enerji zonası elan edilmiş bu ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının tətbiq olunduğu vurğulanıb, Yaponiya ilə bu xüsusda əməkdaşlıq imkanları müzakirə edilib.



Söhbət zamanı Bakı və Tokio şəhərləri arasında əlaqələrin genişləndirilməsi perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda Yuriko Koikenə "Qarabağ işğaldan əvvəl və sonra" kitabı təqdim edilib.

*XQ*

# Ceyhun Bayramov COP29-un dialoqunda

**Noyabrın 13-də xarici işlər naziri Ceyhun Bayramov COP29-un Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti çərçivəsində təşkil olunan "Dağlar üzrə gündəliyin irəlilədilməsi, ümumi trend və iqlim dəyişikliyi" mövzusunda yüksəksəviyyəli dialoqda çıxış edib.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, yüksəksəviyyəli tədbirdə, həmçinin Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Monqolustanın Prezidenti Uxnaaqiyn Xurelsux, Nepal Prezidenti Ramçandra Paudel, habelə digər yüksəksəviyyəli rəsmilər iştirak ediblər.

Tədbirdə çıxışı zamanı C.Bayramov dağların Yer kürəsində bir çox insanın evi rolu oynaması ilə yanaşı, onların təmin etdiyi təbii ehtiyatların, o cümlədən, su resurslarının vacibliyi, habelə ekosistem və biomüxtəliflik baxımından əhəmiyyətindən bəhs edib.

Dağlarda buzlaqların əriməsi, bunun nəticəsində yaranan daşqın və torpaq sürüşmələri kimi fəlakətlərin bu istiqamətdə sistematik tədbirlərin görülməsini şərtləndirdiyi diqqətə çatdırılıb.

Azərbaycanın COP29 sədrliyinin, o cümlədən dağ ekosistemi ilə bağlı iqlim problemlərinin yerli icmalara münasibətdə spesifik və hədəfyönümlü iqlim planlarına ehtiyac duyduğuna diqqət çəkdiyi qeyd olunub.

*XQ*

# Azərbaycan–İtaliya parlamentlərarası yaşıl əməkdaşlığı müzakirə edilib

**Noyabrın 13-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvləri ölkəmizdə səfərdə olan İtaliya parlamentinin nümayəndə heyəti ilə görüşüblər.**



Bildirilib ki, komitə sədri Sadiq Qurbanov qonaqların Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilən 29-cu sessiyasında (COP29) iştirakını yüksək qiymətləndirib.

Belə mötəbər iqlim sammitinin Bakıda keçirilməsindən bəhs edən komitə sədri Azərbaycanın ətraf mühit problemlərinə həssaslıqla yanaşdığını diqqətə çatdırıb, ölkəmizin həyata keçirdiyi yaşıl enerji və yaşıl texnologiya layihələri barədə qonaqlara məlumat verib, Azərbaycanın Avropaya yaşıl enerji tədarükü ilə bağlı niyyətlərindən danışıb.

İtaliya Deputatlar Palatasının Ekologiya komitəsinin sədri Mauro Rotelli COP29 kimi tədbirin yüksək səviyyədə təşkili üçün Azərbaycana minnətdarlığını bildirib, tədbirin yekunlarının hər kəs üçün faydalı olacağını söyləyib.

Görüş iqlim dəyişiklikləri ilə mübarizə və yaşıl enerjiyə keçid kimi sahələrdə parlamentlərarası əməkdaşlıq məsələlərinin müzakirəsi ilə davam etdirilib.

# Orta Dəhlizin Yaşıl Transformasiyasına dair Əməkdaşlıq Bəyannaməsi

**Noyabrın 13-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "PSA International" stendində Orta Dəhlizin Yaşıl Dəhlizə çevrilməsinə dair konfrans keçirilib.**



Konfransda "PSA International" (PSA), "Qlobal DTC" (GDTC) və "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Assosiasiyasının (TİTR) rəhbərləri Orta Dəhlizin əhəmiyyəti və vacibliyi haqqında məlumat veriblər.

Konfransdan sonra "PSA International", "Qlobal DTC" və "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Orta Dəhlizi ekoloji cəhətdən məsuliyyətli və səmərəli nəqliyyat marşrutu kimi təşviq etmək üçün Əməkdaşlıq Bəyannaməsi imzalayıblar.

Əməkdaşlıq Orta Dəhlizi rəqəmsal inteqrasiya etməyi nəzərdə tutur. Tərəflər əməliyyatları optimallaşdırmaq və ətraf mühitə təsirləri azaltmaq üçün rəqəmsal texnologiyalardan istifadəyə, Orta Dəhlizi Yaşıl Dəhlizə çevirmək məqsədi daşıyan bir neçə əsas təşəbbüsə dair təqdimat ediblər. Bildiriblər ki, bu əməkdaşlıq dayanıqlı Yaşıl Dəhliz yaratmaq məqsədilə Orta Dəhliz boyunca əsas maraqlı tərəfləri bir araya gətirəcək.

TİTR öz üzvlərini Yaşıl Dəhlizin inkişafına töhfə verməyə və bu təşəbbüsün uğurla həyata keçirilməsini təmin etmək üçün GDTC ilə onun üzvləri arasında koordinasiyaya töhfə verəcək.

Vurğulanıb ki, yeni əməkdaşlıq Orta Dəhlizin dayanıqlı qlobal nəqliyyat şəbəkəsinə çevrilməsi yolunda irəliyə doğru atılmış mühüm addımdır. Beynəlxalq ekoloji standartlara riayət etməklə və tullantıların azaldılmasına davamlı öhdəliyini nümayiş etdirərək, tərəfdaşlar Orta Dəhlizi beynəlxalq ticarət və tranzit üçün yüksək dayanıqlı seçim kimi təqdim edirlər.

*XQ*

# Azərbaycan və Albaniya Media agentlikləri Anlaşma Memorandumu imzalayıblar

**Noyabrın 13-də Medianın İnkişafı Agentliyində Albaniya Media və İnformasiya Agentliyinin Baş direktoru Alteo Husi ilə görüş keçirilib.**

Görüşdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov media sahəsinə məsul qurumlar və media subyektləri arasında təcrübə mübadiləsinin aparılmasının və birgə layihələrin həyata keçirilməsinin, ümumilikdə uzunmüddətli qarşılıqlı səmərəli əməkdaşlığın qurulmasının önəmini diqqətə çatdırıb.

Alteo Husi görüşün təşkilinə görə təşəkkürünü bildirib, səmərəli və faydalı tərəfdaşlıq münasibətlərinin qurulmasının informasiya sahəsində mövcud çağırışlara uyğun birgə tədbirlərin görülməsinə və yeni media formatlarının tətbiqinə imkan yaradacağını vurğulayıb, bu sahədə effektiv təcrübələrin paylaşılmasının zəruriliyi məsələlərinə toxunub.

Daha sonra tərəflər arasında Anlaşma Memorandumu imzalanıb.

*XQ*




# Azərbaycan və Ermənistan dekabrda sülh müqaviləsinin müzakirəsinə qayıdacaqlar

**Azərbaycan və Ermənistan gələn ay sülh müqaviləsi mətninin müzakirəsinə qayıdacaqlar.**



Bunu TASS-a açıqlamasında Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

O bildirib ki, noyabrın sonuna qədər Azərbaycanın gündəmindəki əsas mövzu COP29-dur: "Ola bilsin, dekabr ayından etibarən, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin mətninin müzakirəsi və danışıqların davam etdirilməsi ilə bağlı yeni proses başlayacaq".

H.Hacıyevin sözlərinə görə, sənədin mətni ilə bağlı müəyyən suallar mövcuddur:

"Ermənistan tərəfi sülh müqaviləsinin mətni ilə bağlı təkliflərimizə vaxtında cavab vermədiyi üçün ekspertlər səviyyəsində müzakirələr və danışıqlar davam edir. Ona görə də hazırda bu kontekstdə prosesin ləngidiyi hiss edilir. Böyük ehtimalla, dekabr ayından etibarən, artıq yeni proses olacaq".

XQ

# Dünya liderləri Azərbaycanın COP29-a hazırlığını yüksək qiymətləndirirlər




**Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yüksək səviyyədə keçirilməsi müxtəlif ölkələri təmsil edən qonaqlar, rəsmi şəxslər, media nümayəndələri və ekspertlərlə yanaşı, dünya liderləri tərəfindən də qiymətləndirilir, tədbirlərin səviyyəsindən məmnunluq ifadə olunur.**

Yüksəksəviyyəli rəsmi nümayəndələr COP29 çərçivəsində keçirilən plenar iclaslarda, eləcə də digər tədbir və görüşlərdə, müsahibələrdə Azərbaycanın yüksək təşkilatçılıq qabiliyyətini, qonaqpərvərliyini və peşəkarlığını təqdir edir, COP29 danışıqlarının uğurla nəticələnəcəyinə ümidvarlıqlarını bildirirlər.

COP29-un plenar iclasında çıxış edən Pakistanın Baş naziri **Məhəmməd Şahbaz Şərif** Bakıda iqlim sammitinin uğurla keçirilməsi münasibətilə Əziz Qardaşım adlandırdığı Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib. Pakistan hökumətinin başçısı əminliklə bildirib ki, COP29 mütləq tarixə düşəcək.

Misir Ərəb Respublikasının Baş naziri **Mustafa Mədbuli** yüksək təşkilatçılığa görə Azərbaycana təşəkkür edib və uğurlar arzulayıb. Hökumət başçısı iqlim maliyyələşməsinin vacibliyini vurğulayaraq ölkəsinin bu istiqamətdə gördüyü işlərdən danışıb.

İtaliyanın Baş naziri xanım **Ciorcia Meloni** Azərbaycanı sülh naminə iqlim təşəbbüsünün bir hissəsi kimi qiymətləndirilən COP29-un Prezidenti kimi görməkdən çox məmnun olduğunu bildirib və COP29-un təşkilinə görə ölkəmizə təşəkkürünü ifadə edib.

Gürcüstanın Baş naziri **İrakli Kobaxidze** də yüksək təşkilatçılıq səviyyəsinə görə Azərbaycan Prezidentinə dərin minnətdarlığını bildirib. COP-un Qafqazda ilk dəfə ölkəmizdə keçirildiyini xüsusi vurğulayan Baş nazir bu mötəbər beynəlxalq tədbirə peşəkarlıqla evsahibliyi edən Azərbaycana uğurlar arzulayıb.

Konqo Demokratik Respublikasının Baş naziri **Cudit Suminva Tuluka** Bakının bütün bəşəriyyət üçün belə mühüm tədbirə evsahibliyi etdiyinə görə Azərbaycana və şəxsən dövlətimizin başçısı İlham Əliyevə minnətdarlığını bildirib. "Ola bilsin ki, yalnız gələcək nəsillər bu gün burada etdiklərimizin və müzakirə etdiyimiz məsələlərin tam mənasını anlayacaqlar. Amma, ilk növbədə, biz nəticələr əldə etməliyik", – deyə Baş nazir COP29-un mühüm əhəmiyyətini bir daha vurğulayıb.

Moldovanın Prezidenti **Maya Sandu** da çıxışında COP29-un Bakıda keçirilməsinə görə Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirib.

Dünya liderlərinin inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitində çıxış edən rəhbər şəxslər də COP29-un təşkilinə görə Azərbaycana minnətdarlıq ifadə edib, iqlim dəyişmələrinin böyük fəlakətlərə səbəb olduğu bu ölkələr üçün iqlim maliyyələşməsinin və uğurlu danışıqların əhəmiyyətini vurğulayıblar. Onlar COP29 çərçivəsində kiçik ada dövlətlərinin problemlərinin müzakirə olunduğu yüksəksəviyyəli tədbirin təşkilinin önəmini xüsusilə qeyd ediblər.

Sakit Okean Adaları Forumunun sədri, Tonqa Krallığının Baş naziri **Siaosi Sovaleni** sammitdəki çıxışında səmimi qonaqpərvərliyə və kiçik Okeaniya ölkələrinin problemlərini və mövqeyini dünya ictimaiyyətinə çatdırmaq imkanına görə Azərbaycan Prezidentinə və xalqına minnətdarlıq edib.

Millətlər Birliyi təşkilatının (Commonwealth) Baş katibi **Patrisia Skotlend** Azərbaycan hökumətinin və "Azərkosmos"un təmsil etdiyi təşkilatla imzaladığı iki memoranduma görə təşəkkürünü bildirib.

Qrenadanın Baş naziri, Karib Ölkələri Birliyinin (CARICOM) sədri **Dikon Mitçell** COP29-un "Yaxşı COP" kimi yadda qalacağına əminliyini bildirib.

Yaşıl İqlim Fondunun (Green Climate Fund) icraçı direktoru **Mafalda Duarte** rəhbərlik etdiyi fonda əlçatanlığın təmin olunması istiqamətində ciddi tədbirlər gördüklərini bildirib.

İtki və Zərərlərə Cavab Fondunun icraçı direktoru **İbrahima Şeyx Dionq** fondun fəaliyyətə başlamasında Azərbaycanın liderliyini vurğulayıb və ölkələr tərəfindən yeni maliyyə öhdəliklərinin götürüldüyünü diqqətə çatdırıb.

Xatırladaq ki, noyabrın 13-də COP29 çərçivəsində iqlim dəyişmələrindən ən çox əziyyət çəkən kiçik ada dövlətlərini dəstəkləmək məqsədilə "Kiçik ada dövlətlərinin səslərinin gücləndirilməsinə dair Bakı Bəyannaməsi" qəbul olunub. Bəyannamənin qəbul edilməsi COP29 Azərbaycan Sədrliyinin növbəti uğurudur.

XQ

# BTQ müstəmləkəçilərin ekoloji cinayətlərini ittiham edib




**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan Milli QHT Forumu Pavilyonunda Bakı Təşəbbüs Qrupu (BTQ) tərəfindən "Ekomüstəmləkə: müstəmləkə və neokolonial istismarın ətraf mühit mirası" adlı beynəlxalq konfrans təşkil olunub.**

Tədbiri açan BTQ-nin icraçı direktoru Abbas Abbasov beynəlxalq konfransın məqsədinin müstəmləkəçi güclərin vurduğu ekoloji ziyanı araşdırmaq və müstəmləkə altında olan xalqlara xüsusi diqqət yetirmək olduğunu bildirib. O, BTQ-nin müstəmləkəçiliyin ləğvi ilə bağlı fəaliyyəti haqqında məlumat verib.

Beynəlxalq konfransda hələ də müstəmləkə idarəçiliyi altında olan xalqlar, müstəmləkəçi dövlətlər tərəfindən təbii resursların istismarı, meşələrin qırılması, xlordekonla torpağın çirklənməsi və məcburi kənd təsərrüfatı monokulturası kimi tarixi müstəmləkəçilik təcrübələrindən söz açılıb. Bu xalqların üzləşdiyi iqlim böhranları, onların uzunmüddətli mənfi ekoloji nəticələri ilə bağlı fikirlər səsləndirilib.

Tədbirdə Fransanın və Niderlandın müstəmləkəsi altında olan xalqların nümayəndələri ölkələrindəki ətraf mühitin acınacaqlı vəziyyətindən danışıblar. Bu baxımdan Fransa hökumətinin fransız Polineziyasında, Qvadelupada, Martinikada, Mayotda, Yeni Kaledoniyada həyata keçirdiyi nüvə sınaqları, istifadə etdiyi zəhərli pestisidlərin ağır nəticələri müzakirə olunub.

Qeyd edilib ki, Fransanın müstəmləkəsi altında olduğu üçün müstəqil qərar qəbul edə bilməyən Qvadelupada kənd təsərrüfatı sahələrinin əksəriyyəti çox təhlükəli olan xlordekon pestisidi ilə zəhərlənib və bu, biomüxtəlifliyi məhv edib. Vurğulanıb ki, dünyada xlordekon pestisidinin ləğv edilməsinə baxmayaraq, Fransa hökuməti Qvadelupa və Martinikada bu pestisiddən istifadəyə yol verərək, müstəmləkə altında saxladığı xalqlara müstəqil qərar qəbul etmək imkanı yaratmır. Nəticədə, həmin ərazilərdə kənd təsərrüfatının inkişafı mümkün deyil. Diqqətə çatdırılıb ki, xlordekon insanlar üçün son dərəcə zəhərli bir maddədir.

Çıxışlarda, həmçinin Fransız Polineziyasında Fransa tərəfindən həyata keçirilən nüvə sınaqlarının ekoloji fəsadlarından yaratdığı dəhşətli vəziyyət, radiasiyaya məruz qalmış əhaliyə Fransa tərəfindən kompensasiyanın hələ də ödənilməməsi, Yeni Kaledoniyada nikel yataqlarının istismarı, eləcə də Mayotun istismarı nəticəsində müxtəlif xəstəliklərin yayılması diqqətə çatdırılıb.

XQ

# Kamran Əliyevin Qada Vali ilə görüşü

**Noyabrın 13-də Baş prokuror Kamran Əliyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə ölkəmizə səfərə gələn BMT-nin Baş katibinin müavini, Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin icraçı direktoru və Vyana ofisinin rəhbəri Qada Valinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**




Kamran Əliyev Azərbaycanın Prezidenti İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olduğunu bildirib.

Görüşdə COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən, noyabrın 15-də keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyası barədə danışan tərəflər birgə əməkdaşlığın əhəmiyyəti, ikitərəfli münasibətlərin möhkəmləndirilməsi qeyd olunub.

Qada Vali səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizdə keçirilən ən böyük iqlim konfransı, COP29-un Azərbaycanın sədrliyi ilə yüksək səviyyədə təşkil edildiyini vurğulayaraq istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə edib.

XQ

# İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammiti

**Noyabrın 13-də Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammiti keçirilib.**



Sammitdə çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş G20 ölkələrinin dünyada hava çirkləndiricilərinin 80 faizinin yaranmasına cavabdeh olduğunu deyib. "Sizin qəzəbli olmağa tam haqqınız çatır, mən də qəzəbliyəm. Çünki baş verən bu ədalətsizlik, dənizlərin səviyyəsinin yüksəlməsi sizin adaların gələcəyini təhlükə altına alır, sakinlər təbii fəlakətlərdən əziyyət çəkir, iqtisadiyyata böyük zərbə dəyir. Bu ədalətsizliyə son qoyulmalıdır".

Baş katib diqqətə çatdırıb ki, yaranmasında heç bir rol oynamadıqları böhranın öhdəsindən gəlmək üçün kiçik ada dövlətlərinə dəstək göstərilməlidir. Bu məqsədlə də iqlim maliyyələşməsinin uğurla razılaşdırılması tələb olunur.




COP29-un Prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev qeyd edib ki, son aylarda Antiqua və Barbudadan Barbados və Tonqaya qədər çoxlu səfərlər edib və kiçik ada dövlətlərinin qarşılaşdığı çətinlikləri dərindən öyrənib. Bildirib ki, razılıq əldə etmək üçün tərəflər dəfələrlə bir araya gətirilib və artıq bir sıra məsələlərdə irəliləyiş var.

Nazir, həmçinin deyib: "Yardım göstərmək üçün çox çalışırıq, davamlılıq yaratmaq üçün hərtərəfli yanaşmalara ehtiyacımız var. İnanıram ki, COP29 səsimizi ən yüksək səviyyələrə qaldıran konfransa çevriləcək. Biz COP29-dan sonrakı dövrdə həqiqi tərəfdaşlıq qurmağı səbirsizliklə gözləyirik".

Samoanın təbii sərvətlər, ətraf mühit və torpaqlar naziri Toeolesulusulu Cedric Pose Salesa Schuster isə kiçik ada dövlətlərinin iqlim dəyişikliyi səbəbindən üzləşdiyi böyük çətinliklərin, onların həssaslığının və xüsusi iqlim maliyyələşdirməsinə təcili




ehtiyacının ön plana çıxarılmasının əhəmiyyətinə toxunub.

Toeolesulusulu Cedric Pose Salesa Schuster iqlim öhdəliklərinin yerinə yetirilməsi və İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (IPCC) hesabatlarına uyğunlaşma üçün siyasi iradə göstərilməsinə çağırıb.

Tonqa Krallığının Baş naziri Siaosi Ofakivahafolau Sovaleni bildirib ki, dənizlərin səviyyəsinin yüksəlməsi ilə yaranan mövcud təhlükəni aradan qaldırmaq və qlobal temperatur artımını 1,5°C-də saxlamaq zəruridir. O qeyd edib ki, Tonqa dəniz səviyyəsinin yüksəlməsinə dair 2023-cü il Bəyannaməsi və 2021-ci il Dəniz Zonasına dair Bəyannamə də daxil olmaqla proaktiv addımlar atıb.



Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev iqlim dəyişmələrindən ən çox əziyyət çəkənlərin ada dövlətlərinin olduğunu bildirib. Əlavə edib ki, qlobal temperaturun 1,5 dərəcədə saxlanması ada dövlətləri üçün olduqca vacibdir.

XQ

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Heydər Əliyev Fondunun "Azərbaycan. Təbiətin sehrində" nəşrinin təqdimatı






**Bakıda keçirilən COP29 çərçivəsində noyabrın 13-də Heydər Əliyev Fondunun "Azərbaycan. Təbiətin sehrində" (Azerbaijan. Inspired by Nature) kitabı təqdim olunub.**




Layihənin ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, layihə rəhbəri Prezidentin köməkçisi Anar Ələkbərovdur.

Təqdimat mərasimində Prezidentin köməkçisi Anar Ələkbərov, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd Əl-Malik, İşa Xeyriyyə Fondunun təsisçisi, məşhur hindistanlı yoqin Sadhquru (Caqqi Vasudev) və başqaları iştirak ediblər.

Tədbirdə bildirilib ki, nəşrin COP29 günlərində təqdimatı təsadüfi deyil. Burada Azərbaycanın füsunkar təbiəti, flora və faunasına dair fotoşəkillər, müvafiq məlumatlar yer alıb. Kitab oxucuları Azərbaycanın ecazkar təbiəti ilə tanış etməklə yanaşı, bu zənginliyin əhəmiyyətini, onun qorunub saxlanılmasının vacibliyini gündəmə gətirir.

2020-ci ildən start götürən genişmiqyaslı layihə çərçivəsində çəkilən yüzlərlə foto arasında unikal kadrlarla yanaşı, nadir heyvan, quş və bitki növlərini də görmək olar. Layihə Azərbaycan təbiətinin müxtəlifliyini təsvir edərək ölkənin bütün regionlarını, milli parklar və qoruqlarını əhatə edib. Layihə üzrə videoçəkilişlər aparılıb, videoçarxlar və sənədli film hazırlanıb. Təqdimat zamanı sənədli filmin treyleri nümayiş olunub.

Tədbirdə çıxış edən Leyla Əliyeva kitabın hər kəsi təbiəti sevməyə və onu qorumağa səslədiyini bildirərək deyib: "Dünyada təbiət qədər dəyərli heç nə yoxdur. Biz hava ilə nəfəs alırıq. Susuz üç gün də yaşaya bilmərik. Torpaqdan, ağaclardan enerji alırıq, onunla qidalanırıq. Təəssüf ki, gün ərzində insan bunun haqqında çox az düşünür. İnanıram ki, bu kitabda toplanmış şəkillər Azərbaycanın gözəlliklərini təqdim edəcək, insanlara təbiəti sevməyi və qorumağı bir daha xatırladacaq. Atalarımız demişkən: "Gəzməzsən, bilməzsən". Hamıya Vətənimizi gəzməyə daha çox vaxt ayırmağı arzu edirəm. Mən bu möhtəşəm iş üçün bütün komandaya təşəkkürümü bildirmək istəyirəm və Lerikdə birlikdə keçirdiyimiz günləri heç zaman unutmayacağam. Bu kitab bizi təbiəti sevməyə və qorumağa çağırır. Təbiət bizə həyat bəxş edir, biz də onu sevməyi öyrənək".

Layihənin fotoqraflarından biri Aleksey Lyokin çəkilişlər zamanı fotoqraflar qrupunun ölkəmizin bütün guşələrinə səfər etdiyini, çəkilişlər apardığını, bütün rayonların nadir təbiəti ilə tanış olduğunu bildirib. Qeyd olunub ki, çəkilişlər təbiətin bütün gözəlliyini maksimum dərəcədə göstərmək üçün ilin bütün fəsillərində aparılıb.

"İşğaldan azad olunmuş ərazilərdə – Qarabağda və Şərqi Zəngəzurda çəkilişlər zamanı qeyri-adi hisslər yaşadıq", – deyən A.Lyokin ən qədim yaşayış məskənlərindən biri sayılan Azıx mağarasında aparılan çəkilişləri də vurğulayıb.

İşa Xeyriyyə Fondunun təsisçisi, məşhur hindistanlı yoqin Sadhquru (Caqqi Vasudev) təbiət və onun elementlərinin sıx əlaqəsindən, iqlim dəyişmələri nəticəsində baş verən dəyişikliklərdən danışıb. O, bəşər övladının evi olan təbiətin ayrı-ayrı komponentlərinin bir-biri ilə vəhdətindən bəhs edərək onları qorumağın vacibliyini vurğulayıb.

Sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Azərbaycan. Təbiətin sehrində" nəşrinin ilk nümunələrini ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd Əl-Malik və İşa Xeyriyyə Fondunun təsisçisi, məşhur hindistanlı yoqin Sadhquruya (Caqqi Vasudev) təqdim edib.

Kitab Azərbaycan və ingilis dillərində hazırlanıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, həmçinin COP29-un Yaşıl Zonasında yaradılmış yerli və xarici pavilyonları ziyarət edib.

**XQ**

# Ceyhun Bayramovun Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru ilə görüşü

**Noyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyasının (COP29) Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti çərçivəsində Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Emi Poup ilə görüşüb. Görüşdə Azərbaycan və Beynəlxalq Miqrasiya Təşkilatı arasında müxtəlif istiqamətlər üzrə əməkdaşlıq perspektivləri, habelə COP29 Sədrliyimiz çərçivəsində tərəfdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.**



Nazir Ceyhun Bayramov ölkəmizin COP29 Sədrliyi, aparılan danışıqlar prosesi barədə ətraflı məlumat verib, sədrliyin təhvil alınması, habelə sessiyaya hazırlıq işləri çərçivəsində BMT, onun ixtisaslaşmış qurumları ilə yaxından əməkdaşlıq etdiyimizi diqqətə çatdırıb. Ölkəmiz tərəfindən edilən bu seçimin iqlim dəyişikliyi ilə mübarizə səylərinin əlaqələndirilməsi və davamlılığının təmini baxımından əhəmiyyəti vurğulanıb.

İqlim dəyişikliyinin təsirlərinə məruz qalan bir ölkə kimi Azərbaycanın hələ COP29 Sədrliyimizdən çox öncə ətraf mühitin qorunması məsələlərini milli inkişaf strategiyamızın mərkəzinə gətirdiyi, sədrliyimiz çərçivəsində isə bu istiqamətdə qlobal səylərə töhfə vermək niyyətində olduğumuz bildirilib.

Baş direktor Emi Poup COP29 Sədrliyini təhvil alması münasibətilə ölkəmizə təbriklərini çatdırıb, sədrlik dövründə fəaliyyətlərində uğurlar arzu edib.

*

**Həmin gün xarici işlər naziri BMT Baş Assambleyasının 79-cu sessiyasının prezidenti Filemon Yanq ilə də görüşüb.**



Görüşdə Azərbaycan–BMT əməkdaşlığı, habelə ölkəmizin COP29 Sədrliyindən irəli gələn məsələlər müzakirə olunub.

İqlim dəyişikliyinin fəsadlarının bölgəmizə, dünyamıza təsirinin ölkəmiz tərəfindən də yaxından müşahidə olunduğu, bu xüsusda tərəfimizdən milli səviyyədə yaşıl enerjiyə keçid yanaşmasının tətbiq edildiyi, habelə regional və qlobal səviyyədə mövcud çağırışlarla mübarizədə çoxtərəfliliyin təşviq olunduğu qeyd edilib.

COP29 Sədrliyimiz və aparılan danışıqlar prosesindən ətraflı bəhs edən nazir Ceyhun Bayramov iqlim maliyyəsi mövzusunun irəlilədilməsi məqsədilə tərəfimizdən aparılan aktiv fəaliyyət nəticəsində beynəlxalq maliyyə təşkilatlarının iştirakı ilə yeni maliyyə strukturuna keçiddə vacib irəliləyişlərin əldə olunduğunu bildirib.

Prezident Filemon Yanq ölkəmizi COP29 Sədrliyi münasibətilə təbrik edib, sessiyanın yüksək səviyyədə təşkilatçılığına görə təşəkkür edib. BMT-nin iqlim dəyişikliyi ilə mübarizə istiqamətinə xüsusi önəm verdiyi və bu sahədə səyləri dəstəkləməyə hər zaman hazır olduğu qeyd edilib.

**XQ**

# Azərbaycan 2024–2026-cı illər üçün ATACH-nin həmtəsisçisi seçilib

**COP29 çərçivəsində iqlim dəyişikliyinin sağlamlığa təsirinə dair panel müzakirələri aparılıb.**



Tədbirdə çıxış edən Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un Prezidenti **Muxtar Babayev** Tərəflər Konfransının iqlim həmrəyliyinin yaranmasına töhfə verəcəyini vurğulayıb, COP29-un bütün iştirakçı ölkələrini iqlim dəyişikliyinin mənfi hallarının aradan qaldırılmasına yönəlmiş səyləri daha da gücləndirməyə çağırıb.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru **Tedros Adhanom Qebreyesus** COP29-un qlobal ictimaiyyət üçün bir araya gələrək, praktik həlləri müəyyən etmək üçün mühüm fürsət olduğunu deyib.

Panel sessiyada çıxış edən Azərbaycanın səhiyyə naziri **Teymur Musayev** vurğulayıb ki, iqlim dəyişikliyinin vətəndaşların sağlamlığına və ölkələrin iqtisadiyyatına təsiri çoxşaxəlidir və getdikcə daha çox narahatlıq doğurur. Nazir bildirib ki, son onilliklər ərzində daşqın və quraqlıqlar kimi ekstremal təbiət hadisələrinin tezliyi artıb: "İstiliyə görə ölümlərin, təxminən, üçdəbiri artıq iqlim dəyişikliyi ilə bağlıdır. Eyni zamanda, iqlim dəyişikliyi nəticəsində baş verən ekstremal hava fəlakətlərinin sayı son 50 ildə beş dəfə artıb".

Ekstremal hava hadisələrinin yoluxucu xəstəliklərin yayılması üçün münbit şərait yaratdığını qeyd edən nazir bildirib ki, iqlim dəyişikliyinin risk və mümkün təsirlərini minimuma endirən milli siyasətin qəbulu sağlamlığa təsirləri və onların iqtisadi nəticələrini məhdudlaşdırmağa kömək edə bilər.

"Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurla bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursunda bu ərazilərin yaşıl enerji zonasına çevrilməsi əsas istiqamətlərdən biri hesab olunur. Məqsəd həmin ərazilərdə yüksək potensiala malik bərpaolunan enerjidən istifadə etməklə həmin əraziləri ekoloji cəhətdən təmiz yaşıl enerji ilə təmin etmək və yaşıl texnologiyaların tətbiqi perspektivlərini araşdıraraq təkliflər formalaşdırmaqdır", – deyə səhiyyə naziri bildirib.

Sonra İqlim və Sağlamlığın Qorunması Naminə Transformasiya Alyansının (ATACH) yeni həmtəsisçisi seçilib. Azərbaycan yekdilliklə 2024–2026-cı illər üçün ATACH-ın həmtəsisçisi elan olunub.

Tədbirdə çıxış edən Tedros Adhanom Qebreyesus və səhiyyə naziri Teymur Musayev bildiriblər ki, Azərbaycan COP29-un sədri kimi ATACH-a qoşulur və 2024–2026-cı illərdə Alyansın həmtəşkilatçısı kimi çıxış edəcək.

COP26 səhiyyə gündəliyi, COP27, COP28, COP29 və 77-ci Ümumdünya Səhiyyə Assambleyası tərəfindən qlobal iqlim və sağlamlıq təşəbbüslərinə əsaslanaraq, ATACH iqlim dəyişikliyi və sağlamlıqla bağlı tədbirləri gücləndirmək üçün mühüm qlobal əməkdaşlıq mexanizmi təqdim edir. Eyni zamanda, Alyans iqlim dəyişmələrinə davamlı və aşağıkarbonlu səhiyyə sistemlərinin qurulmasını hədəfləyir.

Azərbaycan Alyansa qoşulmaqla dəyişən iqlim şəraitində ictimai sağlamlığın qorunması və təşviqi üçün mühüm əhəmiyyət kəsb edəcək iqlim dəyişikliklərinə davamlı səhiyyə sistemi istiqamətində addımların atılması öhdəliyini üzərinə götürüb.

Həmtəşkilatçılar kimi Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan Respublikası ATACH vasitəsilə iqlim və sağlamlıqla bağlı fəaliyyət üçün qlobal təkan yaratmaq məqsədilə keçmiş və gələcək COP prezidentləri, eləcə də bütün ATACH üzvləri ilə birgə işləməyə sadiqdirlər.

**XQ**

# Şahin Mustafayevin çinli həmkarı ilə görüşü

**Baş nazirin müavini Şahin Mustafayev noyabrın 13-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun Daimi Komitəsinin üzvü, Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Din Süesyan ilə görüşüb.**



Görüşdə Azərbaycan–Çin dostluq və əməkdaşlıq əlaqələrinin siyasi, ticari-iqtisadi, qarşılıqlı investisiyalar, nəqliyyat-logistika, energetika, kənd təsərrüfatı, humanitar və bütün digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib və cari ilin iyul ayında ölkə rəhbərləri tərəfindən qəbul edilmiş strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə xüsusilə qeyd olunub.

COP29 çərçivəsində Dünya Liderlərinin İqlim Fəaliyyəti üzrə Sammitində Çin Xalq Respublikasının xüsusi nümayəndəsi qismində iştirak məqsədilə ölkəmizdə səfərdə olan Din Süesyan ilə görüş zamanı qlobal yaşıl gündəliyin təşviqi istiqamətində beynəlxalq səylərin əhəmiyyəti vurğulanaraq Azərbaycanın yaşıl enerji imkanlarının inkişaf etdirilməsi məqsədilə potensial layihələr müzakirə olunub.

Görüşdə, həmçinin geniş gündəliyə malik əməkdaşlığımızın bir çox sahələrdə dərinləşməsi və yeni məzmunla zənginləşdirilməsi məqsədilə səylərin gücləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

**XQ**

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# “Mən anayam, bu səsimdə Yerin, Göyün dərdi var...”

## *Azərbaycanın birinci xanımı Mehriban Əliyeva insanları dünyamızın bəlalarına əlac etməyə çağırdı*




**Müstəqillik dövrümüzdə Bakıda keçirilən çoxsaylı beynəlxalq tədbirlərin ən mötəbəri olan COP29 elə təşkil olunub ki, bu konfransla bağlı bir tədbirə baxanda mütləq əvvəlki tədbirdəki unudulmaz məqamları xatırlayırsan. Məsələn, noyabrın 12-də Yaşıl Zonada keçirilən “Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində” mövzulu konfransda Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın çıxışını dinləyəndə mən o andaca xəyalən günün ilk tədbirinə – Liderlər Sammitinə “qayıtdım”.**

Nə üçün? Çünki Liderlər Sammitində çıxış edən Malayziyanın paytaxtı Kuala Lumpurun meri, BMT-nin Məskunlaşma Proqramının sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərif bizim ulu şairimiz Nizami Gəncəvinin müdrik sözlərinə müraciət edərək dedi ki, o böyük insanın fikrincə, müxtəlif çətin çağırış dövrlərində imkanlar tapmaq lazımdır: “Bu imkanlar məhz sülh ilə gələcək və biz təbiətlə sülh yaratmalıyıq”.

Mən isə Mehriban xanım Əliyevanın tarixi çıxışını dinləyəndə ulu Nizaminin yaratdığı Nüşabə obrazını xatırladım. Nüşabə ölkələri fəth eləmək, fərqli xalqlardan yeni-yeni ərazilər qoparmaq, böyük torpaqlara sahib olmaq üçün minlərlə insanın ölümünə səbəb olmuş, çaylar, ümmanlar qədər qan axıtmış fatehi qarşılamaqdan ötrü açdırdığı süfrəyə toz, torpaq, daş, qum düzdürmüşdü. Fateh “Bunları ki, yemək olmur!” – deyəndə Nüşabə cavab vermişdi ki, əgər onları yemək olmursa, onda nə üçün torpaqdan ötrü bu qədər insanları qırırsan?

Fikrimizcə, qılıncının üstündəki qan illər boyu qurumayan fatehə bu dərsi Azərbaycan qadını verə bilərdi və verdi.

Mehriban xanım Əliyevanın çıxışındakı bu qətiyyətə diqqət yetirin: “Uzun müddətdir ki, iqlim fəaliyyəti beynəlxalq arenada ən vacib və prioritet məsələlərdən biridir. Atılmış addımlara baxmayaraq, bəşəriyyətin üzləşdiyi çağırışlar və təhdidlər günbəgün daha da ciddiləşir. Bunu nəzərə alaraq, qlobal məsələlərin həllində tətbiq olunan yanaşma və üsullara yenidən baxılması vaxtı yetişib. Bu gün mən açıq və düzgün qeyd olunmalı digər mühüm mövzuya toxunmaq istəyirəm: riyakarlıq və ikili standartlar beynəlxalq ətraf mühit gündəliyində aydın görünür.”

Fikrimcə, dünyanın, demək olar ki, bütün ölkələrini təmsil edən 70-dən çox liderin və 72 min təmsilçinin önündə özünü dünyanın sahibi sayanları riyakar adlandırmağı Azərbaycan qadını bacarardı və bacardı.

Üstəlik, azərbaycanlı xanım Yer kürəsinin çirklənməsinin əsas baiskarlarının da kimlər olduğunu söylədi: “Əsrlər boyu çirklənmənin əsas mənbəyi və sərvətlərin məsuliyyətsiz istehlakçısı olmuş inkişaf etmiş ölkələr hazırda sərt hakim rolunda çıxış edirlər. Onlar hamı üçün sərt məhdudiyyətləri təşviq edir və eyni zamanda, öz siyasətində iddialı məqsədlərini güdür, öz maraqları uğrunda işini davam etdirir. Onlar digər ölkələrdən transformasiyanı tələb edir, lakin bununla belə, maliyyə və ya texnoloji baxımdan yardım etməyə tələsmirlər”.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva xatırlatdı ki, beynəlxalq aləmdəki iqlim dəyişmələrinə səbəb olmuş ölkələrin təmsilçilərindən fərqli olaraq, Türkiyə Cümhuriyyətinin birinci xanımı Əminə Ərdoğan “Sıfır Atık Fondu”nun yaradılmasında təşəbbüs göstərmiş və ətraf mühitin, eləcə də mədəni irsin qorunmasına yönələn layihələrə şəxsən töhfə vermişdir.

Özbəkistanın birinci xanımı Ziroatxon Mirziyoyeva ötən il 2024–2030-cu illərə aid iqlim gündəliyində uşaqların və gənclərin iştirakını, o cümlədən dayanıqlı inkişafı təşviq etmək məqsədilə Mərkəzi Asiya Strategiyasının qəbul edilməsinə təşəbbüs göstərmiş və buna nail olmuşdur. Yaxud, Qırğızıstanın birinci xanımı ətraf mühit gündəliyi barədə maarifləndirmənin artırılmasında, həmin gündəliyə gənclərin qoşulmasında kifayət qədər mühüm rol oynamışdır. Bu qəbildən olan daha çox faktları sadalamaq mümkündür”.

Bütün bunların fonunda planetin tarazlığını pozanları kənarda qoyaraq Türk dünyasına və ya Azərbaycana qarşı böhtanlar, iftiralar səsləndirilməsi absurddur və qərəzçilik əlamətləridir. Adı çəkilən problemin həllinə Azərbaycanın verdiyi töhfələrin bir qismini xatırladan birinci xanım qeyd etdi ki, qlobal istixana tullantılarının 0,1 faizi Azərbaycanın payına düşür. Biz havaya tullantıların azaldılması və təmiz enerjiyə keçidin həyata keçirilməsi kimi milli hədəflərimizə doğru gedirik: “Bərpaolunan enerji sahəsində əldə edilən nailiyyətlərin cari tempi ilə biz 2027-ci ilə qədər quraşdırılan güclərimizin 32 faizə çatacağını, 2030-cu ilə qədər 30 faizlik azalma kimi ilkin hədəfə üç il əvvəl nail olacağımızı gözləyirik”.

Bəs bizim bədxahlarımız bu istiqamətdə hansı addımları atıblar? Heç bir addımı. Sadəcə olaraq, BMT-nin tədbirlərinə qatılmamaqla elə bilirlər ki, dünya onların günahlarından xəbərsizdir.

Mehriban xanım çıxışının əvvəlində COP29-da təmsil olunan ölkələrə sülh və əmin-amanlıq dilədi. Sonra isə bir ana kimi fəxrlə xatırlatdı ki, dünya gənclərinin 60 faizdən çoxu iqlim dəyişmələrini təxirəsalınmaz məsələ hesab edir: “Mən COP29-da iştirak edən və qayğı ilə yanaşan bütün gəncləri, ekofəalları, gənclər təşkilatlarının bütün nümayəndələrini salamlayıram”.

Diqqət yetirin, Azərbaycanın birinci xanımı hamıya sülh arzulayır, anamız Yer kürəsinin ağrılı problemlərinin həlli üçün çalışan qüvvələrə dəstək verir, COP29 “hücumlar arenası deyil” – deyərək, bədxahlarımızı da daşı ətəyindən tökməyə çağırır. Bəs onun ermənistanlı həmkarı, işğalçı ölkənin birinci xanımı Anna Akopyan neyləyir? Dağda, Azərbaycan sərhədlərinə yaxın ərazilərdə təlim keçən əsgərlərin arasına uzanaraq ölkəmiz tərəfə güllə atmağı öyrənir və ya öyrədir. Bunu erməni qadını bacarardı və bacardı.

Sonda bir köhnə faktı yada salmaq istəyirəm. Mehriban xanımın çıxışındakı sülh, əmin-amanlıq, uşaq və gənclərimizin gələcəyi üçün təhlükəsiz dünya arzularını dinləyəndə on illər əvvəl şəhid anası Fəzilə Kərimovadan eşitdiklərim yadıma düşdü. Atamın əmisi nəvəsi İlham Kərimov Birinci Qarabağ müharibəsində şəhid olmuşdu (otuz ilə yaxındır ki, Mirzəbəyli kənd orta məktəbi onun adını daşıyır). Kəndə yasa getmişdik. Hamı şəhid anasına başsağlığı verirdi. Özünün qol gücünə və fərasətinə güvənən gənclərdən biri dedi ki, gələn həftə mən də əsgərliyə gedirəm: “İlhamın qisasını almaq üçün 15–20 erməni öldürməsəm, namərdəm”. Bu məqamda şəhid anası nə desə yaxşıdır? “Yox, ay bala, niyə öldürürsən? Onun da anası var. Çoxlu güllə atın, qorxub, qaçıb getsinlər”.

Hamının sözü tükənmişdi. Oğlunun qanı, özünün göz yaşları qurumayan qadın erməni əsgərinin öldürülməsini istəmirdi. Bunu Azərbaycan qadını edə bilərdi və etdi. Mehriban Əliyeva məhz belə qəlbə malik anaların, qadınların birincisidir.

Elə ona görə də BMT-nin dünya miqyaslı tədbirinin tribunasından çıxış edərkən düşmənlərimiz və bədxahlarımız qarışıq (hərçənd onlar çox sözlərə layiqdirlər) heç kəsin ünvanına xoşagəlməz ifadələr işlətmədi. Əksinə, hamını ədalətli olmağa çağırdı: “Vətəndaşlarımızın öz ölkəsini beynəlxalq səhnədə ədalətli və düzgün şəkildə təmsil etmək hüquqları var. Onların Azərbaycanın müstəqil mövqeyini təhdid kimi görən dairələrin təzyiqinin və manipulyasiyanın qurbanına çevrilməmək hüququ var. Nailiyyətlərimiz və işimiz bəzi dövlətlərin geosiyasi maraqları uğrunda səhv təsvirə deyil, hörmətə layiqdir!”

***İttifaq MİRZƏBƏYLİ***

# COP29-a sədrlik – uğur perspektivi və dünyaya çağırış

**(əvvəli 1-ci səhifədə)**




Qərbin qızışdırıcı mövqeyi, təfriqə yaratmaq meyilləri diqqətimizdən yayınmır. Halbuki, ölkəmiz tamam başqa dəyərlərə köklənib. Dövlətimizin başçısının COP29-un Liderlər Sammitinin açılışında səsləndirdiyi fikirlər bu köklənişin dolğun ifadəsidir. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil: “Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib”.

Bəli, ölkəmiz 1994-cü ildə olduğu kimi, üzərindən 30 il keçdikdən sonra da dünyanın axarını dəyişməyə köklənib. Azərbaycan adlı “körpü”, bütövlükdə, bəşəriyyəti rifaha və əminamanlığa daşımaq əzmi və iradəsindədir. Qərb bunu düşünməli və fərqinə varmalıdır ki, tarixən ona bağlılığı olmayan Cənubi Qafqazda möhkəmlənməsi Azərbaycana qarşı haqsız yanaşmalar ilə pararlel şəkildə gerçəkləşmiş prosesdir. Deməli, Prezident İlham Əliyev heç də əbəs yerə bildirmir ki, “Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik. Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik”.

Əslində, ortada ziddiyyətli və ziddiyyətli olduğu qədər də riyakar durum var. Dörd il əvvəl Azərbaycan öz haqqına çatmaq üçün müharibə edəndə Qərb dünyası ölkəmizi, az qala, işğalçılıqda qınamışdı. Zəfərimizlə yekunlaşan 44 günlük müharibə təcavüzkar akt kimi təqdim olunmuşdu. Bəzi qüvvələr ölkəmizi tutduğu haqq yolundan döndərmək, qələbə yürüşünü dayandırmaq üçün BMT-nin Təhlükəsizlik Şurasında müvafiq qətnamənin çıxarılmasına cəhdlər göstərmişdilər. Eyni cəhdlər 2023-cü ilin sentyabrında Qarabağda keçirdiyiniz lokal xarakterli antiterror tədbirləri zamanı da qeydə alınmışdı.

Bu gün isə BMT-nin ən nüfuzlu tədbirinə ev sahibliyini gerçəkləşdirməkdəyik. Dövlətimizin başçısının bildirdiyi kimi, ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə bizə COP29-a ev sahibliyi etmək şərəfi nəsib olub və bu qərar Azərbaycana olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsidir. Deməli, bizə qarşı riyakarlıqlar və onların çeşidli təzahür formaları nəticəsiz qalıb.

Əlbəttə, anti-Azərbaycan qüvvələr yenə bəd əməllərindən daşınmırlar. COP29-a ev sahibliyimizi ləkələmək istəkləri, tədbiri boykot çağırışları fikrimizin sübutudur. Lakin onların irəliyə doğru inamla hərəkət edən qatarın çarxlarına çomaq salaraq, onu dayandırmaq yönümlü hərəkətləri mənasızdır, Azərbaycan öz prinsiplərindən geri durmur.

Nəzərə alaq ki, ölkəmizin rəhbər tutduğu prinsiplər, eyni zamanda, BMT-nin daşıdığı, fövqündə durduğu dəyərlərin mühüm tərkib hissəsidir. Həmin dəyərlər isə qurumun nizamnaməsində əksini tapır. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan, bir il əvvəl BMT Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq, suverenliyini tam bərpa etdi: “Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq”.

Qeyd edək ki, Vətənimiz mütərəqqi dəyər və prinsipləri bölüşən məmləkət statusundadır. Bunu dünyanın müxtəlif yerlərində həyata keçirdiyimiz nəhəng humanitar layihələr də təsdiqləyir. Azərbaycan, həmçinin birləşdirici missiya yerinə yetirir ki, bu missiyanın körpü mahiyyətini artıq açıqladıq. Əslində, sözügedən mahiyyət COP29-a sədrliyimizin də başlıca prioritetidir. Ona görə də dövlətimizin başçısı çıxışında Azərbaycanın inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcəyini bildirib.

Onu da vurğulayaq ki, Azərbaycan ötən müddətdə qlobal rəhbərlik təcrübəsi toplayıb. Söhbət 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurlu sədrliyimizdən gedir ki, Prezident İlham Əliyev çıxışında mövcud məqama da toxundu. Ümumən, Azərbaycanın beynəlxalq platformalarda təmsilçiliyinin faydalılıq əmsalını təsdiqləyən faktlar yetərincə çoxdur. Ölkəmizin liderinin bu baxımdan üzərində dayandığı növbəti məsələ təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvlüyümüzdür. Azərbaycan, həmçinin Avropa İttifaqının 10 ölkəsi ilə saziş imzalayıb və Strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib: “Bütün bunlar bizə düşünməyə imkan verir ki, biz iqlim dəyişmələri məsələsində fərqli mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilərik”.

Bəli, Azərbaycan, belə demək mümkünsə, çoxtərəflilik tərəfdarıdır. Bu, ölkəmizin illər ərzində həyata keçirdiyi balanslı xarici siyasət kursunun vacib seqmentidir. Belə bir nəticənin əldə olunması isə beynəlxalq aləmlə əlaqələrə ən müxtəlif prizmadan yanaşma amilinə, fəaliyyətimizin dolğunluq fazasına əsaslanır. Ona görə də ölkəmiz mədəniyyətlərarası dialoqda fəal rol oynayır. Bu missiya bəşəri dəyərlərə xidmət amalından qaynaqlanır.

Azərbaycan öz siyasətini mədəniyyət hadisəsi qismində qurur ki, mövcud məqamın özü də uğurlu çoxtərəflilik modeli üçün, bir növ, təminat paktıdır. Axı mədəniyyət son dərəcə böyük silahdır. BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə iki ildən bir Bakıda Mədəniyyətlərarası Forumun təşkilinin ənənəyə çevrilməsi həmin silahı daim hazır vəziyyətdə saxlamaq niyyətidir.

Azərbaycanın Qərblə Şərq arasında etibarlı körpü, mədəniyyət bağı missiyası həm də xalqımızın ruhundan, malik olduğu nəcib keyfiyyətlər məcmusundan qaynaqlanmaqdadır. Dövlətimizin başçısı çıxışında multikulturalizm amili üzərində məhz bu səbəbdən dayanıb: “Multikulturalizm bizim dövlət siyasətimizdir və həyat tərzimizdir. Azərbaycan xalqı etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində bir ailə kimi yaşayır”.

Sonda bir daha anti-Azərbaycan qüvvələrin ölkəmizə yönəlik “fəaliyyəti”ndən söz açaq. Diqqətə çatdırdığımız ayrı-ayrı məqamlardan görünür ki, onların tutduqları yol qərəzə, ikili standartlara söykənir. Prezident İlham Əliyevin COP29-a sədrliyimizin uğur perspektivinə əminlik baxımından dilə gətirdiyi fikirlər isə beynəlxalq aləmə mesaj mahiyyəti daşımaqla, eyni zamanda, ölkəmizə qarşı nalayiq münasibət cəhdlərini dayandırmağa çağırışıdır. Çağırışa həssas yanaşılması şərtdir. Çünki Azərbaycan adlı qatar inkişaf yolundadır və COP29-a sədrlik bu inkişafın təminat faktorlarını daha da dolğunlaşdıracaq. Necə deyərlər, pislik onu edənlərin özlərinə qalacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***




# COP29-un geosiyasi və siyasi-tarixi əhəmiyyəti

I MƏQALƏ

### Postsovet məkanında ilk iqlim sammiti




Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin başlaması tarixi əhəmiyyəti olan hadisədir. İqlim dəyişmələri uzun müddətdir ki, bütün dünyanı narahat edir. COP tədbirləri də qlobal səviyyədə bəşəriyyəti gözləyən fəlakətlərdən xilas etmək naminə BMT miqyasında həyata keçirilən təşəbbüsdür. Dünyanın 196 ölkəsi Bakıda birgə səylərlə iqlim dəyişmələrinin vura biləcəyi zərərləri aradan qaldırmağı davamlı olaraq müzakirə edir.

Belə bir tədbirin Azərbaycanda keçirilməsi bir neçə baxımdan çox əhəmiyyətlidir. Birincisi, postsovet məkanı ölkəsi kimi bu hadisə Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisidir. Bu barədə Prezident İlham Əliyev keçən ilin dekabrında fikir bildirmişdir. Dövlət başçısı demişdir: “Bir neçə gün bundan əvvəl ölkəmiz növbəti böyük uğura imza atmışdır, COP29 beynəlxalq konfransı Azərbaycanda – Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişlər və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir”.

İkincisi, Azərbaycan bu nailiyyətə böyük zəhməti hesabına nail olmuşdur. Daxili və xarici sahələrdə əldə edilən uğurlar nəticəsində ölkəmiz böyük etibar qazanmışdır və ona etimad yüksəkdir. İlham Əliyev həmin məqamı dəqiq vurğulamışdır: “Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı”.

Üçüncüsü, BMT-nin bu qərarı yüksək səs çoxluğu ilə 2023-cü ildə keçirilən antiterror tədbirlərindən qısa müddət sonra almasının geosiyasi mənası böyükdür. Bununla faktiki olaraq BMT Azərbaycanın tarixi ədaləti bərpa, müasir dövlətçilik üçün prinsipial əhəmiyyət kəsb edən ərazi bütövlüyünü və suverenliyi tam təmin etdiyini dəstəklədiyini ifadə etmişdir. Bu məqamı dövlət başçısı İlham Əliyev xüsusi vurğulamışdır.

Dördüncüsü, müxətlif süni əngəllər törətməyə çalışanların olmasına baxmayaraq, Azərbaycan tədbiri yüksək səviyyədə keçirməklə faktiki imkanlarını və gücünü göstərmişdir. Bu məqam da beynəlxalq miqyasda Azərbaycanın müstəqil dövlət kimi imicini formalaşdıran mühüm cəhəti əks etdirir.

Nəhayət, COP29-un Azərbaycanda keçirilməsinin regional və qlobal təhlükəsizlik sistemi arxitekturasının formalaşdırılması, qarşılıqlı fayda verən əməkdaşlıq platformalarının reallaşdırılması aspektində ciddi stimulverirci hadisədir. Həmin özəlliyi Prezident İlham Əliyev diplomatik məharətlə tədbirdəki nitqində ifadə etmişdir. Dövlət başçısı demişdir: “İndi isə mən enerji təhlükəsizliyinin digər seqmenti haqqında bir neçə söz söyləmək istərdim. Bu da neft və qazla bağlıdır. Anlayıram ki, bu mövzu iqlim dəyişmələrinə aid konfransda o qədər də populyar deyil. Lakin bunsuz mənim şərhlərim tam olmazdı”.

Azərbaycan Prezidentinin bu fikri enerji təhlükəsizliyi məsələsinin milli təhlükəsizliklə sıx bağlılığını əfadə edir. Milli təhlükəsizlik özlüyündə geniş anlayışdır və XXI əsrdə ilk baxışdan bir-birindən uzaq olan iqlim dəyişikliyi ilə enerji təhlükəsizliyini də ehtiva etməsi günün reallığıdır. Çünki enerji hasilatı ekologiyaya təsir edir, bu isə iqlim dəyişikliyinə səbəb olur. Deməli, enerji strategiyası (istehsal+daşınma) birbaşa iqlimə, torpağa, suya, bütövlükdə, atmosferə ciddi təsir edən faktorlardandır. O halda lazımdır ki, bu sahədə fəal olan dövlətlər enerji istehsalı və daşınması ilə onun sərf edilməsi və sonucda bu mərhələlərin atmosferə təsirini kompleks müəyyən edə bilsinlər. Həmin əsasda real proqnozlar verə bilmək şansı meydana gəlir.

Real və əsaslı proqnozların verilməsi elmsiz mümkün deyildir. İndi alimlər və filosoflar iqlim dəyişikliyinin fənlərarası tədqiqatlarda öyrənilməsini bir zərurət kimi təqdim edirlər. Elmdə bunun üçün mütləq tərəqqiyə nail olmaq və yeni-yeni yanaşmalar formalaşdırmaq gərəkdir. Alimlər vurğulayırlar ki, hələlik bu istiqamətdə mühüm nailiyyətlər olmasa da, problemin həllinin gələcəyi məhz elmi yanaşmaların səmərəliliyi ilə bağlıdır. Bu da yekunda şüur məsələsidir.

Deməli, iqlim dəyişikliyi, enerji təhlükəsizliyi, elm, sosial-iqtisadi fəaliyyət, mənəvi-əxlaqi dəyərlər sistem halında hər bir dövlətin milli təhlükəsizliyi aspektində vacib komponentlərdir. Bütövlükdə, insanın fərd kimi, cəmiyyətin kollektiv varlıq olaraq və dövlətin idarəedən əsas qurum kimi şüuri fəaliyyətində dəyişikliklər olmalıdır. İqlim dəyişikliyinin müsbət məcraya yönəldilməsi insan şüurunun dəişməsindən başlayır. İnsanın özünə, cəmiyyətə və dövlətə münasibətindən başlayır. Eyni zamanda, hər bir dövlətin iqtidarının cəmiyyətə, vətəndaşlarına və başqa dövlətlərə münasibətindən başlayır!

Bu reallıqların prizmasında Azərbaycan Prezidentinin incə diplomatik üsulla enerji təhlükəsizliyi ilə iqlim dəyişikliyi arasında daxili məntiqi bağlantı qurması yüksək zəkaya malik olmaqla yanaşı, strateji proqnozlaşdırma qabiliyyəti və böyük məsuliyyət hissini də ifadə edir.

COP29 iştirakçılarının tədbirin təşkili səviyyəsi ilə bağlı verdikləri qiymət Azərbaycan tərəfinin məhz yüksək intellektə malik və dünya üçün böyük məsuliyyət hissini yaşayan dövlət olaraq iqlim dəyişikliyi problemini həll etməkdə qərarlı olduğunu göstərir. Bir sıra dövlətlərin başçıları Azərbaycan Prezidentinin çox məzmunlu nitq söylədiyini və buna görə cənab İlham Əliyevi və onun hökumətini təbrik etdiklərini bildirmişlər.

### Şimal–Cənub, Qərb–Şərqin qovşağı

Prezident İlham Əliyev tədbirin açılış mərasimində söylədiyi nitqdə belə bir maraqlı fikir irəli sürmüşdür. Demişdir ki, “Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib”.

Bu fikirlərdə bir neçə məqamın məharətli fəlsəfi və siyasi-nəzəri ifadəsi yer almışdır. Birincisi, Azərbaycan coğrafi olaraq Şimal ilə Cənub və Qərb ilə Şərqin qovuşduğu ölkə kimi təbii olaraq birləşdirici rol oynaya bilər. Bu barədə hələ keçən əsrin 90-cı illərində Z.Bzejinski və S.Hantinqton da fikir bildirmişlər. Qərbin tanınmış geostrateqləri və analitikləri Azərbaycanı geosiyasi və coğrafi olaraq Qərblə Şərqi birləşdirən “körpü” kimi qiymətləndirmişlər. Ancaq, bu, təbiətdən gələn “hədiyyədir”.

Buna görə də, ikincisi, həmin potensialın reallığa çevrilməsi üçün dövlətin müvafiq fəaliyyəti gərəkdir. Həmin məqamı Prezident İlham Əliyev sonrakı fikrində lakonik ifadə etmişdir: “bu, təkcə coğrafiya ilə bağlı deyil”!

Azərbaycan Prezidenti həmin iki mühüm məqamdan üçüncü vacib faktoru məntiqi olaraq alır. Bu, dövlət başçısının dövlətin fəaliyyətinin konkret istiqamətlərini ifadə etməsində əksini tapmışdır. Yəni, üçüncüsü, “biz (Azərbaycan rəhbərliyi- F.Q.) müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik”.

### Körpülər

COP29-un vəzifələri kontekstində Prezidentin vurğuladığı hər bir istiqamətin xüsusi əhəmiyyəti vardır. Məsələ ondan ibarətdir ki, iqlim dəyişikliyi ilə mübarizə ilk növbədə şüur hadisəsi olduğundan dövlətlər miqyasında, bu, hakimiyyətlərin qarşılıqlı koordinasiyalı, konstruktiv və ekoloji aspekti ciddi nəzərə alan fəaliyyət göstərmələrini tələb edir. Həmin kontekstdə siyasi, mədəni, enerji, ticari və nəqliyyat sferalarının sıx əlaqəli və harmonik inkişaf etdirilməsi zərurəti yaranır.

Sözdə həmin tezisi ifadə etmək asandır, lakin, bu, müasir dünyanın geosiyasi ziddiyyətləri və riskləri fonunda kifayət qədər usta siyasi-diplomatik fəaliyyət kursunu yaratmağı tələb edir. Azərbaycan rəhbərliyi məhz bu bağlılıqda çox səmərəli və nəticəverici kurs həyata keçirməkdədir. COP29 kontekstində vurğulanan istiqamətlərin hər birinə ayrıca baxaq.

### Siyasi istiqamət

İndi konstruktiv siyasi kursda regionlararası və qlobal miqyasda müsbət nəticəverici xətti müəyyən etmək çox mürəkkəb işdir. Çünki müxtəlif tərəflərdən lazımsız və dağıdıcı təsirlər olur. Bir sıra hallarda həmin təsirləri dünyanın böyük gücləri göstərirlər. COP kontekstində burada bir paradoksun olduğu açıq görünür. Çünki bir tərəfdən, atmosferi daha çox çirkləndirən və buna görə də qlobal ekoloji mühiti mənfiyə doğru dəyişən ölkələr ilk növbədə böyük istehsal gücünə malik dövlətlərdir. Eyni zamanda, məhz onların şəxsi ambisiyaları ucbatından regionlarda və regionlararası miqyasda konstruktiv siyasət yeritmək çox çətinləşir. Böyük dövlətlər əksər hallarda başqalarının uğurlu olmasına qısqanclıqla yanaşırlar.

Cənubi Qafqaz bunu əyani gördü. Azərbaycan sürətlə inkişaf edən dövlət kimi regional lider olanda onu qəbul etmək istəmədilər. Hətta yaxın qonşular sırasında belə qısqanclıqla yanaşanlar oldu. Bəziləri Azərbaycanın müstəqil dövlət kimi formalaşa bilmədiyini, “onu bir neçə günə işğal edə biləcəklərini” və “Azərbaycan regiona düşmənləri gətirdiyini” iddia edirdilər. Qərb isə bütövlükdə, Azərbaycan Respublikasının mənfi imicini yaratmağa çalışırdı.

İkinci dalğa II Qarabağ müharibəsindən sonra başladı. Bu zaman Azərbaycanın qələbəsinin, ümumiyyətlə, regiona geosiyasi faydası olmadığı haqqında danışmağa başladılar. Detallara getmədən onu deyək ki, bu cür mürəkkəb şəraitdə Azərbaycan çox konstruktiv xarici siyasət yeridə bildi, regionun lideri olaraq əməkdaşlıq və təhlükəsizlik platformalarını nümunə kimi irəli sürdü. Bu, nəyin sayəsində mümkün oldu? Bu sualın cavabı birdir: müstəqil siyasətin! Azərbaycan Respublikasının rəhbərliyi tam müstəqil daxili və xarici siyasəti ilə regionlararası miqyasda siyasi aspektdə gerçəkdən çox sayda dövlət üçün, bütövlükdə Qərblə Şərqi və Şimalla Cənubu birləşdirən təhlükəsizik və əməkdaşlıq körpüsü oldu.

Siyasi aspektdə əldə edilən bu uğur Prezidentin siyasi və diplomatik məharətinin birbaşa nəticəsidir. Bununla yanaşı, bu nailiyyətin təməlində ulu öndər Heydər Əliyevin çox düzgün müəyyən etdiyi dövlət quruculuğu kursunun fəlsəfəsi və siyasi varisliyə tam əməl edilməsi dayanır. Həmin bağlılıqda bir daha Heydər Əliyevin “Bir millət, iki dövlət” və “Fəxr edirəm ki, mən azərbaycanlıyam” kəlamlarının geniş, dərin, yaradıcı, birləşdirici, qurucu və təhlükəsizliyi təminedici potensialını görmək lazımdır. Prezident İlham Əliyev bu kəlamların məna və məzmunlarından çıxış edərək sürətlə dəyişən geosiyasi, hərbi, iqtisadi, ekoloji situasiyalarda optimal faydalı xətti seçə bilmişdir. Bunların sayəsində COP29-un siyasi təminatı mümkün olmuşdur!

(ardı var)

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Dünya COP 29-dan təsirli qərarlar gözləyir

**İqlim dəyişmələrinin törətdiyi nəticələr insanların yaşam tərzinə mənfi təsirini göstərməklə bütün dünyanı daha çox narahat edir və qlobal səylərin vacibliyini aktuallaşdırır. 1992-ci ildə Rio-de-Janeyroda BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Konfransında 154 dövlət tərəfindən insanların iqlim sisteminə təhlükəli müdaxiləsi ilə mübarizə aparmaq üçün “İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası” imzalanıb. Konvensiyanın ali qərar qəbuledici orqanı olan Tərəflər Konfransı (COP) iqlim dəyişikliyi ilə mübarizədə irəliləyişi qiymətləndirmək üçün hər il toplanır. 2024-cü ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanın evsahibliyi ilə keçirilməsi ölkəmiz adına həm qürurverici, həm də qlobal əhəmiyyət daşıdığından tarixi bir hadisədir.**

Yer kürəsində yaşayan hər bir insan kimi, bu gün bizim qarşımızda duran əsas vəzifələrdən biri iqlim dəyişmələrinə səbəb olan amilləri aradan qaldırmaq və gələcək nəsillərə sağlam ətraf mühit ötürməkdir. Ona görə də Bakıda keçirilən bu beynəlxalq platforma həmı üçün bir fürsətdir. Nə qədər imkanımız və vaxtımız var istifadə etməliyik ki, iqlim problemlərinin həll edilməsi istiqamətində daha çox iş görülsün.

Bu baxımdan qərara gəldik ki, COP29-da iştirak edən, eyni zamanda, şəhərimizin qonaqları olan konfrans nümayəndələrinin təəssüratlarını, gələcəklə bağlı fikirlərini oxuculara çatdıraq.




Müsahibimiz Cənubi Afrika Respublikasından olan iqlim müdafiəçisi Nokulunga Memela Bakıda COP29-un açılış günündə təqdimat keçirdiklərini bildirdi. Dedi ki, bu təqdimat zamanı öz istəklərini aydın ifadə ediblər. Onun əsas ümidi odur ki, qlobal istiləşməyə qarşı tez bir zamanda təsirli addımlar atılsın: "İndiyə qədər götürülmüş öhdəliklərin az qismi həyata keçirilib. Əlbəttə gözləntilərimiz var. Afrikadan gəlmiş nümayəndə heyətimiz tam bir komanda olaraq çalışır. İqlim dəyişikliyi bütün dünyada olduğu kimi, Afrikada da ətraf mühitə, yaşayışımıza, təbiətimizə ciddi ziyan vurub. Məqsədimiz COP29 iqlim konfransında maliyyə məsələləri ilə yanaşı, qabaqcıl texnologiyaların təmin edilməsi, yaşıl enerji mənbələri və karbonsuzlaşdırma sahəsində inkişaf etmiş ölkələrin maksimum yardımına nail olmaqdır. Təəssüflə qeyd edim ki, iqlim fəaliyyəti üçün adekvat maliyyənin təmin edilməsi mühüm problem olaraq qalır. Bizim ölkəmiz aşağı karbonlu iqtisadiyyata ədalətli keçidə və qlobal emissiyaların azaldılmasına sadiqdir".

N.Memela Bakı şəhərinin memarlıq cəhətdən fərqləndiyini, burada müasirlik ilə qədimliyin vəhdət təşkil etdiyini bildirdi. Onu qeyd etdi ki, Azərbaycanda yaşayan insanlar öz doğma dilləri ilə yanaşı, daha çox xarici dil bilmələrinə üstünlük verirlər.

"Dünyada böyük çağırışlar var. Ümid edirik ki, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iqlim dəyişikliyi ilə mübarizə üçün daha çox maliyyə vəsaiti ayrılar". Bunu bizə müsahibəsində İspaniya nümayəndə heyətinin üzvü Maria Teresa söylədi. Dedi ki, iqlim dəyişikliyinə qarşı mübarizənin davamlı olması üçün ehtiyac duyulan qədər maliyyə vəsaiti ayrılması vacibdir. Gözləntilərim var bu tədbirdən. Ona görə ümidliyəm. Ümumiyyətlə, bu sahədə atılmış hər bir addım yaxşılığa doğru irəliləyişdir.

Filippindən gələn nümayəndə heyətinin üzvləri də şən təəssüratlarını çatdırdılar. Qeyd etdilər ki, Azərbaycanda möhtəşəm qonaqpərvərliyin şahidi olublar: “Bakı çox gözəl şəhərdir. Birinci dəfədir ki, burda oluruq. Təssüratlar çox gözəldir. Azərbaycanda keçirilən COP29 İqlim Konfransının təşkilatçılığı çox yüksək səviyyədədir. Bir çox öhdəliklərin götürülməsini gözləyirik. Yaşadığımız planetin iqlim dəyişikliyindən daha az təsirlənməsini istəyirik. Atmosferə atılan qaz emissiyalarının azaldılması, tullantıların idarə edilməsi, bərpaolunan enerji həlləri, ekoloji cəhətdən təmiz mobillik dünyamızın gələcəyini fikirləşən hər bir insanın arzusudur. Filippin iqlim dəyişikliyi baxımından bir sıra problemlərlə üzləşir. Ümid edirik ki, COP29 sadəcə sözlər, öhdəliklər deyil, həm də bütün insanların, ölkələrin iqlim dəyişikliyi ilə mübarizə çağırışlarına qoşulmaq üçün bir vasitə olacaq. Bu tədbirin əsaslı nəticələr verəcəyini düşünürük.”




"Bakıya ilk dəfədir ki, gəlirik. İştirak etdiyimiz COP29 tədbirində digər üzv dövlətlərin nümayəndə heyətlərinin aktivliyini gördük. Onlar öz ölkələrinin çağırışları barədə bizi məlumatlandırdılar”. Bu sözləri isə Çindən gələn nümayəndə heyətinin üzvləri bildirdilər. Əlavə etdilər ki, bu tədbir cari problemlərin, qarşıda duran risklərin və gələcəyi təmin etmək yollarının müzakirəsi üçün çox mühüm hadisədir. Bizim üçün ən aktual məsələlər isə iqlim dəyişikliyi fonunda müasir texnologiyalardan, o cümlədən, kosmik texnologiyalardan istifadə etmək, ümumi səylərlə fərqlilikləri aradan qaldırmaq və bəşəriyyət üçün ortaq taleyi olan icma yaratmaqdır.

Sonda onu da nəzərə çatdıraq ki, müsahiblərimiz Bakı şəhərinin gözəlliyini və xalqımızın qonaqpərvərliyini xüsusu olaraq qeyd edirdilər. Tədbirin təşkil olunmasını, logistikanın dəqiqliyini, yerləşməni yüksək qiymətləndirir və əlavə olaraq şəhəri gəzməyə həvəsli olduqlarını da bildirdilər.

İnanırıq ki, BMT-nin COP 29 Sammitinə sədrlik edən Azərbaycan iqlim dəyişmələrinə qarşı birgə mübarizədə beynəlxalq əməkdaşlığın reallaşdırılması üçün mühüm platforma rolunu oynayaraq etibarlı gələcəyimizə hesablanacaq qərarların qəbuluna ciddi töhfələr verəcəkdir.

*Azər MUSTAFAYEV*




# BMT-nin Baş katibinin iqtisadi keçidə dəstək çağırışı

**İtki və Zərərlərə Cavab Fondunun idarə heyətinin həmsədri Riçard Şerman COP29 çərçivəsində maliyyələşdirmənin koordinasiya və tamamlama mexanizmləri üzrə yüksəksəviyyəli illik dialoqun açılışında itkiləri və zərərləri qarşılamaq məqsədilə maliyyə dəstəyini artırmaq üçün ölkələr səviyyəsində əlaqələndirilmiş fəaliyyəti sürətləndirmək, eləcə də qüvvələri səfərbər etmək məqsədilə illik dialoqun yaradılmasının əhəmiyyətli hadisə olduğunu deyib.**




BMT-nin Baş katibi Antonio Quterreş isə iqlim dəyişmələrinin mənfi təsirlərindən danışaraq dünyada temperaturun yüksəlməsinin getdikcə daha təhlükəli hala çevrildiyini, nəticədə ötən dövrdə ən isti gün, ən isti ay, ən isti il və ən isti onilliyin müşahidə olunduğunu bildirib. “İqlim fəlakətləri artır. Biz iqtisadiyyatların dağıldığını, insanların həlak olduqlarını, dolanışıq vasitələrinin itirildiyini və inkişafın dayandığını görürük”, – deyən Baş katib əlavə edib ki, İtki və Zərərlərə Cavab Fondunun yaradılması inkişaf edən ölkələr, çoxtərəflilik və ədalət üçün qələbədir. Amma onun 700 milyonluq ilkin kapitallaşması həssas təbəqəyə dəyən ziyanı aradan qaldırmaq üçün yetərli deyil. Bu, hətta sentyabrda “Yaqi” qasırğasının Vyetnama vurduğu ziyanın dörddəbirini ödəməyə belə imkan vermir. Bu səbəbdən də tələb olunan maliyyələşmə məsələsində ciddi düşünməliyik.

Antonio Quterreş ölkələri fonda yeni vəsaitlər ayırmağa, yeni iqlim maliyyəsi hədəfi barədə razılığa gəlməyə çağırıb.

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev iqlim dəyişmələrinin təsirlərinin hər gün hiss olunduğunu bildirib, ekstremal hava hadisələrinin insanların dolanışıq vasitələrini, mədəni irsi məhv etdiyini, sakinləri öz evlərini tərk etmək məcburiyyətində qoyduğunu deyib. Ona görə də itki və zərərin qarşısının alınması COP29 Sədrliyinin ambisiyaları artırmaq planının əsas prioritetlərindən biri müəyyən edilib.

COP29-un prezidenti tədbirin fonda vəsaitlərin axınına, onların ən çox ehtiyac duyulan yerə yönəldilməsi məsələsini müzakirə etməyə imkan verəcəyini, bu çərçivədə evsahibliyi, qəyyumluq və ianəçi müqavilələrinin imzalanacağını bildirib. O, ən çox zərər çəkən icmaların ehtiyaclarını daha effektli şəkildə qarşılaya bilmək üçün ölkələri daha çox maliyyə öhdəlikləri götürməyə çağırıb, maliyyələşmədən başqa, texniki yardımın da göstərilməsinin zəruriliyini vurğulayıb.

M.Babayev bu gün işə salınan illik yüksəksəviyyəli dialoqun itki və zərərə cavab verməkdə daha səmərəli fəaliyyət göstərmək səylərində mühüm vasitə olacağını diqqətə çatdırıb, müxtəlif maraqlı tərəflər arasında bilik və təcrübə mübadiləsini təşviq edəcəyinə əminliyini bildirib.

COP28-ə evsahibliyi etmiş Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər nazirinin müavini Abdulla Balala İtki və Zərərlərə Cavab Fondunun yaradılmasının siyasi iradədən xəbər verdiyini qeyd edərək vurğulayıb ki, iqlim dəyişmələrinin səbəb olduğu zərərlərin qlobal iqtisadiyyata 38 trilyon ABŞ dollarına başa gələcəyi proqnozlaşdırılır. Bunun qarşısını almaq, daha doğrusu, ziyanı azaltmaq ölkələr arasında əlaqələndirməni gücləndirmək, məlumat mübadiləsini gücləndirmək və ən əsası, resursları geniş miqyasda səfərbər etmək üçün vahid səy tələb edir.

# “İqlim ədaləti və bərabərlik”

**COP29-un Yaşıl Zonasında yerləşən “Yer konfransı” otağında “İqlim ədaləti və bərabərlik” mövzusunda seminar keçirilib. “Rhenus Group” tərəfindən təşkil olunan tədbirdə bir sıra ölkələrdən icma üzvləri, yerli və xarici ekspertlər, eləcə də QHT nümayəndələri iştirak ediblər.**




Müzakirələrdə iqlim dəyişmələri nəticəsində Kiçik ada dövlətlərinin, səhralaşmış zonaların qarşılaşdıqları əsas problemlər və onlardan çıxış yolları ilə bağlı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, qlobal miqyasda baş verən iqlim dəyişiklikləri daha çox Kiçik ada dövlətləri üçün təbii fəlakətlər və ərzaq çatışmazlığı ilə müşayiət olunur.

Seminarda dünyada karbon emisiyasının artımının temperaturun yüksəlməsinə, buzlaqların əriməsinə, dünya okeanının səviyyəsinin qalxmasına göstərdiyi təsirlər nəticəsində Kiçik ada dövlətlərinin sahilyanı zolaqlarının itirilməsi vuğulanıb. O da bildirilib ki, təbii fəlakətlərin intensivliyi və onların nəticəsinin aradan qaldırılması daha çevik təxliyə imkanları və maliyyə resursları tələb edir. Müzakirə iştirakçılarının fikrincə, Kiçik ada dövlətlərinin materiklərdən uzaqda yerləşməsi materik dövlətlərinin təcili yardım təşəbbüslərini səmərəsiz edir, bu qrupdan olan dövlətlərin təbii resurslarının və maliyyə imkanlarının məhdudluğu bu ölkələrdə yaşayan əhalinin rifahına mənfi təsir göstərir. Bu səbəbdən də sözügedən regionda fəlakətlərdən qorunmaq və nəticələrin aradan qaldırılması üçün qlobal miqyasda iqlim böhranına səbəb olan dövlətlərin bundan əziyyət çəkən ölkələrə böyük həcmdə maliyyə yardımları etməsi zəruridir. Diqqətə çatdırılıb ki, maliyyə resursları ilə təminat Kiçik ada dövlətlərində kənd təsərrüfatında innovativ texnologiyaların tətbiqinə imkan yarada bilər ki, bu vəziyyətin özü də həm iqlim kataklizmlərindən qorunmağa, həm də ada əhalisinin məşğulluğunun və rifahının yüksəlməsinə müsbət təsir göstərər.

Tədbir iştirakçıları, həmçinin su resurslarının səmərəli idarə edilməsi, itkilərin minimuma endirilməsi və suyun yenidən istifadəsi üçün texnoloji yeniliklərin əhəmiyyətindən danışıblar. Bununla yanaşı, su mənbələrinin dayanıqlığının təmin edilməsi məqsədilə ekosistemlərin qorunması, əhalinin su istifadəsi haqqında maarifləndirilməsi və hüquqi tənzimləmələrin gücləndirilməsi kimi strategiyaların vacibliyi vurğulanıb.

# Yeni sivilizasiyaya açılan “yaşıl” qapı

**Azərbaycanın evsahibliyi etdiyi COP29 “yaşıl” ixtisasların və “yaşıl” bacarıqların inkişafına töhfədir. Bu tədbirdən sonra “yaşıl” təhsil və ətraf mühit dəyişiklikləri ilə bağlı təhsil müəssisələrinin layihələri daha da sürətlənəcək, dayanıqlı inkişafın təmin edilməsi üçün bir çox layihələr icra ediləcək.**



COP29 gündəliyində təhsilə xüsusi yer ayrılıb. Müzakirə mövzularından biri olan “PISA” qiymətləndirmələrinə iqlim savadlılığı üzrə göstəricilərin daxil edilməsinə dair Azərbaycanın təşəbbüsü müxtəlif ölkələrin təhsil sistemlərində iqlim məlumatlılığının artırılmasına xidmət göstərəcək. Bununla bağlı jurnalistlərə müsahibəsində **Elm və təhsil naziri Emin Əmrullayev** dedi ki, COP29 çərçivəsində iqlim savadlılığının qiymətləndirilməsi istiqamətində Azərbaycanın təşəbbüsü müzakirə ediləcək.

Nazirin sözlərinə görə, universitetlərin dayanıqlı inkişafı ilə bağlı bizi böyük bir tədbir gözləyir: “COP29-dan sonra yəqin ki, “yaşıl” təhsil və ətraf mühit dəyişiklikləri ilə bağlı məktəb və universitetlərdə işimiz daha da sürətlənəcək. Çünki “PISA 2029”da ətraf mühitlə bağlı qiymətləndirmə həyata keçirilərsə, bir çox ölkələr artıq öz işinin nəticəsini ölçəcəklər. Burada müəyyən müzakirələr var, amma hələ ki, ölçülməyə əsaslanmış dəlil yoxdur. İnanırıq ki, Azərbaycanın bu təşəbbüsü dəstəklənəcək və növbəti illərdə həm respublikamızda, həm də digər ölkələrdə “yaşıl” təhsillə bağlı daha çox iş görüləcək. “Yaşıl” ixtisasların və “yaşıl” bacarıqların inkişafı bizim prioritet istiqamətlərimizdəndir. “Yaşıl” bacarıqlar bütün ixtisasların daxilində iqlim dəyişikliklərinin ətraf mühit çirklənmələrinin qarşısını almaq üçün səriştələrin formalaşdırılması kimi başa düşülməlidir”.



**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik İsa Həbibbəylinin** fikrincə, istər COP29, istərsə də “Yaşıl dünya naminə həmrəylik ili” Azərbaycanda cəmiyyət həyatının müxtəlif sahələrini, məsələn, iqtisadiyyatı dəyişdiyi kimi, elmi təfəkkürdə də yeniliklər yaradıb. Akademik jurnalistlərə müsahibəsində bildirdi ki, bizim iqtisadi sahədə “yaşıl” enerji haqqında olan biliklərimiz iki il əvvəl utopiya kimi səslənə bilərdi. Amma bu gün Azərbaycanda bərpaolunan enerji olduğunu hər kəs bilir və dövlət səviyyəsində həmin mənbələrdən istifadə olunması istiqamətində layihələr həyata keçirilir. Elmə gəldikdə isə, AMEA prezidenti qeyd etdi ki, “yaşıl” enerjini şərtləndirən, yeni sahə – “yaşıl” energetika yaranıb, məsələn, “yaşıl” artım, “yaşıl” kimya, “yaşıl” bacarıqlar haqqında danışırlar. Dünya elə bil ki, yeni sivilizasiyaya yaşıl işıq yandırıb.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

**Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Baş direktoru Emi Pop BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ilə bağlı verdiyi bəyanatda iqlim miqrasiyasının bəşəriyyətin gələcəyi üçün narahatlıq mənbəyi olmaqla bərabər, həm də bu gün dünyada milyonlarla insanın yaşadığı real problem kimi diqqət çəkdiyini qeyd edib.**

# Ekoloji miqrasiya bəşəri problemə çevrilir



Emi Pop COP29 gündəliyi ilə bağlı müzakirələrdə iştirak edən dünya liderlərini iqlim dəyişikliyinin fəsadlarından ən çox təsirlənən cəmiyyətlər adından daha konkret və davamlı qərarlar qəbul etməyə çağırıb.

BMqT-nin Baş direktoru iqlim dəyişikliyinin nəticələrinə baxmayaraq, öz evlərində qalmağa və dolanışıqlarını qorumağa çalışan insanların vəziyyətinə də diqqət çəkib. Onun sözlərinə görə, bəşəriyyətin bu hissəsi xüsusilə iqlim dəyişikliyinə uyğunlaşma və dayanıqlılıq tədbirlərinə ehtiyac duyur. Emi Pop vurğulayıb ki, bu insanlara kömək etmək üçün daha effektiv yollar axtarmaq lazımdır. O qeyd edib ki, təkcə 2023-cü ilin sonuna qədər dünyada iqlim miqrasiyası 26 milyondan çox insanı evlərini tərk etməyə məcbur edib.

BMqT-nin Baş direktoru hesab edir ki, hər hansı ekoloji həllərin hazırlanması zamanı iqlim miqrasiyası mövzusu nəzərə alınmalıdır. “Ekoloji fəlakətlərə məruz qalan insanlarla məsləhətləşmək vacibdir. Onların innovativ ideyaları davamlı və ədalətli iqtisadi əlaqələrin qurulmasına töhfə verir”, – deyə Emi Pop əlavə edib.

# BƏƏ enerji strategiyasını yeniləşdirir

**Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər nazirinin köməkçisi Abdulla Balalaa dövlətinin 2050-ci ilə qədər enerji strategiyasını yeniləmək niyyətində olduğunu açıqlayıb. Diplomat bu planı COP29 çərçivəsində “Bərpaolunan enerjidən istifadənin üç dəfə və enerji səmərəliliyi ikiqat artırılması üçün investisiyaların genişləndirilməsi” mövzusunda keçirilən nazirlər səviyyəsindəki dialoq zamanı açıqlayıb.**




A.Balalaa, həmçinin yaxın zamanda enerji səmərəliliyini 45 faizə çatdırmaq üçün icrasına başlanılan proqram haqqında da məlumat verib. Xarici işlər nazirinin köməkçisi çıxışında BƏƏ-nin enerji sektorunda tullantıların sıfırlanması istiqamətində mühüm irəliləyişin əldə edildiyini də vurğulayıb.

“Biz şəbəkə emissiya əmsalını daha da azaltmağı hədəfləyirik ki, bu da BƏƏ-ni ən az emissiya olan ölkələrdən birinə çevirəcək. Biz təmiz enerji mənbələrinə iddialı, lakin praqmatik keçiddə nümunə olmağa çalışırıq”, – deyə o, bildirib.

# Bakı təmiz gələcəyin maliyyə təminatını gündəmə gətirib




**COP29 Dünya Liderləri Sammiti çərçivəsində “İqlim maliyyələşdirməsi imkanları – dayanıqlı gələcək üçün həlledici məqam və dönüş nöqtəsi” mövzusunda keçirilən yüksək səviyyəli “dəyirmi masa”da Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev çıxış edərək iqlim maliyyələşdirilməsi mövzusunun əhəmiyyətini vurğulayıb və bildirib ki, hazırda 1,5 dərəcə hədəfinə nail olmaq üçün lazımi iqlim maliyyələşdirməsini bütün maraqlı tərəflərlə müzakirə etmək imkanı yaranıb: “COP29 Sədrliyi müzakirələrin uğurla yekunlaşması üçün artıq uzun müddətdən bəri bütün tərəflərlə iş aparıb. Onların bir ortaq fikrə gəlməsi üçün indi uğurlu fürsət yaranıb. Hökumətlərdən tutmuş özəl sektora kimi, eləcə də beynəlxalq maliyyə institutları ədalətli və iddialı iqlim maliyyələşməsi üçün töhfə verməlidirlər”.**

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil çıxışında bildirib ki, müasir dünyada hər il “yaşıl” texnologiyalara ayrılan vəsaitlər artsa da, bu, iqlim dəyişikliklərinə qarşı yeganə cavab ola bilməz. Beynəlxalq ictimaiyyət dünyanın gələcəyini xilas etmək üçün kollektiv iqlim fəaliyyətlərini dəstəkləməli, “yaşıl” iqlim hədəfləri istiqamətində səyləri birləşdirməlidir. Bunun üçün qlobal maliyyə arxitekturası da yaradılmalı, yeni maliyyə resursları iqlim maliyyələşməsinə yönəldilməlidir.

Dünya Bankının prezidenti Acay Banqa və Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakava çıxışlarında çoxtərəfli inkişaf banklarının ətraf mühitin mühafizəsi üçün həyata keçirdikləri proqramlar, inkişaf etməkdə olan ölkələr üçün iqlim dəyişmələrinin yaratdığı fəsadlarla mübarizə üçün aparılan işlərdən danışıblar. Qeyd edilib ki, bu istiqamətdə təkcə maliyyə ayırmaq kifayət deyil, eyni zamanda, ölkələri iqlim böhranı ilə mübarizədə hərtərəfli dəstəkləmək mühüm əhəmiyyət kəsb edir.

“Dəyirmi masa”da müxtəlif ölkələrin yüksəksəviyyəli təmsilçiləri iqlim maliyyəsi ilə bağlı razılaşmanın vacibliyini vurğulayıb, emissiyaların azaldılması üçün səylərin gücləndirilməli olduğunu ifadə ediblər.

# KOB-lar “yaşıl” keçidə qoşulur

**Bakıda keçirilən COP29 çərçivəsində kiçik və orta biznes strukturlarının (KOB) “yaşıl” keçidinin təşviqinə və bu sahədə əməkdaşlığa dair sənədlər imzalanıb. Mavi Zonada təşkil olunmuş imzalanma mərasimi beynəlxalq qurum və təşkilatlar üçün açıq elan edilib.**



Bəyannaməni Beynəlxalq Ticarət Mərkəzinin icraçı direktoru Pamela Koxamilton, Braziliyanın Mikro və Kiçik Müəssisələrə Dəstək Xidmətinin prezidenti Desio Lima, İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov və BMT-nin iqlim dəyişikliyi üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai imzalayıblar.

Xatırladaq ki, KOBİA-nın təşəbbüsü ilə hazırlanmış “KOB-ların yaşıl iqlim keçidi üçün Bakı Koalisiyası Bəyannaməsi” qlobal səviyyədə kiçik və orta biznes strukturlarının “yaşıl” iqtisadiyyata keçidi üzrə birgə səylərin birləşdirilməsi məqsədi daşıyır. Kiçik bizneslərin davamlı biznes modellərinə keçidini dəstəkləmək üçün qlobal əməkdaşlığa səsləyən bu sənəd kiçik bizneslərə təcrübələri mənimsəməkdə kömək etmək məqsədilə məlumatlılığın və potensialın artırılması, “yaşıl” maliyyəyə çıxışın yaxşılaşdırılması və innovasiyaların təşviqi öhdəliyini götürür. Bəyannamədə KOB-ların “yaşıl” təchizat zəncirinə inteqrasiya etməsi və onların xalis sıfır emissiyaya keçidini asanlaşdırmaq üçün əməkdaşlıq və həll yolları vurğulanır.

Beynəlxalq Ticarət Mərkəzinin, Braziliyanın Mikro və Kiçik Müəssisələrə Dəstək Xidmətinin və KOBİA-nın imzaladığı digər sənəd isə üçtərəfli əməkdaşlıq bəyannaməsi adlanır. Bu sənəd BMT-nin 2030 inkişaf gündəliyində qeyd edilmiş dayanıqlı və inklüziv iqtisadi inkişafa nail olmaq və KOB-ların aşağı karbon keçidinin asanlaşdırılması üzrə birgə əməkdaşlığın təşviqini nəzərdə tutur.

Tədbir çərçivəsində KOBİA və Beynəlxalq Ticarət Mərkəzinin arasında “KOB-ların yaşıl iqlim keçidi üçün Bakı Koalisiyası Bəyannaməsi”ndən irəli gələn məsələlərə, o cümlədən KOB-ların yaşıl keçidinə dəstək, eləcə də KOB-ların inkişafına dair birgə tədbirlərin icrasını nəzərdə tutan Niyyət Protokolu imzalanıb.

İmzalanma mərasimində çıxış edən KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib ki, KOB-ların yaşıl keçidi onların rəqabət qabiliyyətini və yeni bazarlara çıxış imkanını artırmaqla, dayanıqlı inkişafı təşviq edir. O, KOBİA-nın təşəbbüsü ilə hazırlanmış “KOB-ların yaşıl iqlim keçidi üçün Bakı Koalisiyası Bəyannaməsi” qlobal müstəvidə kiçik və orta biznesin yaşıl keçidinin asanlaşdırılmasına, nəticədə daha yaşıl bir gələcəyin formalaşmasına öz töhfəsini verəcəyinə əminliyini ifadə edib. KOBİA sədrinin sözlərinə görə, sözügedən bəyannamənin reallaşdırılması ilə bağlı əsası qoyulan üçtərəfli əməkdaşlıq Azərbaycan KOB-larının müvafiq təşkilatların təcrübəsindən yararlanmasına da imkan verəcək. O deyib ki, KOB-ların yaşıl keçidinin asanlaşdırılmasına dəstək olacaq hər üç sənədin COP29 çərçivəsində imzalanması xüsusilə əhəmiyyətlidir və bu, Azərbaycanın ekoloji dayanıqlılığa sadiqliyini bir daha nümayiş etdirir.

Beynəlxalq Ticarət Mərkəzinin icraçı direktoru Pamela Koxamilton və Braziliyanın Mikro və Kiçik Müəssisələrə Dəstək Xidmətinin prezidenti Desio Lima isə çıxışlarında kiçik bizneslərin əksər iqtisadiyyatların onurğa sütununu və qlobal təchizat zəncirinin əsas hissəsini təşkil etdiyini, iqlim dəyişikliyi ilə mübarizə məsələlərində onların fəaliyyətinin xüsusi önəm daşıdığını diqqətə çatdırıblar. Bu sahədə innovasiya, dayanıqlılıq və inklüzivliyin daim aktual olması, yaşıl keçidin yalnız kiçik bizneslərin dəyər zəncirində iştirakı ilə baş verə biləcəyi vurğulanıb.

# Bakı konfransının qlobal su təşəbbüsü




**COP29-un 3-cü günündə “İqlim dəyişikliklərinin su hövzələrinin azalmasına mənfi təsiri” mövzusunda müzakirələr aparılıb.**

BMT Baş katibinin su məsələləri üzrə xüsusi nümayəndəsi Retno Marsudi çıxış edərək su məsələsinin COP29-un əsas prioritetlərindən biri kimi müəyyən edilməsində Azərbaycanın liderliyini yüksək qiymətləndirib, daha geniş iqlim dəyişikliyi üzrə Bakı dialoqunun yaradılmasını alqışlayıb. İqlim dəyişikliklərinin səbəb olduğu su problemlərinin insanların həyatına, gələcək nəsillərə təhlükə yaratdığını, bir çox su hövzəsində, xüsusən də çaylarda suyun azalmasının özü ilə bərabər aclıq problemini ortaya çıxardığını diqqətə çatdıran xüsusi nümayəndə bildirib ki, iqlim dəyişikliyi su mənbələrinə və infrastrukturuna da ciddi ziyan vurur. O deyib ki, təkcə ötən il 32 milyon insan daşqın və seldən əziyyət çəkib, aşağı sahil zonasında yaşayan 680 milyon nəfər dəniz səviyyəsinin yüksəlməsi təhlükəsi ilə üz-üzə qalıb. Bu səbəbdən də su amili iqlim dəyişikliyi ilə bağlı müzakirələrə və fəaliyyətlərə daxil edilməlidir.

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev Biomüxtəliflik və Ekosistem Xidmətləri üzrə Hökumətlərarası Elm-Siyasət Platformasının son hesabatına istinad edərək iqlim dəyişikliyinin biomüxtəlifliyə və torpaq deqradasiyasına mənfi təsirlərindən danışıb. Bu təsirlərin bir-biri ilə, həm də su hövzələri ilə əlaqəli olduğunu vurğulayan nazir, həmçinin dünyanın müxtəlif yerlərində iqlim dəyişikliyinin ekosistemə, Xəzər dənizi də daxil olmaqla su hövzələrinə mənfi təsir göstərdiyini diqqətə çatdırıb.

COP29 çərçivəsində iqlim fəaliyyəti üçün su üzrə COP29 Bəyannaməsinin qəbul olunacağını xatırladan M. Babayevin sözlərinə görə, sənəd maraqlı tərəfləri iqlim dəyişməsinin su ehtiyatları, su hövzələri, su ilə əlaqəli biomüxtəliflik və su ekosistemlərinə təsirləri və səbəbləri ilə mübarizədə inteqrasiyalı yanaşmaları tətbiq etməyə, eləcə də milli səviyyədə müəyyən edilmiş töhfələr və milli adaptasiya planları da daxil olmaqla milli iqlim siyasətlərində su ilə bağlı təsirlərin yumşaldılması və adaptasiya tədbirlərini uzlaşdırmağa çağırır.

Tədbirdə dünya okeanlarında suyun səviyyəsinin artacağı proqnozlaşdırılsa da, bir çox endoreik su hövzələrində əhəmiyyətli azalmalar müşahidə olunduğu vurğulanıb. Qeyd olunub ki, Dünya İqtisadi Forumunun məlumatına görə, 1990-cı ildən bəri dünyanın böyük göllərinin 53 faizi kiçilib. Belə ki, Xəzər və Aral dənizləri, Çad, Titikaka və Viktoriya göllərinin ölçülərində kəskin şəkildə azalma müşahidə olunur. Xüsusən də dünyanın ən böyük daxili su hövzəsi olan Xəzər dənizində yaranan vəziyyətin onun sularını bölüşən Azərbaycan, Qazaxıstan, İran, Rusiya və Türkmənistana ciddi təsir göstərdiyi diqqətə çatdırılıb.

# Qonaqlara nümunəvi nəqliyyat xidmətləri göstərilir

**Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı şatllardan istifadə göstəriciləri açıqlanıb. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) məlumatına görə, tədbirin ilk günündə təşkil edilmiş 18 HUB-dan etibarlı nəqliyyat əlaqəsi təmin edilib və ümumilikdə, 35 min sərnişin daşınıb.**



Bildirilib ki, tədbirin keçirilməsi ilə əlaqədar bir sıra müntəzəm avtobus marşrutlarının sxemində və son dayanacaq məntəqələrində edilən dəyişikliklər sərnişinlərin ünvana çatmasında maneə yaratmayıb. AYNA-nın 350 əməkdaşının iştirak etdiyi sərnişindaşıma əməliyyatında ümumi səfər sayı 4 mindən ibarət olub. Şatlların düzgün yönləndirilməsi sayəsində sərnişinlərin rahat və təhlükəsiz şəkildə Heydər Əliyev Beynəlxalq Aeroportundan H1 ekspres avtobusu ilə “28 May” və H2 ekspres avtobusu ilə “Əhmədli” metro stansiyalarına çatdırılması həyata keçirilib.

Qeyd olunub ki, bütün daşımalar ödənişsiz həyata keçirilib, eyni zamanda, sərnişinlərin itən əşyaları da operativ şəkildə tapılaraq sahiblərinə təhvil verilib. Yeri gəlmişkən, ekoloji cəhətdən davamlılığın təmin edilməsində əhəmiyyətli rol oynayan elektrik mühərrikli taksilər və avtobuslardan istifadə Bakının davamlı inkişafa və ətraf mühitin mühafizəsinə sadiqliyini sübut edib.

Nəqliyyatın ümumi təcrübəsi ilə bağlı yüksək səviyyəli təşkilatçılıq və idarəetmə tədbir iştirakçılarının, eləcə də şəhər sakinlərinin məmnunluğuna səbəb olub. Eyni zamanda, hər hansı xoşagəlməz halların baş verməməsi daşımaların təşkili ilə məşğul olan bütün xidmətlərin yüksək hazırlığının və peşəkarlığının sübutudur.

AYNA-nın məlumatında o da vurğulanıb ki, sözügedən tədbir Bakının qlobal iqlim siyasəti məsələlərinin müzakirəsi üçün beynəlxalq platforma kimi imicini gücləndirməklə yanaşı, beynəlxalq tədbirlərin tələblərini ödəyə bilən müasir ictimai nəqliyyatın imkanlarını da nümayiş etdirir.

# Ölkəmizdə 5 ildə bərpaolunan enerji 35,5 faizə çatacaq

**Azərbaycan 2030-cu ilədək “yaşıl artım ölkəsi”, “yaşıl” elektrik enerjisi və “yaşıl” qazların tədarükçüsü kimi inkişaf prioritetlərinə uyğun olaraq bərpaolunan enerji potensialını milli və beynəlxalq miqyasda artıran ambisiyalı meqa layihələr həyata keçirir. Bunu Azərbaycanın energetika naziri Pərviz Şahbazov COP29-da bərpaolunan enerji və enerji səmərəliliyinə investisiyaların artırılmasına dair Nazirlər Dialoqunda çıxışı zamanı deyib.**



Nazir bildirib ki, 2030-cu ilə qədər istismara veriləcək 2,250 meqavat gücündə günəş və külək elektrik stansiyaları quraşdırılmış gücdə bərpaolunan enerjinin payını 35,5 faizə yüksəldəcək: “Bu, yalnız 30 faizlik hədəfimizin yenilənməsi deyil, eyni zamanda, günəş və külək enerjisinin enerji sistemimizdəki payının 7 dəfədən çox artması deməkdir. Bu dövrdə əsas strateji hədəflərimizdən biri də 5 qiqavat əlavə enerji gücü yaratmaq və bu enerjinin “Xəzər – Qara dəniz – Avropa” və “Azərbaycan – Türkiyə – Avropa” dəhlizləri vasitəsilə Avropaya tədarükünü təmin etmək, eləcə də Qazaxıstan və Özbəkistandan bərpaolunan enerjinin axını üçün “Azərbaycan – Mərkəzi Asiya” yaşıl enerji dəhlizini qurmaqdır”.

Onun sözlərinə görə, regional “yaşıl” enerji dəhlizləri bir-biri ilə əlaqələndirilərək Avropaya yönəldildiyi təqdirdə, Azərbaycan 2030-cu ildə həm özünün, həm də Asiyadan Avropaya qədər geniş bir coğrafiyada ölkələrin “yaşıl” enerjiyə keçidinə və qlobal öhdəliklərin yerinə yetirilməsinə əhəmiyyətli töhfə verəcək.

# Afrikanın 15 ölkəsinin iqlim təqdimatı



**COP29-un Mavi Zonasının Konqo Milli pavilyonunda çıxış edən Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso bildirib ki, Afrikanın 15 ölkəsinin nümayəndə heyəti COP29 platformasında bütün dünya səviyyəsində yeni ideyaları ətraflı müzakirə etməyi qarşıya mühüm vəzifə kimi qoyub. Konqonun hər bir şəhərinin “yaşıl” məkana çevriləcəyinin planlaşdırıldığını diqqətə çatdıran Prezident bu məqsədlə minlərlə ağacın əkildiyini deyib.**

D.Nqesso daha sonra bildirib: “Hakimiyyət orqanlarına müəyyən direktivlər göndərmişəm ki, bütün əhali, xalqımız bu əkilmiş ağacların qorunmasını diqqətdə saxlasın. Gənclərin bu məsələyə ciddi önəm verməsi daha çox məqsədə uyğundur. Brazavildə və digər şəhərlərdə bu istiqamətdə, xüsusilə, ölkədə meşəsalmalara həsr olunmuş müxtəlif konfranslar və tədbirlər təşkil etmişik. Hazırda biz Afrikanın 15 ölkəsinin, həmçinin Karib ölkələrinin “yaşıllaşması” layihəsini həyata keçiririk. Noyabrın 13-də COP29 platformasında Afrikanın 15 ölkəsinin rəhbərləri və hakimiyyət nümayəndələri görüşüb bütün bu məsələlər ətrafında fikir mübadiləsi aparacağıq”.

# Bakı Limanında intermodal yük terminalı yaradılır




**COP29 çərçivəsində “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin Baş direktoru Taleh Ziyadov, “Qazaxıstan Dəmir Yolları” SC-nin İdarə Heyətinin sədri Nurlan Sauranbayev və “Xi’an Free Trade Port Consruction and Operation Co Ltd”nin Baş direktoru Yuan Xiaojun liman ərazisində yeni intermodal yük terminalının inşası üçün müəssisənin yaradılmasına dair saziş imzalayıblar. İmzalanma mərasimində Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov və Qazaxıstanın “Samruk-Kazyna” fondunun idarə heyətinin sədri Nurlan Jakupov da iştirak ediblər.**

Sazişin məqsədi Ələt qəsəbəsində yerləşən Bakı Limanında yükaşırma həcminin artırılması və inkişafı məqsədilə ilk dəfə yeni intermodal yük terminalının tikintisinin həyata keçirilməsindən ibarətdir. Layihə çərçivəsində Bakı Limanının ərazisində 40 hektarlıq sahədə terminal infrastrukturunun yaradılması və inkişafı nəzərdə tutulur.

Xatırladaq ki, Bakı Limanının geniş infrastruktur imkanları, Qazaxıstan Dəmir Yollarının, bütövlükdə, Orta Dəhliz üzrə xidmətlərin göstərilməsindəki mühüm əhəmiyyəti, eləcə də “Xi'an Free Trade Port” şirkətinin Çin – Avropa marşrutu üzrə konteyner qatarlarının təşkili və göndərilməsindəki sürəti nəzərə alınsa, bu sazişin hər üç ölkə üçün böyük logistik əhəmiyyət daşıdığını söyləmək olar. Sazişin digər bir üstünlüyü isə Çin – Avropa marşrutu üzrə Orta Dəhlizlə göndərilən konteyner qatarlarının həcminin müntəzəm artımı, boşaldılma vaxtının azaldılması, daşımaların dəyərinin aşağı salınması, yenidən yükləmə vaxtının minimumlaşdırılması və yük daşımalarının həcminin sabit artmasından ibarətdir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Avropanın 8 ölkəsi karbon püskürən kömürdən Azərbaycan qazı ilə xilas olub



**Azərbaycanın Avropa İttifaqına üzv ölkələrin enerji təhlükəsizliyində oynadığı önəmli rolu heç kəs dana bilməz. “Qoca qitə”nin səkkiz ölkəsi məhz Azərbaycandan nəql edilən “mavi yanacağ”ın hesabına ekoloji cəhətdən daha zərərli qara kömürdən təbii qaz yanacağına keçib. Bunu sahənin aparıcı ekspertləri də etiraf edirlər ki, rəsmi Bakının həyata keçirdiyi meqalayihələr Avrasiyanın enerji və nəqliyyat xəritələrinə korrektələr edib. Həmçinin bu, çoxtərəfli əməkdaşlıq üçün səmərəli formatların yaradılmasına gətirib çıxarıb.**

Prezident İlham Əliyevin COP29 Liderlər Sammitinin açılışındakı çıxışında xüsusilə vurğuladığı məsələlərdən biri də Azərbaycanın həyata keçirdiyi nəhəng layihələrin və səylərin beynəlxalq səviyyədə təsirsiz ötüşmədiyi barədə idi.

“İki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi. Çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin razılaşmanı imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi, indi isə səkkizdir”.

Çıxışında Avropa Komissiyasının qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artırmaq barədə xahişinə də toxunan dövlətimizin başçısı bunun AK sədri ilə iki il əvvəl Bakıda imzalanmış müqavilədə öz əksini tapdığını bildirdi. Amma bunun müqabilində ikili standartlar, digər ölkələrə dərs keçmək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib.

Bəzi qüvvələrin Azərbaycana qarşı dezinformasiya fəaliyyətinə kəskin münasibətini bildirən İlham Əliyev xarici medianın, beynəlxalq strukturların, belə demək mümkünsə, “vətəndaş” birliklərinin, əslində, müstəqil olmadıqları aydın şəkildə nəzərə çarpdığını da dilə gətirdi. Dövlət başçımızın məlum qüvvələrə ünvanladığı mesajların məqsədi həm də ondan ibarətdir ki, rəsmi Bakı istənilən anti–Azərbaycan təxribatlarına cavab verməyə, o cümlədən beynəlxalq geosiyasətin dəyişkən ideoloji aspektlərinə adekvat davranmağa həmişə hazırdır. Ona görə də “kollektiv Qərb” tərəfindən idarə olunan qaragüruh bütün sahələrdə – istər diplomatik, istər siyasi-iqtisadi, istər hərbi, istərsə də mədəni-tarixi sahədə Bakıdan həmişə və dərhal öz cavabını alıb. Qərbdəki azərbaycanofoblara ciddi cavab-reaksiyanın bir forması da ölkəmizdə nüfuzlu forumların, beynəlxalq tədbirlərin təşkil edilməsindən ibarətdir. Həmin ermənipərəst, məkrli qüvvələrin səylərini mənasız edən ən böyük platforma isə COP29-dur.

Mövzu ilə bağlı XQ-yə açıqlamasında Avropanın bəzi media subyektlərinin COP29-un Azərbaycana, guya, mükafat olaraq verildiyi düşüncəsinə sahib olduğunu qeyd edən **Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** konfransın



Bakının deyil, BMT-nin tədbiri olduğunu onların yadına saldı: “Azərbaycan COP29 konfransına dəvəti ev sahibi kimi BMT adından edib. Tədbirin xərcini çəkən, təşkilati yükünü boynuna götürən Azərbaycandır. Bizim “qüsurumuz” neft-qaz ölkəsi olmağımız imiş. Neftimizi də, qazımızı da həmin Avropa alır. Əgər onlara bu imkanı yaratmasaydıq, hələ də kömür yandırardılar və onun qazla müqayisədə ekologiyaya ziyanı birə üç nisbətindədir. İndi təbii yanacağın nəqlini artırmağımız üçün növbəyə düzülüblər, amma o biri tərəfdən nəqlinə kredit ayırmaq istəmirlər. Özləri bilsinlər. Bu gün onlara nəql olunan qazın həcmi Azərbaycanı tamamilə qane edir. Bir halda ki, Avropa İttifaqına üzv ölkələr bu məsələnin həllində maraqlıdırlar, onda zəhmət çəkib əllərini ciblərinə salsınlar və kəmərlərin daşıyıcılıq imkanlarını artıqmaqdan ötrü maliyyə vəsaiti ayırsınlar. Azərbaycan nəyə görə bu xərci öz boynuna götürməlidir? Bizim o kəmərdə iyirmi faizlik payımız var. Qalan payın sahibləri Avropa və ABŞ-dir. Vəsait ayırmaq istəmirlərsə, qazsız qalacaqlar. Elə COP29-un gündəliyi də onlara aiddir. İqlim dəyişikliklərinin fəsadları barədə narahatçılığı dünyaya ilk dəfə Avropa İttifaqı bəyan etmişdi. Bununla bağlı Paris Sazişini ortaya gətirən Fransa indi Bakı Sammiti ilə bağlı “üz-gözünü turşudur”. Azərbaycan BMT-nin konfransı ilə bağlı boynuna götürdüyü öhdəliyə ən yüksək səviyyədə əməl edib. Bakıya qarşı qarayaxma kampaniyası aparanlar isə bizi borclu çıxarmağa çalışırlar. Cənab Prezident çıxışında açıq şəkildə dedi ki, Azərbaycan hansısa media təzyiqinə, şantaja boyun əyən deyil”.

Bəzi Qərb siyasətçilərinin ikibaşlı açıqlamaları, eyhamları, böhtanları, ikili standartlarının əksinə olaraq, Azərbaycan həmişə öz sözünün üstündə durub, boynuna götürdüyü öhdəlikləri yerinə yetirib. Həm ənənəvi enerji daşıyıcılarının nəqli ilə bağlı razılaşmalar, həm də sürətlə inkişaf edən bu sahədə yeni təşəbbüslər üzrə gələcəkdə də tərəf müqabilləri ilə davamlı əməkdaşlığa sadiqdir.

Azərbaycan Prezidentinin bu mesajı nəhəng Avrasiya qitəsində yeni transsərhəd enerji körpülərinin formalaşması kontekstində xüsusilə vacibdir. Burada söhbət “təmiz ətraf mühit” konsepsiyasını həyata keçirmək üçün ölkəmizin üzərinə götürdüyü öhdəliklərdən gedir. “Yaşıl artım” respublikamızın 2030-cu ilə qədər və ondan sonrakı inkişafı üçün əsas prioritet kimi qəbul edilib. O cümlədən, bərpaolunan enerji mənbələrində istehsalın inkişafı, “yaşıl enerji zonaları”nın yaradılması, neft və qaz əməliyyatlarının dekarbonlaşdırılması, enerjinin səmərəliliyinin artırılması və elektrik mobilliyinin tətbiqi həmin konsepsiyanın komponentləri sırasındadır.

Burada oxuculara bir xatırlamamız da yerinə düşər. Ölkəmiz qaz kəməri ilə bağlı öhdəliklərini qüsursuz yerinə yetirməkdə davam edir. 2024-cü ilin yanvar–sentyabr aylarında Azərbaycandan Avropaya 9,4 milyard kubmetr qaz ixrac edilib ki, bu da bir il əvvəlkindən 9,3 faiz çoxdur. Ümumiyyətlə, Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Azərbaycandan Avropaya nəql olunan qazın ümumi həcmi 2020-ci il dekabrın 31-dən bu il sentyabrın ortalarına qədər, təxminən, 40 milyard kubmetr təşkil edib. TAP AG boru kəməri şirkətinin icraçı direktoru Luka Şippatinin bu yaxınlarda qeyd etdiyi kimi, Trans Adriatik Boru Kəmərinin texniki və kommersiya cəlbediciliyi və çevikliyi operatorlar tərəfindən yüksək qiymətləndirilir: Bu gün 43 şirkət boru kəmərinin tutumunu ehtiyatda saxlamaq hüququna malikdir. Bundan başqa, 2026-cı ilin əvvəlinə qədər TAP-ın nəqletmə qabiliyyəti ildə 1,2 milyard kubmetr artırılacaq. Bu göstəricilər Azərbaycanın Avropa üçün ən etibarlı enerji partnyoruna çevrilməsinin əyani sübutudur.

Prezident İlham Əliyevin COP29 Liderlər Sammitinin açılışındakı çıxışında həm Azərbaycan, həm də dünya gündəmi ilə bağlı aydın şəkildə vurğuladığı bütün məsələlər, verdiyi mesajlar bacarıqlı diplomat tərəfindən gözəl düşünülmüş siyasi xəttin BMT tribunasından bəyan edilməsi kimi dəyərləndirilə bilər. Sadəcə, bu gün həmin yüksək tribuna Bakıda qurulub və dünya buradan səslənən fikirlərə, aparılan müzakirələrə qulaq kəsilib.

Bakı Sammitində iştirak edən yüksək çinli qonaqların çıxışları onu deməyə əsas verir ki, COP29 arzu edilən nəticələrlə işini başa vuracaq. Bunu ABŞ Prezidentinin köməkçisi, Ağ Evin Milli iqlim məsələləri üzrə müşaviri Əli Zaidinin çıxışından da hiss etmək mümkün idi. Ağ Ev rəsmisi konfransdakı çıxışında “bərpaolunan enerji mənbələrindən istifadənin üç dəfə artırılması” kimi daha əvvəl elan edilmiş məqsədlərlə bağlı irəliləyiş olacağına ümid etdiyini bildirib. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin çıxışında “Avropa İttifaqı 31 milyard dollar iqlim maliyyələşdirməsinə hazırdır. Bu, bizim payımıza düşəndən çoxdur, hamını bizdən nümunə götürməyə çağırırıq” kimi önəmli mesajı iştirakçıların diqqətini çəkdi. İtaliyanın Baş naziri Ciorcia Meloninin “konsensusa nail olmaq inkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatlar arasında məsuliyyətlərin bölüşdürülməsini və fərqlərin aradan qaldırılmasını tələb edir” fikri maraqla qarşılandı. Onun ölkəsinin Afrika üçün İqlim Fonduna 4 milyard dollardan çox vəsait ayırması, həmçinin yaşıl iqlimi, zərər və ziyan fondlarını dəstəkləməsi, enerji forumunu geosiyasi silahdan geniş şəkildə əlçatan resursa çevirə bilmək barədə dedikləri ciddi əhəmiyyətə malikdir.

Gətirdiyimiz misallar həm də Bakı Sammitini “əyri güzgüdə” görməyə çalışanlara mesaj kimi qəbul edilməlidir.

**Siyasi icmalçı Tofiq Abbasov** bizimlə söhbətində Prezident İlham Əliyevin



COP29 Liderlər Sammitinin açılışındakı çıxışında “kollektiv Qərb”ə ciddi mesajlar verdiyinə diqqəti yönəltdi: “Cənab Prezident ikili standartlardan yanaşmanın, digər ölkələrə dərslər vermək adətinin və siyasi riyakarlığın Avropanın bəzi ölkələrindəki bir sıra siyasətçilər üçün fəaliyyət metoduna çevrildiyini açıq şəkildə bildirdi. BMT-nin iqlim konfransına gəlməməyi bir yana, Fransa rəhbəri digər ölkələri də Bakıya getməkdən çəkindirməyə çalışırdı. Faktiki olaraq, COP29-un gündəliyinin əsas hissəsini təşkil edən Paris Sazişidir ki, onun üzərində iş gedir. Məsələnin təəccüb doğuran tərəfi odur ki, hazırda bu sazişdə göstərilənləri reallaşdırmaqdan ötrü dünyanın bütün dövlətləri çalışırlar. Necə deyərlər, problemdən çıxış yolları tapmaq üçün baş sındırırlar, amma rəsmi Parisin nümayəndələri konfransda yoxdur. Əslində, bu, Fransa hakimiyyətinin xarici siyasətinin uğursuzluğundan xəbər verən göstəricidir. Dünyanın iki yüzə yaxın ölkəsi iqlim dəyişiklikləri ilə bağlı həyəcan təbilinu vurur, bu problemin həllinin bir ölkənin, bir xalqın borcu olmadığını bəyan edirlər, “kollektiv Qərb” isə özünəməxsus tərzdə yaxasını kənara çəkməklə məşğuldur”.

T.Abbasov bir mərkəzdən idarə olunan anti-Azərbaycan qüvvələrin, sanki, Bakıda hansısa qalmaqalın baş verəcəyini gözlədiklərini də vurğuladı: “Heç bir insident, qalmaqal baş verə bilməz. Bu çirkin niyyətlərini reallaşdırmaq üçün cılız və primitiv gedişlərlə Azərbaycana problem yaratmağa çalışırlar. Əlbəttə, bütün bunların heç bir əhəmiyyəti yoxdur”.

“Mənim sonuncu mesajım, təxminən, bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Amma bu gün onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb”.

Cənab Prezidentin çıxışının sonunda gətirdiyi bu statistika Azərbaycanı sevməyənlərə ən tutarlı cavabdır.

***İmran BƏDİRXANLI, XQ***

**Noyabrın 11-də, Bakıda COP29 konfransı işə başlayan gün “Freedom House” təşkilatı anti-Azərbaycan ruhlu yeni hesabatını yayıb. “Dağlıq Qarabağda niyə ermənilər yoxdur?” adlı hesabatda iddia olunur ki, guya, Azərbaycan 2023-cü ilin sentyabr ayında həyata keçirdiyi birgünlük anti-terror tədbirləri zamanı “beynəlxalq prinsipləri pozub, dinc ermənilərə qarşı etnik təmizləmə həyata keçirib”.**

# “Freedom House” çeynəməyə saqqız tapmır...

## *Təşkilat eyni hesabatı 1 ildə 3-cü dəfə yayıb*

İttiham o qədər gülüncdür ki, Azərbaycandan daha çox “Freedom House” təşkilatının özünü hədəfə gətirir. Onun fəaliyyəti haqqında şübhələrə yol açır. Çünki, 19-20 sentyabr tarixlərində həyata keçirilmiş anti-terror tədbirləri bütün dünyanın gözü qarşısında baş verib. Bu tədbirlər erməni əsilli mülki əhalini deyil, qanunsuz hərbi birləşmələri, terrorçu dəstələri, separatçı liderləri hədəf seçib. Bu gün “Freedom House” və onun tərəfdaşlarının “Qarabağın siyasi liderləri” adlandırıb ambisiyalarına boyun əyməyən dövlətləri hədəfə alıb, ictimai qınaq obyektinə çevirirlər. ABŞ-nin, Avropa İttifaqı Şurasının hədəfdə olan dövlətlərə qarşı sanksiyalar tətbiq etmələri üçün zəmin hazırlayırlar. Onların indiki halda Azərbaycanda “etnik ayrı-seçkilik” mövzusunu gündəmə gətirmələri, “Qarabağın siyasi liderlərini” sərbəst buraxmağa çağırmaları, “Qarabağ ermənilərinin etnik təmizləməyə məruz qaldıqlarını” iddia etmələri təsadüfi deyil.

Son iki ay ərzində ABŞ Konqresində, AŞPA-da, Avropa Parlamentində, Fransa Senatında cərəyan edən proseslərə, anti-Azərbaycan xarakterli bəyanatlara xronoloji ardıcıllıqla baxsaq, onda “Freedom House”, “Amnesty İnternational”, “Human Rights Watch”, “Sərhədsiz Repartyorlar” Təşkilatının, “Amerikanın səsi”, “Azadlıq Radiosu”nun fəaliyyəti üzrə yaranan suallara da aydın cavab tapa bilərik. Oktyabrın 2-də Avropa Şurası Parlament Assambleyasının payız sessiyasında Azərbaycan üzrə dinləmələr keçirilməsi, bu dinləmələr fonunda “Bakıda həbsdə olan Qarabağın siyasi liderlərinin işgəncəyə məruz qalması” barədə iddianın səsləndirilməsi nə qədər absurddursa, “Freedom House” təşkilatının son hesabatı da bir o qədər anlaşılmazdır. ABŞ Konqresinin 58 nəfər üzvünün ABŞ-nin dövlət katibi Antoni Blinkenə məktub yazaraq COP29 ərəfəsində Azərbaycana “insan hüquqları ilə bağlı” təzyiq göstərməyə çağırması, “Bakıda saxlanılan Qarabağ liderlərininin azadlığa buraxılması”nın istənilməsi nə qədər müəmmalıdırsa, “Freedom House” təşkilatının son hesabatı da bir o qədər qaranlıqdır.



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Avropa Parlamentinin oktyabrın 24-də qəbul etdiyi “Azərbaycanda insan hüquqları pozuntuları ilə bağlı qətnamə” də müdafiə etdiyi, sərbəst buraxılmasını istədiyi şəxslər, əslində, “separatçı hərəkata rəhbərlik etmiş fiqurlar”dır. Paralel olaraq, müharibə cinayətkarlarıdır. Onlar on minlərlə azərbaycanlını qətlə yetirib, həyatını bitiriblər. Bir o qədər insanı əsir, girov götürüblər. Yüz minlərlə insanı köçkün salıblar. Məhz bu əməllərinə görə 2020-ci ilin 44 günlük Vətən müharibəsi dövründə, həmçinin 2023-cü ilin anti-terror tədbirlərinin gedişində cəzalandırılıblar. Həbs olunaraq Bakıya gətiriliblər və hazırda mühakimə olunurlar.

Həmin separatçı, terrorçu dəstə cinayətlər törədəndə “Freedom House” və tərəfdaşları susublar. Erməni separatçıların hərəkətlərini pisləyən heç bir bəyanat verməyiblər, hesabatlar hazırlayıb yaymayıblar. 30 il müddətində “separatçı liderlər” tərəfindən törədilən cinayətləri görərək susan, 100 minlərlə azərbaycanlının əsir, gorov götürülməsinə, qətlə yetirilməsinə, yurd-yuvasından didərgin salınmasına baxıb səsini çıxarmayan “Freedom House” təşkilatı indi birdən-birə fəallaşırsa, son 4 ildə “müharibə cinayətləri”ndən danışırsa, deməli, ortada başqa məqamlar, başqa meyarlar vardır.

Diqqət yetirsək eyni tendensiyanı “Freedom House” ilə yanaşı, özünü “insan haqlarının müdafiəçisi” elan etmiş beynəlxalq statuslu digər təşkilatların da fəaliyyətlərində görə bilərik. “Human Rights Watch”, “Amnesty International” qismində təşkilatlar da ötən 1 il ərzində tərtib etdikləri qondarma hesabatlarda “Qarabağ ermənilərinin etnik təmizləməyə məruz qaldığını” iddia ediblər.

Təcrübə göstərir ki, Qərbi Avropa dövlətlərində, xüsusilə, ABŞ, Fransa və digər ölkələrin ərazisində mənzillənmiş “insan haqları müdafiəçiləri”nin, “beynəlxalq statuslu jurnalist təşkilatları”nın, transmilli KİV-in “müstəqilliyi”, “prinsipiallığı” barədə deyilənlər reallığı əks etdirmir. Bu gün “Freedom House” həmçinin onun tərəfdaşları qismində çıxış edən “Amnesty İnternational”, “Human Rights Watch”, “Sərhədsiz Repartyorlar” Təşkilatının, “Amerikanın səsi”, “Azadlıq Radiosu”nun fəaliyyəti ABŞ Dövlət Departamentindən, ABŞ Konqresindən, Avropa İttifaqı Şurasından, Fransa Senatından və digər siyasi mərkəzlərdən alınan tezislərə uyğunlaşdırılır. Onlar Qərb siyasi çevrələrinin qərarlarının icraçısına çevriliblər. Qərbin siyasi büsbütün eyni ruhdadır. Onlar da Bakıda həbsdə saxlanılan Qarabağ separatçılarını “insan haqları”, “etnik azlıqların hüquqları” kontekstində müdafiə edirlər.

Avropa Parlamentinin, AŞPA-nın, ABŞ Konqresinin bu siyasəti fərqli formatlarda “Freedom House”, “Amnesty İnternational”, “Human Rights Watch”un fəaliyyətində davam etdirilir, eyni hədəflərə xidmət edir. COP29-la əlaqədar Azərbaycana təzyiq göstyərmək, hansısa güzəştlərə nail olmaq niyyəti güdür. Nəzərə almaq zəruridir ki, COP29 Konfransı Cənubi Qafqaz üzərində geopolitik savaşın gücləndiyi, açıq müstəviyə keçdiyi bir dönəmə təsadüf edir. Azərbaycan öz potensialından faydalanaraq, regionu bu savaşdan kənar tutmağa, bölgədə sülhü, sabitliyi qorumağa çalışır. Təbii ki, belə mövqe region üzərində məkrli planlar qurmuş geopolitik savaş oyunçularına xoş gəlmir. Onlar “Freedom House” qismində təşkilatları aktivləşdirərək, COP29-la bağlı təxribat formalı təbliğat həyata keçirirlər.

Amma reallıq budur ki, heç bir nəticə əldə edə bilmirlər. Onların təxribatlarına rəğmən, COP29 baş tutdu. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu gün dünyanın 169 ölkəsindən 72 min nəfər COP29-a qeydiyyata düşüb, Bakıya gəlirlər. Belə durum “Freedom House” və onun yandaşlarını çaşqın duruma salıb. Sözləri bitib, “arqumentləri” tükənib. Çaşqın duruma düşdükləri barədə təsəvvür yaratmaq üçün bircə fakta diqqət yetirək. “Freedom House” indiki hesabatını 2024-cü il ərzində 3-cü dəfə təkrarən yayıb. 2024-cü il aprelin 10-da, 2024-cü il iyulun 2-də və 2024-cü il noyabrın 11-də yayımlanmış hesabatın mətnini yanaşı qoyub müqayisə etsək, görərik ki, nöqtə-vergülünə toxunmadan yayılmış təkrar hesabatdır. Görünən budur ki, məğlubiyyətlərini həzm edə, eyni zamanda, tənqid üçün tezis də tapa bilmirlər.

COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# “Yaşıl” keçid qlobal ekoloji böhrandan xilas yoludur

**Bu gün Azərbaycanın bütün dünyaya bəlli olan “yaşıl” gündəliyi, əslində, COP29-a respublikamızın evsahibliyi etmək qərarı veriləndən xeyli əvvəl icra olunmağa başlanıb. Son illərdə xarici tərəfdaşlar və sərmayədarlarla “yaşıl” keçid üzrə nəhəng layihələrə start verilib. 2024-cü il ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib.**

Prezident İlham Əliyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin açılış mərasimindəki çıxışında da bu barədə ətraflı bəhs edib. Dövlət başçısı Azərbaycanın “yaşıl” gündəliyi haqqında danışarkən respublikamızın bərpaolunan enerjidə texniki potensialının quruda 135 giqavat, dənizdə isə 157 giqavat təşkil etdiyini, ötən il BƏƏ-nin Masdar şirkətinin 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını gerçəkləşdirdiyini, Səudiyyə Ərəbistanının isə “Acwa Power” şirkətinin isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikdiyini diqqətə çatdırıb.

Azərbaycan lideri daha sonra deyib: “COP29 çərçivəsində Birləşmiş Krallığın BP şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcək”.

Yeri gəlmişkən, noyabrın 12-də COP29 çərçivəsində Cəbrayıl rayonunda 240 meqavat gücündə “Şəfəq” Günəş Elektrik Stansiyasının (GES) təməlqoyma mərasimi keçirilib. Bununla da layihə fəal tikinti mərhələsinə qədəm qoyub. Energetika Nazirliyinin məlumatına əsasən, adıçəkilən GES işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ilk sənayemiqyaslı günəş enerjisi və ən böyük birbaşa xarici investisiya layihəsidir. Stansiyanın layihəsi ilə bağlı icra müqaviləsi 2021-ci il iyunun 3-də Energetika Nazirliyi ilə BP şirkəti arasında imzalanıb.

Təməlqoyma mərasimində layihə üzrə “Azərbaycan Respublikası Hökuməti ilə “Şəfəq (Cəbrayıl) Solar Limited” şirkəti arasında investisiya müqaviləsi və “Azərbaycan Respublikası Energetika Nazirliyi ilə “Şəfəq (Cəbrayıl) Solar Limited” şirkəti arasında torpaq icarəsi müqaviləsi” imzalanıb. Sonra rəmzi olaraq stansiyanın ilk günəş panelinə imza atılıb.

Qeyd edək ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl rayonunda inşa olunacaq “Şəfəq” GES-də il ərzində, təxminən, 500 milyon kilovat-saat elektrik enerjisi istehsalı gözlənilir ki, bu da illik 120–150 milyon kubmetr təbii qaza qənaət etmək və 260-330 min ton karbon emissiyasının azaldılması deməkdir.

Virtual enerji ötürülməsi mexanizmi çərçivəsində stansiyada istehsal olunacaq enerji Cəbrayılda mövcud elektrik şəbəkəsinə ötürüləcək və eyni miqdarda enerji Səngəçal terminalına yönəldiləcək. Bununla da terminalın enerji ehtiyaclarını qarşılamaq üçün bərpaolunan enerjidən istifadə ediləcək. Bu da BP-nin Xəzər regionunda əməliyyat tullantılarının azaldılmasına dəstək verəcək. Eyni zamanda, adıçəkilən GES-in fəaliyyətə başlaması ilə şirkətin regiondakı əməliyyatlarında ümumi emissiyaları 11 faiz azalacaq.

Mütəxəssislərin fikrincə, inteqrasiya layihəsi olan “Şəfəq” GES elektrik enerjisi hasil etmək üçün Səngəçal terminalında qazdan istifadəni azaltmağı şərtləndirəcək, eyni zamanda, həm milli iqtisadiyyata, həm də konsorsium üzvlərinin, o cümlədən SOCAR-ın dekarbonizasiya səylərinə mühüm töhfə verəcək.

Beləliklə, gələn ilin sonunda istismara verilməsi nəzərdə tutulan “Şəfəq” GES postsovet məkanında ilk ən böyük günəş elektrik qurğusu kimi tarixə düşəcək və Xəzərin coğrafi məkanında ən böyük, eləcə də dünya üzrə ilk beşliyə daxil olan Səngəçal terminalının elektrik təchizatı tam olaraq “yaşıl” enerji hesabına ödəniləcək.

Onu da xatırladaq ki, səhmdarları BP, SOCAR və Azərbaycan İnvestisiya Şirkəti olan bu layihəyə, təxminən, 200 milyon ABŞ dolları məbləğində investisiya yatırılacaq. Stansiya Cəbrayıl şəhərindən 5–10 kilometr məsafədə, təxminən, 802 hektarlıq ərazini əhatə edəcək. Layihə çərçivəsində tikinti işləri, təqribən, 18 ayadək davam edəcək.

Beləliklə, “Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında” Prezident İlham Əliyevin 2019-cu ildə imzaladığı Sərəncama uyğun olaraq, bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi məqsədilə 9 beynəlxalq enerji şirkəti ilə əməkdaşlıq əlaqələri yaradılaraq intensiv müzakirələr aparılıb. Ərəb ölkələrinə məxsus “ACWA Power” və “Masdar” şirkətləri təkliflərini təqdim edən 7 şirkət arasında 3 mərhələdən ibarət seçim prosesi nəticəsində müəyyənləşdirilib. Günəş və külək enerjisi stansiyalarının tikintisinin investisiya təminatını bütünlüklə ərəb şirkətlərinin həyata keçirəcəyi qərara alınıb.

Mütəxəssislərin hesablamalarına görə, Səudiyyə Ərəbistanın “ACWA Power” və Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətləri ilə imzalanan müqavilələrin– ilk dəfə xarici sərmayə əsaslı belə layihələrin həyata keçirilməsi nəticəsində il ərzində 330 milyon kubmetr qaza qənaət ediləcək, atmosferə 600 min tondan artıq CO2 emissiyasının atılmasının qarşısı alınacaq, habelə yüzlərlə yeni iş yerləri yaradılacaq.



Avstraliyanın “Fortescue Future Industries” şirkəti də Azərbaycanla “yaşıl” enerji sahəsində yaxından əməkdaşlıq etməkdə maraqlıdır. Azərbaycanın bərpaolunan enerji sahəsində yüksək potensialı qitə ölkənin şirkətini belə bir qənaətə gəlməyə vadar edib. Belə ki, adıçəkilən şirkət Azərbaycanın elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilədək 30 faizə çatdırmaq və Avropaya “yaşıl enerji” nəql etmək niyyətindən yaxşı xəbərdardır. Bu səbəbdən də Avstraliya şirkəti həm Avropaya “yaşıl enerji”nin nəqli yolları, həm də respublikamızda dekarbonizasiya üçün bərpaolunan enerjinin istifadəsində maraqlıdır.

“Fortescue Future Industries” şirkəti bərpaolunan enerji mənbələri və ekoloji təmiz hidrogen istehsalı ilə əlaqədar potensial layihələrin reallaşdırılması məqsədilə ən uyğun yeri müəyyənləşdirmək üçün qarşıdakı müddətdə Azərbaycan hökuməti ilə sıx əməkdaşlıq edəcək.

Şirkətin yaydığı məlumata əsasən, Azərbaycanın mövcud boru kəmərləri ilə Avropaya “yaşıl” enerjinin nəqli üçün ideal coğrafi mövqeyi və birləşdirici kabelləri var. Hazırda bütün bu imkanların Azərbaycanla Avropa İttifaqı arasında müzakirəsi davam edir.

Prezident İlham Əliyev 29-cu iqlim sessiyasının Liderlər Sammitinin açılış mərasimindəki çıxışında “yaşıl” enerjinin ixrac bazarlarının yaradılması barədə də fikirlərini diqqətə çatdırıb. Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal iş aparıldığını bildirən dövlətimizin başçısı qeyd edib ki, bu, Avropaya “yaşıl” enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı 4 giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır.

Bu, xarici dövlətlərin ölkəmizin bərpaolunan eneji potensialına marağının getdikcə artmasından xəbər verir. Yeri gəlmişkən, 2022-ci il dekabrın 17-də Buxarest şəhərində imzalanmış “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” də bunun bariz ifadəsi kimi xüsusi diqqət çəkir. Qeyd edilən sənəd “yaşıl” enerjinin ötürülməsi ilə bağlı Azərbaycanın bu istiqamətdə atdığı uğurlu addımlardan biri olaraq dəyərləndirilir.

Hökumətlərarası həmin saziş Azərbaycan və Rumıniya arasında “yaşıl” enerjinin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi layihəsinin reallaşdırılmasını nəzərdə tutur. Bu kabellə ötürülən elektrik enerjisinin daha sonra Macarıstana və Avropaya nəqletmə sistemi vasitəsilə qitənin qalan hissəsinə də nəqli planlaşdırılır.

Ümumiyyətlə, saziş 4 ölkənin–Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniyanın milli və regional enerji təhlükəsizliyinin və Qara dəniz hövzəsində əlaqələrin gücləndirilməsinə, enerji mənbələrinin şaxələndirilməsinə, Xəzər regionunun bərpaolunan enerji potensialının istifadəsinə, habelə dövlətlərin milli enerji istehlakında alternativ enerjinin payının artırılmasına dair maraqları nəzərə alınmaqla hazırlanıb.

Prezident İlham Əliyev yuxarıda haqqında bəhs edilən çıxışında “yaşıl” gündəliyimizin Azərbaycanın müxtəlif bölgələrini əhatə etdiyini, Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionlarının “yaşıl” enerji zonaları elan olunduğunu və bunun, ərazimizin, demək olar ki, dörddəbir hissəsini təşkil etdiyini diqqətə çatdırıb.

Bütün bunlar bir daha onu göstərir ki, Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, respublikamızın iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün bütün bərpaedilən enerji mənbələrinin potensialı 27 min MVt, o cümlədən külək enerjisi üzrə 3 min MVt, günəş enerjisi üzrə 23 min MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir.

Xəzər ofşor külək enerjisi baxımından böyük potensialı ilə diqqət çəkir. Dənizin təkcə Azərbaycan sektorunda 157 min meqavat səviyyəsində enerji olduğu proqnozlaşdırılır. Bu, respublikamızdakı elektrik stansiyalarının ümumi gücündən 20 dəfə çoxdur.

Onu da qeyd edək ki, Azərbaycan 2030-cu ilədək enerji balansında bərpaolunan enerji payının 30 faizə yüksəldilməsini qarşıya mühüm vəzifə kimi qoyur. Bu, ölkəmizdə enerji təhlükəsizliyinin və dayanıqlı iqtisadi inkişafın gücləndirilməsi, habelə ekoloji vəziyyətinin yaxşılaşdırılması baxımından olduqca mühüm önəm daşıyır.

# COP29 dünya mediasının baş mövzusudur

**Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Lliderlər Sammitinin açılış mərasimi və Prezident Rəcəb Tayyib Ərdoğanın qlobal müzakirələrdə iştirakı Türkiyə mediasında mərkəzi mövzulardan biri olaraq qalır. Türkiyədəki telekanalların, qəzetlərin və xəbər qaynaqlarının gündəmi məhz bu məsələlərə həsr olunub.**

## “Haber Global”




Qardaş ölkənin media resursları Azərbaycan Prezidenti İlham Əliyevin COP29-un Liderlər Sammitinin açılışındakı nitqi barədə ictimaiyyətə məlumat verib, sammitin gündəliyindən və Türkiyə Respublikasının liderinin səfər proqramından danışıb. “HaberGlobal” telekanalı tamaşaçıların diqqətini COP29 ilə bağlı Azərbaycana qarşı aparılan dezinformasiya və yalan kampaniyasına cəlb edib.

Telekanal Prezident İlham Əliyevin Azərbaycan iqlim sammitinin təşkilatçısı seçilən kimi respublikaya qarşı mütəşəkkil və razılaşdırılmış böhtan kampaniyasına başlanılması barədə fikirlərini efirə verib.

Azərbaycanın dövlət başçısı deyib ki, özlərini müstəqil adlandıran bəzi QHT-lər və siyasətçilər sanki Azərbaycan haqqında daha çox yalan və dezinformasiya yaymaq üçün bir-biri ilə rəqabət aparırlar.

Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərinin bərpası istiqamətində göstərdiyi səylərə, o cümlədən respublikanın bu hissəsində “yaşıl” layihələrin həyata keçirilməsinə də diqqət yönəldilib. Tamaşaçılara ölkəmizin iştirakı ilə həyata keçirilən, Avrasiyada enerji və nəqliyyat marşrutlarını dəyişdirən meqalayihələr barədə məlumat verilib.

Qardaş ölkənin media strukturları Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın COP29 çərçivəsində proqramından danışıb, onun Bakıda keçiriləcək iqlim sammitində planlaşdırılan çıxışı barədə məlumat veriblər.

Qlobal müzakirələrin davam etdiyi Bakı Olimpiya Stadionunun ərazisində Türkiyə dövlətinin başçısının tədbirlərdə iştirakını əks etdirən şəkillər və videogörüntülər yayımlanıb.

Türkiyənin ekoloji sahədəki səylərinin uğurlu nümunəsi kimi Türkiyə liderinin xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə həyata keçirilən “Sıfır Tullantı” təşəbbüsündən də bəhs edilib.

## “Əş-Şərq Əl-Ausət”



Səudiyyə Ərəbistanının Londonda nəşr olunan “Əş-Şərq Əl-Ausət” qəzetində “COP29-un müəyyən edilmiş Prezidenti: Biz ədalətli iqlim ambisiyaları və davamlı maliyyələşdirməni hədəfləyirik... və Səudiyyə Ərəbistanının səylərini yüksək qiymətləndiririk” başlıqlı məqalə dərc olunub. Məqalədə vurğulanıb ki, COP29-un Prezidenti Muxtar Babayev ambisiyaları artırmaq, 1,5 dərəcə hədəfinə nail olmaq və iqlim dəyişmələrinə qarşı fəaliyyətə imkan yaratmaq üçün konfransın aydın baxışa malik olduğunu diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycan rəsmisi Səudiyyə Ərəbistanının kritik iqlim problemlərinin həllində səylərini yüksək qiymətləndirib.

Qeyd olunub ki, Azərbaycan noyabrın 22-dək davam edəcək COP29 konfransına evsahibliyi edir və burada əsas prioritet iqlimin maliyyələşdirilməsi üçün yeni hədəfin razılaşdırılması olacaq.

## “Ər-Riyad”



Səudiyyə Ərəbistanının nüfuzlu “Ər-Riyad” qəzeti isə oxucularını Almaniyanın xarici işlər naziri Annalena Berbokun açıqlamaları ilə tanış edib. Qəzetin “Dünya liderləri COP29 konfransında toplanırlar” başlıqlı məqaləsində BMT-nin illik iqlim konfransının inkişaf etməkdə olan ölkələrə istixana qazlarının emissiyalarını azaltmaq və iqlim dəyişikliyinə uyğunlaşmaq üçün yeni maliyyə yardımının hədəflənməsi ilə yekunlaşmalı olduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, yeni hədəf 2009-cu ildə qarşıya qoyulan və 2022-ci ildə çətinliklə reallaşdırılan yüz milyard dollarlıq hədəfi əvəz edəcək.

Məqalədə Bakıda qəbul ediləcək qərarların iqlim dəyişikliyi ilə mübarizəyə və 1.5°C həddinə riayət olunmasına əhəmiyyətli dərəcədə təsir göstərə biləcəyi bildirilib. Qeyd olunub ki, Almaniyanın xarici işlər naziri Annalena Berbok qlobal istiləşmə nəticəsində yaranan ciddi təhlükələr barədə xəbərdarlıq edib.




# Torpaq və su bəşəri əmanətdir

## *Onların saflığı və sərvətləri hamılıqla qorunmalıdır*

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində “Karbonsuzlaşdırma, qida sistemlərinin uyğunlaşdırılması və təbiətin bərpası 1.5°C yolunda” mövzusunda Birləşmiş Ərəb Əmirliklərinin iqlim dəyişikliyi və ətraf mühit naziri Amna Al Dahakın və Dünya Resursları İnstitutunun baş direktoru Ani Dasguptanın moderatorluq etdiyi müzakirələrdə torpaq və su resurslarından düzgün istifadənin iqlim dəyişikliyi ilə mübarizədə əsas amillərdən biri olduğu vurğulanıb.**

Müzakirələrdə çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov iqlimə dayanıqlı kənd təsərrüfatının inkişaf etdirilməsi və qida sistemlərinin transformasiyasına dair Azərbaycan hökumətinin təşəbbüsləri barədə iştirakçılara məlumat verib. İqlim dəyişikliyinin aqrar sektorada mənfi təsir etdiyini bildirən nazir su resurslarının azlığı, torpaqların şoranlaşması problemlərinin aradan qaldırılması üçün icra olunan dayanıqlı kənd təsərrüfatı, su idarəçiliyi və iqlimə uyğunlaşma strategiyaları barədə danışıb.

İştirakçıları Fermerlər üçün Bakı Harmoniya İqlim Təşəbbüsü haqqında məlumatlandıran nazir Məcnun Məmmədov bildirib ki, bu təşəbbüs qlobal tərəfdaşları bir araya gətirməklə, iqlimə müsbət təsir göstərən qida sistemləri üzrə investisiyaların təşviqi, xüsusilə qadınlar və gənclər üçün daha güclü dəstəyin təmin olunması məqsədi daşıyır.

Azərbaycanın kənd təsərrüfatı sektorunun iqlimə dayanıqlı inkişafında qlobal əməkdaşlığın əhəmiyyətini önə çəkən nazir qeyd edib ki, ölkəmiz beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edərək, dayanıqlı kənd təsərrüfatı praktikasının inkişafı və iqlimə dayanıqlı gələcəyin təmin olunması prinsiplərinə sadiq qalır.

Tədbir iştirakçıları qida sistemlərinin transformasiyası, iqlim dəyişikliyinin aqrar sahəyə təsirini azaltmaq və məhsuldarlığı artırmaq üçün innovativ modellər və siyasətlər, karbonsuzlaşdırma və təbiətin bərpası, torpaq istifadəsində dayanıqlı keçidlərə nail olmaq üçün strategiyalar, dayanıqlı torpaq istifadəsinin maliyyələşdirilməsi, kənd təsərrüfatı və qida sistemlərinin transformasiyası üçün maliyyə modelləri və digər aktual mövzular ətrafında fikir mübadiləsi aparıblar.

Qeyd olunub ki, COP29 çərçivəsində keçirilən bu tədbir ərzaq təhlükəsizliyi, dayanıqlılıq və təbiətin qorunması sahələrində ölkələr arasında əməkdaşlığın genişləndirilməsi və iqlim dəyişikliklərinə qarşı qlobal tədbirlərin təşviqi baxımından müsbət nəticələrə səbəb olacaq.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# İtki və Zərərlərə Cavab Fondu işlək duruma çatıb

**Azərbaycanın evsahibliyi etdiyi COP29 beynəlxalq iqlim konfransı çərçivəsində “Öhdəliklərdən fəaliyyətə: İtki və Zərərlərə Cavab Fondunun fəaliyyətinin optimallaşdırılması” mövzusunda tədbir keçirilib. Tədbir iştirakçıları iqlim dəyişikliyinin nəticələri ilə bağlı ölkələrə maliyyə və texniki dəstək göstərilməsi, itki və zərərlərin qarşısının alınması üçün yeni strategiyaların tətbiqi məsələlərini gündəmə gətiriblər.**




Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev çıxışında bildirib ki, itki və zərərlərin qarşısının alınması üçün müvafiq rəhbərlik il ərzində intensiv şəkildə işləyərək böyük irəliləyişlər əldə edib: “Şirkətin bu məsələyə göstərdiyi sadiqliyi və qərar qəbuletmə prosesini yüksək qiymətləndiririk. Bu gün yekun olaraq deyə bilərik ki, İtki və Zərərlərə Cavab Fondu artıq maliyyə vəsaitlərini paylamağa hazırdır”.

M.Babayev diqqətə çatdırıb ki, bu irəliləyişlər vədləri real dəstəyə çevirməyə imkan verir: “Bu, o deməkdir ki, maliyyə vəsaitləri 2025-ci ildə axın etməyə başlayacaq. Bu, həssas icmalar üçün vacibdir. Bu irəliləyiş fondun və dünya birliyinin qərarlı səylərinin nəticəsidir. Bunun real nəticələri də olacaq: evlər tikiləcək, insanlar yenidən yerləşdiriləcək, həyat və gələcək təhlükəsiz olacaq. Lakin missiyamız hələ tamamlanmayıb. İndi layihələri müəyyənləşdirməli və dəstək axınını davam etdirməliyik”.

Müzakirədə digər çıxış edənlər də iqlim dəyişikliyinin qarşısının alınması, itki və zərərlərə qarşı mübarizənin vacibliyini vurğulayıblar. Onlar, həmçinin maliyyə dəstəyinin ölkələr arasında daha da gücləndirilməsinin əhəmiyyətini qeyd ediblər. Bununla yanaşı, hər bir ölkənin öz milli strategiyasını tətbiq edərkən beynəlxalq təcrübə və dəstəkdən faydalanmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Sonda iştirakçılar iqlim dəyişikliyi ilə mübarizədə daha güclü və davamlı əməkdaşlıq üçün birgə addımlar atmağın vacibliyini qeyd edib, bu prosesdə Azərbaycanın liderliyini və müsbət yanaşmalarını alqışlayıblar. Bunun gələcəkdə daha effektiv və ədalətli həllərin tapılmasına və qlobal iqlim siyasətinin daha müasir olmasına töhfə verəcəyi əminliyini diqqətə çatdırıblar.

# Aviasiyanın təmiz enerji axtarışı

**Noyabrın 20-də COP29-un Urbanizasiya, Nəqliyyat və Turizm Günü çərçivəsində “Beynəlxalq aviasiya və iqlim dəyişikliyi” mövzusunda yüksəksəviyyəli panel müzakirəsi keçiriləcək. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Səudiyyə Ərəbistanı Krallığının Energetika Nazirliyi və Beynəlxalq Mülki Aviasiya Təşkilatının birgə təşkilatçılığı ilə keçiriləcək tədbirdə nazirlər, hökumət rəsmiləri, sənaye liderləri və maraqlı tərəflər beynəlxalq aviasiyanın dekarbonizasiyası sahəsində son nailiyyətlərlə bağlı önəmli dialoqa qatılmaq üçün bir araya gətirəcək. Panel müzakirəsi Beynəlxalq Mülki Aviasiya Təşkilatının 2050-ci ilə qədər beynəlxalq aviasiya üçün “xalis sıfır” (net zero) karbon emissiyasına nail olmaq məqsədini özündə ehtiva edir.

Xatırladaq ki, beynəlxalq aviasiya sektoru ümumi qlobal CO2 emissiyalarının, təxminən, 2 faizini təşkil edir. Bu, digər sektorlarla müqayisədə nisbətən az olsa da, yaxın gələcəkdə həmin göstəricinin artacağı proqnozlaşdırılır. Ekspertlər isə hesab edirlər ki, hava nəqliyyatına tələbatın yüksəldiyi indiki şəraitdə bu emissiyaların azaldılması üçün güclü və qabaqlayıcı tədbirlər görülməlidir. Əks təqdirdə emissiyaların əhəmiyyətli dərəcədə artacağı gözlənilir.




Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına görə, aviasiya sektorunda yaxın gələcəkdə maye yanacağa etibarlı alternativin tapılması mümkün deyil. Buna görə də beynəlxalq aviasiya üzrə uzunmüddətli qlobal hədəflərə nail olmaq üçün davamlı aviasiya yanacağının, aşağı karbonlu aviasiya yanacağının, eləcə də digər təmiz enerji mənbələrinin inkişafı və tətbiqinin qlobal miqyasını sürətləndirmək üçün təcili qlobal tədbirlərin görülməsinə ehtiyac var.

# Bayden administrasiyasının ekoloji töhfəsi

**ABŞ Prezidenti Cozef Baydenin administrasiyası Donald Trampın iqtidara gəlməsindən öncə iqlim dəyişikliyi ilə mübarizə layihələri üçün sərəncamda qalan bütün vəsaitləri bölüşdürməyi planlaşdırır.**



ABŞ Prezidentinin ekoinnovasiya və “yaşıl” enerjinin tətbiqi üzrə baş müşaviri Con Podesta Bakıda keçirilən COP29 iqlim sammitində bu vəsaitlərin bölüşdürülməsindən danışarkən jurnalistlərə bildirib ki, Bayden administrasiyası 2022-ci ildə qəbul edilmiş İnflyasiyanın Azaldılması Qanunu çərçivəsində bütün öhdəliklərini yerinə yetirmək niyyətindədir. Bu qanun digər məsələlərlə yanaşı, federal hakimiyyət orqanlarının ABŞ-ya iqlim dəyişikliyi ilə mübarizə üçün vəsaitlərin ayrılmasını nəzərdə tutur.

ABŞ-ın CNN telekanalının internet səhifəsində bununla bağlı yayılan məlumatda qeyd edilib ki, vəsaitin əsas hissəsi artıq xərclənib. Telekanalın hesablamalarına görə, Bayden administrasiyası əvvəllər İnflyasiyanın Azaldılması Qanunu çərçivəsində iqlim üçün bütün vəsaitlərin, təxminən, 103 milyard dollarını (92 faiz) artıq bölüşdürüb.

# ABB-nin iqlim dəyişikliyi hesabatı

**Azərbaycan Beynəlxalq Bankının yaydığı “İqlim dəyişikliyinin təsirləri və nəticələri” adlı hesabatda istiləşmənin əsas səbəbləri, onun qlobal və yerli səviyyədəki təsirləri barədə ətraflı məlumat verilib.**

İqlim dəyişikliklərinin müxtəlif aspektləri, o cümlədən su resursları, atmosfer çirklənməsi və s. istiqamətlər üzrə geniş təhlillər aparılan sənəddə respublikamızda quraqlıq riskinin artması və şirin su ehtiyatlarının azalması, eyni zamanda, son onilliklərdə ölkədə atmosferə buraxılan çirkləndirici maddələrdə azalmanın nəzərə çarpması diqqətə çatdırılıb. Bununla bağlı müqayisəli göstəricilər təqdim olunub.

Hesabatda iqlim dəyişikliyinin Azərbaycan iqtisadiyyatında oynadığı mənfi rol geniş təhlil edilib. Araşdırmada iqlim dəyişikliyinin qlobal iqtisadiyyata təsirləri, inkişaf etməkdə olan ölkələrə iqlim maliyyəsi axını, enerji transformasiyası və s. bu kimi məsələlərlə bağlı da zəngin məlumatlar, eləcə də iqlim dəyişikliyinin bank sektoruna təsirləri ilə əlaqədar informasiyalar da yer alıb.




Maraqlı tərəflər üçün faydalı olan bu cür araşdırma – hesabatların hazırlanması bir çox xarici bankların geniş istifadə etdiyi təcrübədir. Azərbaycanda bu təcrübəni ilk dəfə Azərbaycan Beynəlxalq Bankı tətbiq edib.

# Təhlükəsiz gələcəyin hədəfi

**COP29-un İqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai jurnalistlərə açıqlamasında bildirib ki, dünyanın müxtəlif ölkələrindən olan gənclərin bu tədbirə həvəslə qoşulması bizi çox sevindirir. Gənclərin iqlim konfransı çərçivəsində keçiriləcək tədbirlərdə və qərarların qəbul edilməsində fəal iştirakına böyük ümid bəslənilir.**

O deyib: “Biz dünyada iqlim dəyişikliyinə qarşı mübarizədən və gələcəyimizdən danışırıq. Daha sağlam, təhlükəsiz və daha xoşbəxt gələcək qurmaq barədə düşüncələrimizi bölüşürük. Bu,hamımızın istəyidir. Bu istəyin gerçəkləşməsi iqlim konfransında birlikdə verəcəyimiz qərarlardan asılıdır. İqlim dəyişikliyi ilə üzləşdiyimiz və süni intellektin həyatımızın bir hissəsinə çevrildiyi indiki dönəmdə bütün bunlar bizə gələcəyimizi necə quracağımız barədə düşünməyi vadar edir”.



N.Arpadarainin sözlərinə görə, bugünkü təhsil sisteminin müasir əmək bazarının tələblərinə cavab verməsi ilə bağlı müəyyən narahatlıqlar bizim qarşımızda yeni çağırışlar qoyur. Gənclik gələcəyi istədiyi kimi qurmalı, səsinin eşidilməsi naminə daha fəal və əzmkar olmalıdır. Ona görə də COP29 Sədrliyi bu gün gənclərə və onların fəal iştirakına, çağırışlarının eşidilməsinə daha çox diqqət yetirir.

# Narahat dünyanın “yaşıl” nəbzi Azərbaycanda

**Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Auld mediaya bildirib ki, nüfuzlu beynəlxalq konfrans olan COP29 işə başlayır. Bütün dünyanın ürəyi Bakıda döyünür. Bakıya gələn Britaniya hökuməti nümayəndə heyətinin də missiyası aydındır: Bu gün və gələcəkdə hamı üçün yaşanıla və sevilə bilən planetin qorunmasıdır.**



Səfirin sözlərinə görə, iqlim dəyişikliyi qida və su qıtlığı, xəstəlik, münaqişə, qeyri-sabitlik, iqtisadi sarsıntılar və insanların yerdəyişməsi ehtimalını artırır. Həmin təsirlər artıq hiss olunmaqdadır və qeyri-mütənasibdir. Bu da marjinal, təcrid olunmuş icmalara, yoxsulluğa, dayanıqlılığa təsir edir. Çağırışımız kollektiv fəaliyyətin razılaşdırılması ilə bağlıdır. Çünki bizim kollektiv təhlükəsizliyimiz və rifahımız bundan asılıdır. Hər kəsin səsi bütün qlobal məsələlərdə önəmlidir.

F.Auld qeyd edib ki, COP gənclərin rolunun ən vacib olduğu iqlim tədbiridir. Hökumətlərin gənclərin səsini dinləməsi və ona uyğun hərəkət etməsi vacibdir.

# İqlim savaşı ölkələri ortaq mövqeyə gətirir

**Britaniyanın enerji təhlükəsizliyi və sıfır emissiya naziri Ed Milibend iqlim dəyişikliyinin qarşısını almaq üçün dünya liderlərinin birgə fəaliyyət göstərməli olduğunu deyib.**



Britaniyalı nazir bununla bağlı özünün “X” sosial şəbəkə hesabında paylaşım edib. Nazir bildirib ki, COP29 zirvəsi ilk dəfə dünya liderlərini iqlim dəyişikliyi ilə bağlı hərəkətə keçirmək üçün bir fürsətdir və Birləşmiş Krallıq bu məsələdə həm daxili, həm də beynəlxalq səviyyədə fəal liderlik nümayiş etdirir.

Ed Milibend əlavə edib ki, Britaniya hökuməti iqlim təhlükəsizliyini milli təhlükəsizlik məsələsi kimi görür və gələcək nəsilləri iqlim dəyişikliyinin təhlükəsindən qorumaq üçün beynəlxalq əməkdaşlığın vacibliyinə inanır. "Biz yalnız özümüz üçün deyil, həm də qlobal təhlükəsizliyimiz üçün hərəkət etməliyik. Buna görə də COP29-a qatılaraq bu məsələni dünya liderlərinin diqqətinə çatdırmaq niyyətindəyəm," – deyə Milibend vurğulayıb.

# Bakı “təmiz” inqilaba yol açır

*Panel müzakirəsində yeni çərçivə sazişinin vacibliyi vurğulanıb*

**Bakıda keçirilən beynəlxalq iqlim tədbirində “Hədəflərin əlaqələndirilməsi: həyata keçirilə bilən və investisiyaya hazır müəyyənləşdirilmiş milli töhfələr” mövzusunda panel diskussiya təşkil edilib.**



Müzakirədə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, BMT-nin İnkişaf Proqramı, Netto Sıfır uğrunda Qlazqo Maliyyə Alyansı, eləcə də Qazaxıstan, Almaniya və Filippin rəsmiləri çıxış ediblər. Qeyd olunub ki, müəyyənləşdirilmiş milli töhfələr 2015-ci il Paris İqlim Sazişi çərçivəsində qlobal istiləşmənin məhdudlaşdırılması məqsədilə dövlətlərin ətraf mühitin mühafizəsi ilə bağlı fərdi qaydada planlaşdırdıqları hədəflər diqqət mərkəzində saxlanmalı, onlar yeni iqlim çağırışlarına uyğunlaşdırılmalıdır. İclasda, həmçinin Paris Sazişinin hədəflərinə nail olmaq üçün uğurlu təcrübələrin bölüşülməsi, multilateral əməkdaşlığın gücləndirilməsi, milli qanunvericiliyin bu hədəflərin reallaşdırılması üçün uyğunlaşdırılması ilə bağlı fikirlər səsləndirilib, istixana qazlarının azaldılması səyləri üzrə inklüziv forum çərçivəsində iqtisadi analizlərin təhlili və hökumətlərin öhdəlikləri ətrafında müzakirələr aparılıb.

Müzakirələrdə emissiyaların məhdudlaşdırılması, “yaşıl” texnologiyaların dəstəklənməsi və innovativ infrastrukturların inkişafı naminə iqlim maliyyəsi ilə bağlı yeni çərçivə razılaşmasının vacibliyini vurğulanıb.

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# "COP sədrlikləri Üçlüyü"nün gələcəyə Yol xəritəsi

## *Hədəf 2030-cu ilədək emissiyaları 43 faiz azaltmaqdır*

**Noyabrın 13-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "COP sədrlikləri Üçlüyünün yüksəksəviyyəli dialoqu: Ortaq rifahın gələcəyinə doğru Missiya 1,5 üçün Yol Xəritəmiz" mövzusunda müzakirə keçirilib.**



COP29-un baş spikeri Yalçın Rəfiyev Birləşmiş Ərəb Əmirliklərinə və Braziliyaya COP29 çərçivəsində apardıqları ardıcıl əməkdaşlığa görə təşəkkürünü bildirib.

O qeyd edib ki, üçlük il ərzində ambisiyaların irəliləməsi, siyasi impulsun artırılması və problemlərin həlli istiqamətində aydın bir trayektoriya izləyərək səylə çalışıb: "Bu il Kopenhagendə "Üçlük"nın rəsmi təqdimatı oldu və biz bütün tərəfləri iqlim fəaliyyətinin bütün sütunlarını, xüsusən də təsirlərin yumşaldılması və ədalətli keçid, uyğunlaşmaya inandırdıq. Müəyyənləşdirilmiş Milli Töhfələrə güclü diqqət ayrıldı", – deyə Yalçın Rəfiyev bildirib.

Daha sonra COP29-un Prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin tədbir iştirakçılarına müraciəti oxunub.

Müraciətdə Muxtar Babayev güclü tərəfdaşlığa görə Birləşmiş Ərəb Əmirliklərinə və Braziliyaya minnətdarlığını bildirib: "COP29-a sədrliyi qəbul etmək Azərbaycan üçün həm imkan, həm də məsuliyyətdir. Biz 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişik və bu, qlobal çağırışların yalnız kollektiv səy və qarşılıqlı dəstək nəticəsində aradan qaldırıla biləcəyinə inamımızı göstərir. Bizim əsas strateji fəaliyyətlərimizdən biri Müəyyənləşdirilmiş Milli Töhfələrin (MMT) icrasını sürətləndirməkdir. Öz MMT-lərinin işlənib hazırlanmasında və həyata keçirilməsində xüsusən də imkanları məhdud olan ölkələrə dəstək vermək çox vacibdir. Məqsədimiz qlobal istiləşmənin 1,5 dərəcə Selsi ilə məhdudlaşdırılması hədəfinə nail olmaqdır", – deyə COP29 Prezidenti bildirib.

Braziliyanın ətraf mühit və iqlim dəyişmələri naziri Marina Silva 400 milyon tondan çox karbon emissiyasının qarşısını aldıqlarını bildirib və qeyd edib ki, bu da bir çox ölkələrin illik emissiyasından daha böyükdür. "Məqsədimiz birlikdə həll yollarını müəyyən etmək və COP30-a doğru fəaliyyətimizi gücləndirməkdir."

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil Dubaydan BƏƏ konsensusunda öz əksini tapmış Qlobal Baxışa dair çox aydın təlimatla ayrıldığını bildirib.

COP28-in baş icraçı direktoru Adnan Amin gözləntilərinin Paris məqsədlərinə uyğunlaşmaq üçün 2030-cu ilə qədər emissiyaları 43 faiz azaltmaq olduğunu qeyd edib. O bildirib ki, uyğunlaşma və dayanıqlılıq üzrə ardıcıl tədbirlər görülməlidir və bu, maliyyə ilə dəstəklənməlidir: "Dubayda ilk dəfə qəbul etdiyimiz BƏƏ konsensusu təsirlərin yumşaldılması üzrə konkret, hədəfyönümlü nəticəni özündə əks etdirib", – deyə COP28-in baş icraçı direktoru əlavə edib.

ABŞ Prezidentinin beynəlxalq iqlim siyasəti üzrə elçisinin müavini Sue Biniaz Braziliyaya 28-ci və 33-cü bəndlərə istinad edərək Qlobal Baxışın nəticəsini faydalı şəkildə təsdiq etdiyinə görə təşəkkür edib və qeyd edib ki, COP29-da həmin müddəalar daha da işlək vəziyyətə salınmalıdır: "Tərəflər 39-cu maddədə göstərilən Qlobal Baxışın tələblərini yerinə yetirməli və istixana qazları və 1,5 hədəfinə dair tələbləri əks etdirən Müəyyənləşdirilmiş Milli Töhfələri (MMT) təqdim etməlidir. 1,5 hədəfini saxlamaqdan daha vacib heç nə yoxdur. Biz, həmçinin inkişaf etməkdə olan ölkələrə və onların MMT-lərinin tərtibatına dəstək olmaq üçün tərəfdaşlığı yüksək qiymətləndiririk".

Macarıstanın İqlim Siyasəti üzrə Dövlət Katibinin müavini Daniyella Deli və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının administratoru Achim Steyner də çıxışlarında 1,5 hədəfinə nail olmaq üçün görüləcək işlərdən, Müəyyənləşdirilmiş Milli Töhfələrin icrasından, "Üçlük" sədrliyinin bu istiqamətdə aktiv səylərindən bəhs ediblər.

Qeyd edək ki, "Üçlük" ölkələrinə Birləşmiş Ərəb Əmirlikləri (COP28), Azərbaycan Respublikası (COP29) və Braziliya (COP30) aiddir.

**XQ**

# Qərbin riyakarlığı bir daha faş oldu

**Prezident İlham Əliyev noyabrın 12-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimindəki çıxışı zamanı bir sıra məsələlərə münasibət bildirdi. Dövlətimizin başçısı Azərbaycanı neft-qaz hasil etməsinə görə tənqid edən dairələrə də tutarlı cavab verdi.**

Prezident Azərbaycanın yaşıl gündəliyi haqqında fikirlərini bölüşdükdən, bərpaolunan enerjidə potensialımız barədə rəqəmləri səsləndirdikdən, Günəş, külək və hidroenerji stansiyalarının tikilməsinə dair bəzi planları açıqladıqdan sonra dedi: "İndi isə mən enerji təhlükəsizliyinin digər seqmenti haqqında bir neçə söz söyləmək istərdim. Bu da neft və qazla bağlıdır. Anlayıram ki, bu mövzu iqlim dəyişmələrinə aid konfransda o qədər də populyar deyil. Lakin bunsuz mənim şərhlərim tam olmazdı. Sadəcə, bir informasiya ilə başlamaq istərdim. Dünyada sənaye üsulu ilə ilk neft quyusu Azərbaycanda, Bakıda 1846-cı ildə qazılıb. O, buradan uzaq yerdə yerləşmir və həmin yerə 10–15 dəqiqəlik yoldur. Dənizdə ilk neft quyusu da Azərbaycan neftçiləri tərəfindən Xəzər dənizində XX əsrin ortalarında qazılmışdır. XIX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü".

Cənab İlham Əliyev bildirdi ki, əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. "Lakin əgər onlar indi, yəni bu gün də bizi neft dövləti adlandırırlarsa, bu, ədalətsizlikdir və yalnız siyasi mədəniyyət və biliklərin çatışmamasından xəbər verir. Bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır.

Yaxşı olardı ki, ən azı, onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik."

Dövlətimizin başçısı bildirdi ki, Qərbin yalan xəbər mediası, "müstəqil QHT-ləri" və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir.

Prezident qeyd etdi ki, ölkələrə qiymət başqa meyarlara görə verilməlidir. Məsələn, Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. Yaşıl gündəliyimizə gəldikdə, mən planlarımızı artıq təsvir etdim. Ölkələr öz xarici borcunu necə idarə edirlər? Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir.

Həqiqətən də, Azərbaycan COP29-un ölkəmizdə keçirilməsinə dair qərar verilən gündən qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrilib. Anti-Azərbaycançı qüvvələr iqlim dəyişmələri kimi bütün dünyanı təhdid edən bu tədbiri siyasiləşdirərək, onu ölkəmizə qarşı hücum üçün fürsətə çeviriblər. Onlar bu mötəbər tədbirdən istifadə edərək, ölkəmizin imicini ləkələməyə, nüfuzuna xələl gətirməyə çalışırlar. Hər gün ölkəmizlə bağlı beynəlxalq mediada qərəzli, sifarişli məqalələr dərc etdirir, bəyanatlar verir, müxtəlif təşəbbüslər irəli sürürlər.



Bu istiqamətdə fikirlərini XQ ilə bölüşən **Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov** bildirdi ki, biz bir sıra sistemli şəbəkələr tərəfindən ölkəmizə qarşı Qərbin bəzi media orqanlarında aparılan qarayaxma və böhtan kampaniyası ilə üz-üzəyik. Onun sözlərinə görə, bu kampaniyanın məqsədi bəllidir. Məqsəd Azərbaycanı olmazın məsələlərdə təqsirləndirmək, dünya ictimaiyyətinin gözündə ölkəmizi, eyni zamanda, COP29-u nüfuzdan salmaqdır. Onların əsas böhtanlarından biri də Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən qaynaqlanır. Amma nə dəyişdi? Dəyişən məsələlər yalnız bizim xeyrimizə oldu. Ölkəmiz özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Müstəqil siyasətimizi davam edir. Əlbəttə, bu, bir çoxlarına sərf etmir: "Hazırda Qərbdəki bəzi qruplar dünyanı istədikləri kimi idarə etmək istəyirlər. Onlar ayrı-ayrı dövlətlərdə, o cümlədən bəzi postsovet ölkələrində özləri üçün marionet liderləri hakimiyyətə gətirdilər. Nəticə etibarilə bu, həm bəzi ölkələrin xarici siyasətinin müxtəlif qruplar tərəfindən yönləndirilməsinə, həm də iqtisadiyyatlarının əllərindən alınmasına gətirib çıxarmaqdadır. Uzağa getmək lazım deyil. Rusiya–Ukrayna müharibəsinin nəticələrinə biz bir müddət sonra şahidlik edəcəyik. Bir müddət sonra bəzi ölkələrin ərazilərində kənd təsərrüfatına yararlı nəhəng ərazilərin kimlərsə tərəfindən icarəyə götürüldüyü, yaxud satın alındığı aşkara çıxacaq. Postsovet məkanının digər ölkələrində böyük korporasiyaların gizli şəkildə özləri üçün biznes şəbəkələri qurduqlarını da yaxşı bilirik. Azərbaycanda isə onların işləri alınmadığı üçün bir yolları qalırdı ki, bu da qarayaxma kampaniyasına start vermək və ölkəni ittiham etməkdir".



Politoloq dedi ki, əgər məsələ insan hüquqları və demokratiya ilə bağlıdırsa, bu mövzuda Qərbin bir çox ölkələrə, o cümlədən Yaxın Şərq dövlətlərinə sualları çox olmalı idi: "Bəs niyə yoxdur?! Əgər məsələ neft və qazdadırsa, biz görürük ki, neft-qaz hasil edən ölkələrdə bizdən əvvəl də COP tədbirləri keçirilib. Amma onlarla bağlı bircə tənqidi fikir səsləndirilməyib. Bir dəfə də deyilməyib ki, digər COP tədbirlərini keçirən ölkələr yaşıl gündəliyin müzakirəsində səmimi deyillər. Amma Azərbaycanla bağlı bunu deyirlər. Halbuki, Prezident İlham Əliyev çox əsaslı şəkildə bildirdi ki, əgər biz bu gün Azərbaycanın qlobal neft-qaz hasilatındakı roluna baxsaq, görərik ki, ölkəmiz qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Yəni bunlar kifayət qədər aşağı rəqəmlərdir. Bu rəqəmlərə əsaslanaraq Azərbaycanı neft-qaz ölkəsi adlandırmaq doğru deyil. Əlbəttə, Azərbaycan bir sıra ölkələrə neft-qaz ixrac edir. İki il əvvəl Bakı və Brüssel Avropa Komissiyasının təklifi ilə enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atıblar. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Ancaq Prezident İlham Əliyevin bildirdiyi kimi, əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrində-ki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib".

Z.Məmmədovun sözlərinə görə, 2022-ci ilin fevralında Rusiya–Ukrayna müharibəsi başlamış, geosiyasi vəziyyət dəyişmiş və Avropaya Azərbaycan mavi yanacağı lazım olmuşdu: "Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəlmişdi. Biz bu nümunədə də ikili standartların ölkəmizə qarşı necə istifadə olunduğunu aydın görürük. Deməli, Qərb özünə lazım olanda enerji resurslarının ixracının artırılmasını xahiş edir, vəziyyət nisbətən sabitləşəndə isə bu məsələni kampaniyaya çevirməyə başlayır. Hər halda Qərbin müxtəlif media orqanlarında ölkəmizə qarşı aparılan fəaliyyət, bizi müxtəlif sövdələşmələrdə ittiham etmələri, əlbəttə, təsadüfi deyil".

Bu kampaniyanın ölkəmizin imicinə təsir edib-etməməsinə gəldikdə isə müsahibimiz bildirdi ki, Bakıya gələn qonaqlar özləri hər bir məqama şahidlik edirlər. Bütün rəyi sorğulanlar deyirlər ki, Azərbaycan çox qonaqpərvər, inkişaf etmiş, sivil dövlətdir. COP29-da iştirak üçün gələnlər sübut edirlər ki, onlar qlobal çağırışlara cavab verilməsinə, qlobal problemlərin həllini tapmasına bundan sonra da məsuliyyətlə yanaşacaqlar. Planetimizin gələcək ekoloji vəziyyətinin necə olacağı COP29-da iştirak etməməyə çağıran media orqanlarının, ölkələrin, müxtəlif dairələrin heç vecinə də deyil. Məhz böyük ərazilərə malik, siyasi, hərbi və iqtisadi cəhətdən güclü dövlətlər ekologiyanın və ətraf mühitin çirklənməsində xüsusi rol oynayırlar. Hətta, bir-biri ilə razılığa gələ bilmirlər. Əlbəttə, onların əsas məqsədi daha da varlanmaqdır. Onlar dünyanın gələcəyini deyil, şəxsi mənfəətlərini və təmsil etdikləri dövlətlərin mənafeyini düşünürlər.

COP29 müstəvisində ölkəmizə qarşı qərəzin bir istiqaməti də dövlətlərin bir-biri ilə razılığa gələ bilməsinə imkan verməməkdir. Çalışırlar ki, ölkələr COP çərçivəsində qarşıya qoyulan məqsədlərə çatmasınlar və iqlim dəyişikliyinə qarşı sistemli mübarizə apara bilməsinlər. Amma COP29-da qərarlar qəbul edilməkdədir. Dünya ictimaiyyəti kimin kim olduğunu bir daha görməkdədir.

**Politoloq Ramiyə Məmmədova** isə bildirdi ki, COP29-un keçirilməsi üçün



evsahibliyi etmək istəyi Azərbaycan dövlətinin qlobal iqlim məsələlərinə, ətraf mühit problemlərinə diqqətlə yanaşdığının göstəricisidir. Onun sözlərinə görə, hazırlıq üçün cəmi 11 ay vaxtımızın olmasına baxmayaraq, Bakı tədbirin yüksək səviyyədə təşkilinə nail ola bilib: "Biz bu gün Qərbdəki bəzi dairələrə göstərdik ki, Azərbaycan güclü, eyni zamanda, məsuliyyətli dövlətdir. Ancaq ölkəmiz inkişaf etdikcə, bədxahlarımızın da sayı artır. Bizə qarşı hibrid mübarizə vasitələrindən istifadə edirlər. Dezinformasiyalar yayırlar, saxta təbliğatlar aparırlar. Əlbəttə, Azərbaycan neft-qaz hasil edir, amma bizi neft ölkəsi adlandırmaq doğru deyil. Hasil edilən neft-qaz isə bizim əleyhimizə işlər görən ölkələrin xahişi ilə onlara ixrac olunur. Avropa dövlətləri bu mənada Azərbaycan kimi ölkələrdən asılıdırlar".

Siyasi şərhçi qeyd etdi ki, Prezident İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasəti gözdən salmaq istəyən bu dairələr, əslində, ölkəmizə həsəd aparırlar. Həmin dövlətlər ölkəmizin uğurlarına qısqanclıqla yanaşır, xüsusilə ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etməyimizi bizə heç cür bağışlaya bilmirlər: "Prezident Liderlər Sammitinin açılış mərasimində bu barədə konkret danışdı. Zənnimcə, dövlətimizin başçısının bu çıxışı onlara layiqli cavab olacaq. Bu cavabın dünyanın diqqət mərkəzində olan tədbirdə verilməsi də mühüm əhəmiyyətə malikdir. Bu gün, necə deyərlər, sinələrinə döyən bəzi ölkələrin rəhbərləri Azərbaycanın gördüyü işləri qısqanclıqla qarşılayırlar."

*Səxavət HƏMİD*
**XQ**

# Kişik ada dövlətlərinin böyük ekoloji təhlükədən xilas yolları

*Sammitdə birgə səylərin zəruriliyi vurğulandı*




**İştirakçıların sayına və dövlətləri əhatə etməsinə görə haqlı olaraq BMT-nin ən böyük tədbiri hesab olunan COP29 uğurla davam edir. Konfransın Mavi zonası ötən günlərdə olduğu kimi, dünən də mühüm iqlim problemlərinin müzakirə məkanına çevrilmişdi. Müzakirələrdən biri çox vacib məsələyə həsr olunmuşdu. COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammiti keçirildi. Ali qonaqların çıxışlarını monitor qarşısında dinləyən çox sayda əcnəbilər vardı. Onların bəzilərinə yaxınlaşıb müzakirə olunan məsələ və ümumiyyətlə, COP29 barədə fikirlərini öyrəndik.**

Ada dövləti bir və ya bir neçə adada yerləşən dövlətdir. Bu gün dünyada 47 belə ölkə var. Dünya okeanlarında ekoloji vəziyyətin istənilən dəyişməsi adada onsuz da çətin olan həyatın kəskin şəkildə pisləşməsi deməkdir. Buna görə də BMT inkişaf etməkdə olan kiçik ada dövlətlərinin rifahı məsələsinə dönə-dönə müraciət edir. Artan təbii fəlakətlər, mərcan riflərinin ölümü və dəniz səviyyəsinin qalxması insanları yaşamaq üçün daha əlverişli yerlər axtarmağa vadar edir. Karib hövzəsi ölkələrində bəzən mövsümdə beş qasırğa olur. Bakıda müzakirə edilən bu mövzu buraya təşrif buyuran **Ninava İnu Pereyra Nunes Huni Kui** də narahat edir. O, COP29-dan gözləntilərinin böyük olduğunu bildirdi:



– İnsanın fəaliyyətinin təbiətə zərərini azaltmaq lazımdır. 2024-cü il də iqlim fəlakətlərinin artdığını göstərdi. Başa vurduğumuz bu ildə də rekord yağışlar və qasırğalar, yanğınlar və ölümcül quraqlıqlar gördük. Proqnozlar onu göstərir ki, iqlim dəyişikliyinin təsiri getdikcə artacaq və bu, hamımızı təcili qərarlar qəbul etməyə vadar edir. Mən istəyirəm ki, bu konfransın nəticələri ekoloji problemlərin həllini sürətləndirsin. Xüsusilə də COP29-dan sonra da kiçik ada dövlətlərinin ekoloji problemlərinin diqqət mərkəzində qalacağına ümid edirəm.

Bilirsiniz, iqlim dəyişikliyi və dəniz səviyyəsinin qalxması Sakit okean, Hind və Atlantik okeanlarına səpələnmiş kiçik ada dövlətlərinin inkişafı və hətta mövcudluğu üçün təhlükə yaradır. Beynəlxalq bazarlardan təcrid, məhdud resurslar, həddindən artıq əhali, həddindən artıq tullantı və sahillərin çirklənməsi bu ölkələrin iqtisadi inkişafı üçün ciddi problemlər yaradır. Mən təbiətlə harmoniyada yaşamağın tərəfdarıyam. Bu problemləri ancaq birlikdə həll edə bilərik.

**Honduraslı Andrei Calin Marcu müzakirə olunan mövzunun çox vacib olduğunu vurğuladı:**

– Bakıda belə bir mühüm məsələnin müzakirəsi ondan xəbər verir ki, dünya artıq bu problemin həll olunmasının zəruriliyini anlayır. Məlumdur ki, inkişaf etməkdə olan kiçik ada dövlətləri ətraf mühit və iqtisadi inkişaf baxımından dünyanın ən həssas ölkələri sırasındadır. Onların bir çoxu coğrafi cəhətdən təcrid olunmuş və təmiz su və dəniz məhsulları kimi məhdud təbii ehtiyatlardan tamamilə asılıdır. Çoxları mənfi təbii hadisələrə və dəniz səviyyəsinin qalxmasına səbəb olan iqlim dəyişikliyi ilə təhdid olunur.



Mənim ölkəmin şimal sahili Karib dənizi ilə həmsərhəddir və Sakit Okeana Fonseka körfəzindən keçir. Karib ölkələrinin əhalisinin təxminən 70 faizi sahil boyu yerləşən şəhər və kəndlərdə yaşayır. Bu insanların hamısı getdikcə tez-tez baş verən qasırğaların və ya digər təbii fəlakətlərin qurbanı olmaq riski altındadır. Mütəxəssislər də hesab edirlər ki, kiçik ada dövlətləri çətin ki, beynəlxalq ictimaiyyətin əməkdaşlığı və yardımı olmadan bütün bu problemləri həll edə bilsin. Bu mənada COP29 çərçivəsində mövzu ətrafında aparılan müzakirələrin problemin həlli istiqamətindəki səyləri gücləndirəcəyinə ümidləri artırır.

**Konfransda iştirak etmək üçün uzaq Mikroneziyadan gələn Lucille Apis Overrhoff da ada dövlətlərinin ciddi təhlükə ilə üzləşdiyini bildirdi:**



– Okeanlar sivilizasiyalar arasında birləşdirici əlaqədir. O həm də ticarət və coğrafi kəşflərin inkişafına töhfə verdi. Amma bu gün okeanlar həm də bizdən gücümüzü birləşdirməyi və planetdə ekoloji vəziyyətin pisləşməsinin qarşısını almağı tələb edir. İqlim sürətlə dəyişir, su səviyyəsi getdikcə qalxır və bu, bizim ada dövlətimiz üçün təhlükə yaradır. Orta hesabla qlobal dəniz səviyyəsi ildə 3,2 millimetr yüksəlir. Buna görə də, COP29-da bizim üçün ciddi nəticələr əldə ediləcəyinə ümid bəsləyirəm.

***Səbuhi MƏMMƏDOV,***
***Elşən AĞALAR (foto)***
***XQ***

# COP29-da "Vahid sağlamlıq" müzakirəsi



**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində "Səhiyyə və iqlim dəyişikliyi ilə bağlı yüksək səviyyəli paralel tədbir" adlı panel sessiya keçirilib.**

Panel sessiyada Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus, Birləşmiş Millətlər Təşkilatının 79-cu sessiyasının sədri Filemon Yanq, Azərbaycanın səhiyyə naziri Teymur Musayev və digər rəsmi şəxslər iştirak ediblər.

Tedros Adhanom Qebreyesus və Filemon Yanq çıxışlarında qlobal tədbirin yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdırıblar. Onlar ilk dəfə olaraq "Vahid sağlamlıq" yüksəksəviyyəli COP29-un dəyirmi masasının diqqət mərkəzində olacağını vurğulayıblar.

Azərbaycanın səhiyyə naziri Teymur Musayev qeyd edib ki, xəstəliklərin baş verməsini proqnozlaşdırmaq üçün erkən xəbərdarlıq sistemlərinin inkişafı və davamlı səhiyyə sistemlərinin qurulması iqlim dəyişikliyinin təsirlərini minimuma endirməsi mühüm əhəmiyyət kəsb edir.

Nazirin sözlərinə görə, sağlamlığın təşviqi milli səviyyədə sağlamlıqla bağlı Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq və daha güclü səhiyyə sistemlərinin qurulması üçün olduqca vacibdir. O deyib: "Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın məqsədlərindən biri də vətəndaşların sağlam həyat tərzinin təmin edilməsidir".

T.Musayev iqlim dəyişikliyinin təsirlərini minimuma endirə bilən davamlı səhiyyə sistemlərinin qurulması missiyasının uğurla başa çatacağına əminliyini bildirib. Həm TƏBİB-in, həm Səhiyyə Nazirliyinin tabeli tibb müəssisələri, həm də özəl xəstəxanalar olmaqla, 9 səhiyyə ocağının tibbi xidmət göstərməyə hazır olduğunu da diqqətə çatdırıb. Çıxışının sonunda 10 minlərlə qonağın şəhərimizə gəldiyini nəzərə alaraq, baş verə biləcək təcili hallarla əlaqədar müalicə tədbirləri ilə yanaşı, profilaktika istiqamətində də işlər görüldüyünü vurğulayıb.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Azərbaycan dünyanı təmiz gələcəyə səsləyir




**Bir neçə gündür on minlərlə əcnəbi qonaq COP29-da iştirak etmək üçün Azərbaycandadır. XQ-nin əməkdaşları şəhərimizdə qonaqların BMT tədbiri barədə və Azərbaycan haqqında fikirlərini öyrəniblər.**

Albaniyalı **Alteo Hysi** vurğuladı ki, Bakıya dünyanın hər yerindən çoxlu qonaqlar gəlib:



– Biz də 4 gündür buradayıq. Şəhərdə çox gözəl ab-hava var. Xalqınızın qonaqpərvərliyi, mehribanlığı sayəsində özümüzü yad hiss etmirik. Küçələrdə, parklar və xiyabanlarda təmizliyi xüsusi qeyd etmək istəyirəm. Şəhərdə yeni tikilən binaların arxitekturası da ürəkaçandır. Bakıda qədimliklə müasirliyin unikal vəhdəti heyranedicidir. İnsanların qayğıkeş olması xüsusilə diqqəti cəlb edir.

Tədbirlə bağlı deməliyəm ki, yüksək səviyyədə davam edir. COP29-a qatılan qonaqlar çox mühüm məsələləri müzakirə edirlər. Su qıtlığı ilə bağlı müzakirələr maraqlıdır. Ətraf mühitin qorunmasında fərd olaraq hamımız məsuliyyət daşıyırıq. Azərbaycandan dünyaya mühüm mesajlar verilir. Bu gün yer kürəsi çox narahatdır. Ümid edirik ki, COP29 bütün ölkələrin gələcəyinə böyük töhfə verəcək.

Pakistanlı **Shahidullah Kaiserslautern Duke** ölkəmizdə keçirilən COP29-un böyük önəmini qeyd etdi:



– Dünyada iqlimlə bağlı görülən işləri nəzərdən keçirmək böyük əhəmiyyət daşıyır. Mən biznesmenəm. Bina tikintisi üçün materialların satışı ilə məşğul oluram. Bu gün peşəmizdən asılı olmayaraq, hər birimiz planetimizin sağlam gələcəyi üçün çox narahatıq. İqlim dəyişikliyi bütün cəmiyyəti narahat edən məsələ olmalıdır.

Ümumiyyətlə, insanlar erkən yaşlardan iqlim dəyişikliyi ilə bağlı məlumatlandırılmalıdırlar. Şübhəsiz, bu işdə ailələr də mühüm rol oynayır. Bir qədər Azərbaycanın təbiəti ilə bağlı da danışmaq istəyirəm. Hava hazırda soyuq olsa da, çox təmizdir. Gözəl parklar, xiyabanlar salınıb. Xəzər dənizi ölkəniz üçün mühüm təbii sərvət hesab edilir. İnsanların təbiətə verdiyi yüksək dəyəri görmək xoşdur.

**Nhung Pham** Vyetnamdan 2 qızı ilə Bakıya gəlib. Paytaxt əsrarəngiz gözəlliyi ilə onları ovsunlayıb. Dedi ki, dənizkənarı bulvarda vaxt keçirməyi xoşlayırlar:



– İlk dəfədir ki, Bakıdayıq. Belə mötəbər tədbir zamanı burada olmaqdan məmnunuq. Şəhərdə çoxlu qonaq var. Cəmi 1 gündür ki, buradayıq. Sanki illərdir, Bakını tanıyırıq. Şəhər, insanları istiqanlıdır. Burada olduğumuz müddətdə insanların təbiətə, heyvanlara sevgisini hiss etdik. Yaşıllıqlar, gül-çiçək diqqətimizi cəlb etdi. Təbiətə sevgi dünyanı xilas edəcək. Elə COP29-un əsas məqsədi də budur. İnsanların təbiətə ziyan vurmasının qarşısı alınmalıdır. Azərbaycana belə bir mötəbər tədbirə yüksək səviyyədə ev sahibliyi etdiyi üçün minnətdarıq.

Banqladeşli **Hasan Zaman** da ilk dəfə Bakıya gəldiyini dedi:

– COP29-a görə buradayıq. COP29 gələcək nəsil üçün yaxşı başlanğıcdır.



Bizim üçün də yaxşı addımdır. "Yaşıl dünya"nın qorunması hər birimizin ümdə vəzifəsi olmalıdır. Bəzən insanlar təkcə ağac əkməklə işlərini bitmiş hesab edirlər. Ümumilikdə, təbiəti qorumalıyıq. Azərbaycanın iqlimi çox gözəldir. Bu günlərdə hava çox xoşumuza gəlir. Hərdən buludlu olsa da, çox zaman günəşlidir.

**Darya Artamonova** rəfiqələri ilə Novosibirskdən gəlib. Jurnalist olduğunu və səyahət etməyi xoşladığını bildirdi:

– Azərbaycanın son illər yüksək səviyyədə inkişafı ilə bağlı məlumatlı idik.



Belə bir nüfuzlu tədbir zamanı Bakıda olmaq bizə çox xoşdur. Doğrudan da, ölkəniz bir çox sahələrdə böyük inkişaf yolu keçib. Müasir infrastruktur, hündür mərtəbəli binalar, idman arenaları və digər məkanlar diqqətimizi cəlb etdi. Buraya 10 günlüyə gəlmişik. Son illər Azərbaycana çoxlu turistlər gəlir. Məsələn, bizdə hava çox soyuqdur. Amma Bakının ılıq havası bizi isindirir. Şəhərinizdə olduğumuz müddətdə teatrlar, muzeylər, parklar, xiyabanlar və digər görməli yerlərdə olmuşuq.

**Darya Artamonova bizi rəfiqəsi və onun balaca qızı ilə tanış edir. 7 yaşlı Sofiya fikirlərini bizimlə bölüşdü:**



– 7 yaşım var. Bakı o qədər xoşuma gəldi ki... Burada pişiklər üçün çoxlu evciklər düzəldiblər ki, onlara soyuq olmasın. Onları yedizdirirlər. Mən də anamla onlara yemək alırıq. Onlar çox mehribandırlar. Çağıranda yanıma gəlirlər. Eyni zamanda, göyərçinləri yedizdiririk. Bakıda parklar, xiyabanlar gözəldir. Əyləncə mərkəzlərində vaxt keçirməyi xoşlayıram.

***Leyla QURBANOVA,***
***Vüsalə ƏLİYEVA,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

**Bakıda keçirilən SOP29 başa çatandan sonra yaradılmasının 75 illiyi qeyd olunacaq Sumqayıt bu gün müasir parklar, bağlar, xiyabanlar şəhəri kimi tanınır. Bu gözəl diyarın ümumi inkişafı, o cümlədən ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün çox böyük işlər görülüb.**



# Mənim yaşıl şəhərim

## Sumqayıt Cənubi Qafqazın ən təmiz sənaye məkanıdır

Haradasa, yarım əsr əvvəl Sumqayıtda bircə park vardı ki, "Şəhər bağı" adlanırdı. Axşamlar – işdən sonra və şənbə-bazar günləri hamı ora axışardı. Biz də bir neçə dəfə səyyar botanika dərslərini keçmək üçün məktəbdən həmin bağa getmişdik. Ancaq bütün hunlara baxmayaraq, sovet dövründə nəhəng kimya poliqonu adlanan Sumqayıt dünyanın ekoloji fəlakət zonalarından biri kimi tanınırdı ki, bu da onu sevənlərin ürəyini ağrıdırdı. Hətta Sumqayıta "Ölü zona" adı vermişdilər. Amma bu gün Sumqayıt müasir, modern texnologiyalar sayəsində Cənubi Qafqazın ən ekoloji təmiz sənaye mərkəzi sayılır. İndi burada çoxsaylı "yaşıl ada"lar – istirahət parkları ilə yanaşı, sənaye və texnologiya parkları da var. Elə zavodları əhatə edən ərazilərin adında "park" sözünün olması dərhal müsbət ekoloji assosiasiya yaradır.

Şəhər icra hakimiyyəti aparatının yerləşdiyi binanın fasadı bir vaxtlar başdan-başa yaşıl sarmaşıqlara bürünmüşdü. Bura el arasında "Yaşıl bina" deyirdilər. Məsələ burasında idi ki, dənizdən əsən duzlu şimal küləyi səbəbindən binanın ön divarları həmişə nəmli olardı. Problemi həll etmək üçün Tatarıstanın Kazan şəhərindən "daş sarmaşıqlar" – "plyuş" kolları gətirilmiş və burada perimetr boyunca əkilmişdi. Nəticədə, "Yaşıl bina" respublikanın, hətta SSRİ-nin çox diqqət çəkən infastrukturlarından birinə dönmüşdü. Sumqayıtlılar da, şəhərin qonaqları da həmin fonda xatirə şəkli çəkdirməkdən zövq alırdılar. Fotoqraflar kinooperatorlar "Yaşıl bina"nı Sumqayıtın simvoluna, mənzərə brendinə çevirmişdilər.

Təəssüf ki, 15–20 il əvvəl binanın yaşıl örtüyü ləğv edilmiş və əhali də bunu qınaqla qarşılamışdı. Nəhayət, Sumqayıtın öz yetirməsi olan Zakir Fərəcov şəhərə rəhbər təyin olunandan sonra verdiyi ilk qərarlardan biri məhz həmin yanlışın aradan qaldırılması oldu və bu gün artıq dekorativ sarmaşıqlar sürətlə bina üzrə artmaqdadır. Sakinlər isə əvvəlki kimi, yenidən ŞİH-in "sarmaşıq libas"ına baxıb fərəhlənirlər.

Sumqayıtlılar mütəfəkkir şair İmadəddin Nəsiminin adını daşıyan mədəniyyət və istirahət parkını da könüllərinin dincəlik tapdığı məkanlardan sayırlar. Yaşıl fəvvarələrtək göyə "fışqıran" növbənöv ağaclar, həmişəyaşıl iynəyarpaqlılar böyük bir sahəni tutur. Burada o qədər nadir bitki növləri var ki, açıq səma altında böyük bir nəbatat muzeyini xatırladır. Parkda "Yaşıl teatr" da var.

Gənclik şəhərinin cənnət guşəsi – Heydər Əliyev parkı çox böyükdür. Genişliyi, açıqlığı, tikililərinin memarlıq üslubu ilə seçilir. Heydər Əliyev Mərkəzi, Poeziya evi, Şahmat və Uşaq incəsənət məktəbləri buna misal ola bilər. Əyləncə mərkəzləri, istirahət meydançaları və fəvvarələr parkın gözəlliyini daha da artırır. Burada daimi qulluq olunan yaşıllıqlar göz oxşayır. Sakinlər parka ilboyu həvəslə gəlib dincəlir, qayğı yüklərini azaldırlar. Şahmat məktəbinin qarşısındakı meydan tamet plitələrlə yaşıl otlu damaların konfiqurasiyasında elə əsl şahmat taxtasını xatırladır.

Bu əsrin əvvəllərində, şəhərin indiki rəhbəri Zakir Fərəcov ilk bələdiyyə sədri olan zaman əksər park və xiyabanlar kimi, yuxarıda bəhs etdiyimiz "Şəhər bağı" da xeyli genişləndirilib, abadlaşdırılıb. Bağda çoxsaylı palma, akasiya və digər ağaclar əkilib. İndi bu gözəl məkan "Bələdiyyə parkı" adı ilə Sumqayıtın yaşıllıq ekspozisiyasını zənginləşdirir.

Son 7–8 ildə daha bir "Gözəllik abidəsi" – Park-bulvar kompleksi Sumqayıtın bəzəyinə çevrilib. Xəzərin ləpədöyənində zövqlə ərsəyə gətirilmiş bulvarın sahəsi 106 hektardan, uzunluğu 5 kilometrdən çoxdur. Ərazidə ilkin olaraq 100 min kvadratmetr sahəyə yaşıl örtük salınıb,120 mindən çox ağac və dekorativ kollar əkilib. Prezident İlham Əliyev Sumqayıt bulvarını möcüzə adlandırıb. Buradakı kölgəliklər, əlvan güllü çəmənliklər, kafelər, attraksionlar, yay estradası, idman zalları, velosipedçilər üçün hərəkət zolaqları, parkinqlər, yaşıllıqlar qoynunda nağıl qəhrəmanlarının heykəlləri və müxtəlif heyvan fiqurları bulvarı yaradanların yüksək zövqündən soraq verir. Təsadüfi deyil ki, Madrid və Parisdə keçirilən "Global Trade Leaders Club"un forumlarında Sumqayıt bulvarı "International Award for Excellence & Leadership" mükafatına layiq görülüb.

Dövlətimizin başçısı Sumqayıtın dünya miqyasında ekoloji təmiz şəhərlərdən biri olduğunu dəfələrlə qeyd edib: "Bu gün bulvarda, şəhərdə gəzərkən həm gözəlliyi görürsən, həm də görürsən ki, hava da çox təmizdir. Yəni Sumqayıtın havası kurort havasına yaxınlaşır. Əminəm ki, Sumqayıtın gələcək inkişafında turizm sektoru da öz rolunu oynayacaq. Bunu bir neçə il bundan əvvəl təsəvvür etmək çətin idi ki, biz Sumqayıtı, eyni zamanda, turizm mərkəzi kimi görmək istəyirik. Bu gün bu, reallıqdır – gözəl sahil zonası, plyaj, təmiz hava, parklar, ictimai zonalar, istirahət zonaları. İndi Sumqayıt parklar şəhəridir. Mənə bu gün məlumat verildi ki, yeni inşaat layihələri icra ediləcək, bulvara yaxın yerdə yeni yaşayış binaları, otellər tikiləcək. Ona görə, Sumqayıt gələcəkdə Azərbaycanın turizm zonası kimi də özünü göstərməlidir".

Artıq bu ideyalar, arzular gerçəkləşir. Yeri gəlmişkən, COP29-da iştirak edən xarici qonaqların böyük bir qismi Xəzərin Sumqayıt sahilinə yaxın olan Novxanıdakı otellərdə yerləşdirilib. Onlar şəhərə, park-bulvar kompleksinə gəzintiyə çıxanda burada yaradılmış gözəlliklərə heyran qalırlar.

Almaniyalı qonaqlar Sumqayıtı, xüsusilə də buradakı "Lüdviqshafen parkı"nı daha böyük həvəslə gəzirlər. Çünki AFR-in eyni adlı şəhəri ilə bizim gənclik şəhərimizi illərdir ki, qardaşlıq əlaqələri birləşdirir. Lüdviqshafendəki Sumqayıtın Dostları Cəmiyyətinin sədri Volfqanq Lauyenştayn Sumqayıtın fəxri vətəndaşı adına layiq görülməsi ilə qürur duyur. Onun qənaətinə görə, Sumqayıt coğrafi relyef baxımından çox əlverişli bir məkandır. Həm müasir sənaye parkları, həm də istirahət parkları ilə dünyada tanınmağa layiq şəhərdir.

Qürur doğuran haldır ki, artıq Sumqayıt çiçəklənən şəhər adlandırılır. Burada özünəməxsus ekoloji standartlar formalaşır. Sumqayıt Günəş Elektrik Stansiyası (GES) inşa edilib. Buraxılan günəş panelləri alternativ enerji mənbələrindən istifadə imkanlarını genişləndirir.

Şəhərdə yaşıllaşdırma işləri müntəzəm aparılır. Son 8–10 ildə burada 2 milyona qədər yeni ağac əkilib. 16 hektardan artıq ərazini əhatə edən parklar, xiyabanlar salınıb və əvvəldən olanlar yenidən qurulub. Şəhərdə hər adambaşına düşən yaşıllıq sahəsi respublika şəhərlərinin orta göstəricisindən yüksəkdir – 26 kvadratmetr! "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində oktyabrın 19-dan Bakı–Quba yolunun Sumqayıt ərazisindən keçən hissəsində ağacəkmə aksiyası təşkil edilib. Gün ərzində yolun kənarlarında 17 min, 2 həftədə isə 300 min ağac əkilib.

Sumqayıtlı qələm sahibləri də "yaşıl şəhər"ə töhfə veriblər: Bir neçə il əvvəl onlar Nəsimi parkında şəhər rəhbəri Zakir Fərəcovun, Ekologiya və təbii sərvətlər naziri – hazırda COP29-un prezidenti olan Muxtar Babayevin iştirakı ilə "Yaşıl qələmlər" bağı salıblar. Bu sətirlərin müəllifi də orada əkdiyi yapon əzgili ağacını gəzinti zamanı nəvələrinə göstərməkdən məmnunluq duyub. Qələm tutan əllərin torpağa qələmə basdırması, bədii obrazlar yaradan dillərin yaşıl duyğular saçması bir başqa aləmdir.

Onu da xatırlayırıq ki, Muxtar Babayev "Azərikimya" İstehsalat Birliyinin Müşahidə Şurasının sədri olan zaman Sumqayıtda "Çirkləndirilmiş ərazilərdə təhlükə risklərinin qiymətləndirilməsi" mövzusunda ilk dəfə keçirilən üçgünlük beynəlxalq ekologiya konfransında Prezident İlham Əliyevin bu mühüm məsələyə fundamental yanaşması və əvvəlki ili ölkəmizdə Ekologiya İli elan etməsi barədə məlumatı necə sürəkli alqışlarla qarşılanmışdı. Almaniya Federal Ekoloji Nazirliyinin, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin və bu ölkənin Azərbaycandakı səfirliyinin nümayəndələrinin də qatıldığı tədbir yüksək səviyyədə keçmişdi. Fərəhli haldır ki, hazırda Almaniya, BMT-nin İqlim Konfransı (COP29) çərçivəsində Bakıda 4 əsas nazirliklə təmsil olunur.

Ətraf mühitin mühafizəsi Sumqayıtda daim gündəmdə olan məsələdir. Bununla bağlı əhali arasında ekoloji maarifləndirmə işi gücləndirilib, təbiətə qayğı yönümündə bir çox tədbirlər həyata keçirilir. Şəhətrafı zonalar, dəniz sahili boyu ərazilər tullantılardan təmizlənir və sağlam ekoloji mühit yaradılır. Bu tədbirlər həm də gənc nəsildə təbiətə sevgi, ekologiyaya diqqət və qayğının göstərilməsində xüsusi vərdişlər aşılayır.

Sumqayıtın əsas giriş yolu sayılan "Sülh" küçəsində uğurla həyata keçirilən işlər xüsusi qeyd edilməlidir. Bura şəhər haqqında ilk təəssürat yaradan yerdir. Küçə 4,2 kilometr məsafədə hər iki tərəfə xeyli genişləndirilib, 100 min kvadratmetr sahəyə yaşıl örtük salınıb və təkcə bu ərazidə 120 mindən çox ağac və dekorativ kollar əkilib. Ardınca şəhərin digər küçə və prospektlərində, meydanlarında, park və xiyabanlarında da genişmiqyaslı işlər görülüb. Şəhərdə 10 mindən artıq palma əkilib. İndi Sumqayıtın giriş küşəsində Vaşinqton palmaları da diqqət çəkir ki, buna bəlkə də Qafqazın heç bir yerində rast gəlmək olmaz.





Son dövrün ən böyük yeniliyi isə xan çinarın Sumqayıta gətirilərək kütləvi surətdə əkilməsidir. Eyni zamanda, həddən artıq sayda alyandra və geran bəzək kolları, leylandra, Eldar şamı və primula ağac növləri Sumqayıtın "nazlı gözəlləri"nə çevrilib. Qızılgüllər barədə ayrıca danışmaq olar. Şəhərin elə bir guşəsi yoxdur ki, orada qızılgüllər ətir saçmasın. Ayrı-ayrı yerlərdə 100 minədək yerli və 150 mindən artıq Türkiyə mənşəli gözoxşayan qızılgüllər əkilib. Bu güllər qardaş ölkədən Zakir müəllimin şəxsi təşəbbüsü ilə gətirilib. Məqsəd budur ki, Sumqayıtın havası daim saf və ətirli olsun, küçələri cazibədar görünsün və həmi bu zənginlikdən zövq alsın. Turizm şəhəri olmağın başlıca şərtlərindən biri də budur.

Bəli, bir vaxtlar "Ölü zona" kimi də çıxarmış, bu gün isə ətraf mühit şəraiti durmadan yaxşılaşan Sumqayıtın əsl turizm zonası kimi özünü göstərəcəyi vaxt heç də uzaqda deyil.

*Əli NƏCƏFXANLI*
*XQ*

**Siyavuş Kərimov – 70**

# Milli musiqi təhsilin qurucusu

**Xəbər verdiyimiz kimi, bu günlərdə Azərbaycan Milli Konservatoriyasının (AMK) rektoru, Xalq artisti, "Şərəf" və "Şöhrət" ordenli Siyavuş Kəriminin 70 illik yubileyi qeyd olunub. Dövlət başçısı İlham Əliyevin sərəncamı ilə Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə o, Prezidentin fərdi təqaüdünə layiq görülüb.**

Ölkəmizin hər bir yerindən yubilyarın ünvanına çoxsaylı təbrik məktubları, teleqramlar gəlib, mədəniyyət ocaqlarında yubiley gecələri keçirilib və bu kimi tədbirlər davam edir. Azərbaycan Milli Kitabxanasında "Xalq artisti, professor Siyavuş Kərimi" adlı kitab sərgisi təşkil olunub. Gənc heykəltaraş, Naxçıvan Dövlət Universitetinin (NDU) müəllimi Elxan Zeynalov Siyavuş Kəriminin şərəfinə büst hazırlayıb, AMK tərkibində İncəsənət Gimnaziyasının rəssamlıq şöbəsinin müəllimi Nəriman Məmmədov yubilyarın portretini ona təqdim edib. Yaxın günlərdə isə yubiley münasibətilə bəstəkarı Xalq artisti Siyavuş Kərimi, libretto müəllifi akademik Rafael Hüseynov olan, dahi şairimiz Nəsiminin yaradıcılığ və keşməkeşli həyat yolunu əks etdirən operanın premyerası təqdim ediləcək.

Fəxrlə bildirək ki, ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti və mədəniyyətin inkişafına böyük, əvəzolunmaz xidmətləri nəticəsində yaranmış olan Milli Konservatoriya Xalq artisti Siyavuş Kərimiyə dahi şəxsiyyətin əmanətidir və o da bu əmanəti gözəl qoruyur. AMK-nın ab-havası, tələbə-müəllim münasibəti, qaynar sənət mühiti buna bariz nümunədir.

Siyavuş Kəriminin 70 illik yubileyi münasibətilə "Sənət dolu ömür" adlı ilk konsertdə AMK-nın tələbələrindən ibarət "Milli Avaz", "Uğur" xor kollektivləri, "Şəms-Qəmər" kamera xoru, "Ariflər", "Buta" orkestrləri iştirak etdilər. Bu, bir-birindən gözəl musiqi əsərləri ilə zəngin bir hesabat konserti idi. Sonda rektor Siyavuş Kərimi əməyi keçən hər kəsə təşəkkür etməklə yanaşı, istedadlı tələbələri ilə qürur duyduğunu dilə gətirdi.

Yubileyə həsr olunmuş elmi-praktik konfrans xüsusilə yaddaqalan oldu. AMK-nın elmi işlər üzrə prorektoru, Əməkdar incəsənət xadimi Lalə Hüseynova başda olmaqla, etnomusiqişünaslıq kafedrasının təşəbbüsü ilə ərsəyə gəlmiş bu tədbirdə musiqi nömrələri də ifa edildi. Həmçinin AMK-nın mətbuat xidmətinin hazırladığı "Anın melodiyası" kitabçası təqdim olundu.

Konfransda yubilyarın həyat və yaradıcılığına aid ən müxtəlif səpkilərdə məruzələr dinlənildi. Professorlar Akif Quliyev, Jalə Qulamova, Cəmilə Mirzəyeva, Leyla Quliyeva, dosent Səadət Verdiyevanın çıxışları maraqla dinlənildi. Siyavuş Kəriminin musiqi əsərlərini müəllim və tələbələr təqdim etdilər. Konfrans "Nəsimi" operasından xor ifasıyla başa çatdı.

Ertəsi gün konservatoriyanın böyük zalında vokal kafedrasının yubileyə həsr etdiyi konsert keçirildi. Aparıcı AMK-nın müəllimi, Əməkdar artist Ramil Qasımov idi. O, özü Siyavuş Kəriminin "Sən yanımda ol" mahnısını ifa etdi.



Yekun gecəsinə isə mədəniyyət və elm xadimləri, bir çox nüfuzlu simalar gəlmişdirlər. Xalq artisti, mədəniyyət nazirinin müavini Murad Hüseynov, Milli Məclisin Komitə sədri Polad Bülbüloğlu, eləcə də Fatma Abdullazadə, Ədalət Vəliyev, Elbəy Qasımzadə, Sakit Məmmədov, Nazim Kazimov, Murad Dadaşov, Əlibala Məhərrəmzadə, Hacı İsmayılov, İlham Əsgərov və bir sıra ölkələrin səfirləri Siyavuş Kərimiyə xoş arzularını bildirdilər.

Bəstəkarın əsərləri ifa olundu. Sonda isə gözəl bir fləş-mob nümayiş etdirildi. Yubilyara "Teatr xadimi" qızıl medalı, "Milli teatr" fəxri mükafatı və mötəbər qurumların təbrik məktubları təqdim olundu.

Azərbaycanın fəxri sayılan incəsənət xadimlərindən biri, milli musiqi təhsilinin inkişafında əvəzsiz xidmətləri olan Xalq artisti Siyavuş Kərimi ilə bağlı duyğular, bax, beləcə, sevgi ilə yoğrulub.

*Aysel FİKRƏT,*
*AMK-nın mətbuat katibi*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 250 (30654) 14 noyabr 2024-cü il, cümə axşamı

# Milli Kitabxanada virtual sərgi

**Dünən Milli Kitabxanada "Yaşıl dünya naminə həmrəylik ili" və COP29-la bağlı "yaşıl" kitab sərgisi açılıb.**

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov bu gün keçirilən bütün təqdimatların qayəsinin "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı olduğunu bildirib. O, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsinin əhəmiyyətindən, iqlim dəyişmələrinin mənfi təsirlərinin azaldılmasından, biomüxtəlifliyin qorunmasından, təbii sərvətlərdən səmərəli istifadə olunmasından ətraflı bəhs edib. O bildirib ki, Milli Kitabxana biblioqrafiya kitabları, elektron məlumat bazaları, virtual və ənənəvi kitab sərgiləri hazırlamaqla bu hədəflərə dəstək göstərir.

*XQ*


## OXUCULARIN NƏZƏRİNƏ!

**"Xalq qəzeti"**

***2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!***

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.


8 NOYABR ZƏFƏR GÜNÜDÜR!
Xalq qəzeti
44 günlük Vətən müharibəsi 33 illik Qarabağ münaqişəsinə son qoydu
Qarabağ Zəfərinin dərsləri

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Ronaldinyo Bakıda

**Bakıda səfərdə olan Braziliya millisinin əfsanəvi futbolçusu Ronaldinyo Azərbaycan klublarının aşağı yaş qruplarından ibarət komandaları ilə görüşüb.**



44 yaşlı keçmiş yarımmüdafiəçi "Qarabağ", "Neftçi", "Sabah", "Zirə" komandalarının və "Marset" Futbol Akademiyasının yeniyetmə və gənc oyunçuları ilə ünsiyyətdə olub.

AFFA-nın icraçı vitse-prezidenti Sərxan Hacıyev Ronaldinyoya Azərbaycan millisinin 10 nömrəli formasını hədiyyə edib.

Qeyd edək ki, 2002-ci ildə Braziliya yığmasının heyətində Dünya çempionu olmuş oyunçu BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak edir.

***FİDAN***
***XQ***

# "Heyrət, ey büt!"

## *Yaxud Cordano Brunonu külə çevirən şübhə*

**Afrika adı latın dilində olan "afrikus", yəni soyuq bilməyən sözündən əmələ gəlmişdir. Böyük rus yazıçısı Vladimir Nabokov isə yazırdı ki, "qar arzulayan afrikalı dahidir". Müəyyən mənada bu fikir Nitşenin əks-sədasıdır. O da belə fikirləşirdi ki, dahi o şəxsdir ki, naməlum, adı olmayan şeylər barədə düşünsün. Bizim bu gün işlətdiyimiz terminlər dahilər tərəfindən kəşf edilənə qədər mövcud olmayıb.**



Heyrətin də mənasını bizə Fizuli babamız anladıb: "Heyrət ey büt, surətin gördükdə lal eylər məni". Yəni heyrət insanı lal etmək gücündədir.

Psixoanalizin banisi Ziqmund Freyd "şüur" və "altşüur", "eqo" və "kimlik", Darvin isə "təbii seleksiya", "növlərin mənşəyi" kimi terminləri yaradıblar. Onların hansısa fikirləri yanlış ola bilər, lakin onlar adi adamların doğru şərhlərindən daha mötəbər hesab olunur. Çünki o vaxta qədər heç kimin görmədiyi nəsnələri izah edirdilər. A. Sent-Ekzüperinin "Balaca şahzadə" əsərində şahzadə qeyzlənərək deyirdi: "İnsanların təxəyyülü yoxdur. Onlar tutuquşu kimi yalnız deyilənləri təkrarlayırlar". Əslində, bu əsər elə başdan-başa təxəyyül hadisəsidir. Nəticədə, dünya ədəbiyyatı belə bir əvəzsiz inciyə sahib oldu.

Litvalı professor Haim Şapira yazır ki, orijinal ideyaların bədəlini həyatı bahasına ödəyən insanlara ən gözəl nümunə Cordano Brunodur. O, Romada, Kampo dei Fioridə həmin günə qədər eşidilməmiş ideyalarını xalqa çatdırmağa cəsarət etdiyinə görə bir sütuna bağlanaraq yandırılmışdı. Cordano Bruno Yer kürəsinin kainatın mərkəzi olması fikri ilə razılaşmırdı. Əslində, onun fikrincə, kainatın, ümumiyyətlə, mərkəzi yoxdur. Bu düşüncə müasir yanaşmaya çox yaxındır. Gəlin unutmayaq ki, Bruno XVI əsrin ikinci yarısında yaşamışdı.

Cordano Bruno Aristotelin fikirlərinə şübhə ilə yanaşan ilk varlıq idi. O zamanlar Aristotelin kosmos nəzəriyyəsi və Ptolomeyin sistemi, demək olar ki, hər yerdə təkzibedilməz həqiqət kimi irəli sürülürdü. Yer kainatın sükunət halında olan mərkəzi hesab olunurdu. Elmi dairələrdə Aristotelin və Ptolomeyin tərəfdarlarının sözü keçirdi. Cordano Bruno isə hesab edirdi ki, mühüm elm sahələri öz tədqiqatçılarını gözlədiyi halda bacarıqlı adamlar öz vaxtlarını mənasız işlərə sərf edirlər, sxolastika sahəsində öz beyinlərini qurudub tükədirlər.

Aristotelin düşüncələri əsasında monastr məktəbində tərbiyə alan Cordano tələbələrin Aristotelin fikirlərini çox pis başa düşdüyünü anlayanda heyrətə gəldi. Necə olur ki, bu adamlar Aristotelə baş əyirlər, onun yolunda ölməyə hazırdırlar, amma onun nə dediyini anlamırlar?! Aristotelin məntiqinin sönüklüyünü iddia edən Cordano Bruno böyük bir çoxluğa qarşı çıxdığının fərqində idi. Aristotelin əsərlərindəki ziddiyyətləri, əsaslandırılmamış fikirləri üzə çıxardıqca Cordano Bruno dünyanın mənzərəsini hərtərəfli görmək xəyalı ilə yaşayırdı. O düşünürdü ki, böyük sənət ixtira sənətidir, yalnız hazır məntiqi mühakimələrdən düzgün nəticələr çıxarmağı bacarmaq deyil, bu məntiqi mühakimələrin özünü axtarıb tapmaq da lazımdır. Brunonun Aristotelə açdığı savaş dünya elmi qarşısında yeni üfüqlər açdı. Brunonun həyatı həqiqət naminə sonsuz əzablar içində keçmişdi. Bəzən o, bu təhlükəli ehtirasına lənətlər yağdırırdı. Mübarizədən bezir, yorulurdu. Onun bioqrafiyasını yazmış Alfred Ştökli qeyd edir ki, "Bruno elm tarixini dərindən tədqiq edirdi. Görürdü ki, bəzi fikirlərin yerini digər fikirlər tutur, əvvəlcə yalançı hesab edilən nəzəriyyələr zamanı gələndə yenə də qayıdır, sarsılmaz ehkamlar puç olub gedir. Bu nədir? İnsan ruhunun əzəmətinin göstəricisidirmi? Yoxsa onun əzəldən məhdud olduğunu göstərir?"

Şəkkaklıq onun ətrafında qapalı dairə yaradır... Qadağan edilmiş kitabları tapıb oxuduqca onun şəkk-şübhəsi daha da artırdı. Hüseyn Cavid necə deyirdi? "Şübhədir hər həqiqətin anası, Şübhədir əhli-hikmətin babası. Şübhə etməkdə haqlıdır insan..." Şübhə insanı həqiqətə aparıb çıxaran yeganə yoldur. Cordanonu adi insanlardan ayıran da məhz skeptik düşüncələri idi.

Bunun üçün insan zəngin təxəyyülə sahib olmalıdır. "Sivilizasiya və onun çatışmazlığı" əsərində Ziqmund Freyd bir dostunun keçirdiyi, "okean hissi" adlandırdığı bir şeydən danışır. Freydin dostu fransız yazıçısı Romen Rollan idi. Yazıçı 1927-ci ildə Freydin "İllüziyanın gələcəyi" əsərini oxuyandan sonra keçirdiyi hissləri müəllifə yazıb yollamışdı. Romen Rollan "okean hissi" terminini əbədiyyətin mövcudluğunu dərk edən zaman qəlblərimizi və beynimizi dolduran heyrət hissini, okean kimi hüdudsuzluq hissini təsəvvür etmək üçün işlədir. Okean hissi heyrət və sonsuz minnətdarlığın qarışığıdır. Freyd heç zaman belə bir hissi yaşamadığını etiraf edirdi.

Heyrətlənmək insanın təxəyyülünü alovlandırır. Cordano Brunonun macərası da heyrətlənmək hissiylə başlamışdı... Sonda bu hiss onu yandırıb külə döndərdi...

***Kənan HACI,***
***yazıçı-publisist***

**Danışan foto**

# Uşaqların "qanadlı" sevinci



# İnsanın daxilini "görən" yeni printer

**Avstraliyanın Melburn Universitetinin alimləri tibbdə inqilab ediblər. Bu ali məktəb Avstraliyanın 2-ci, Viktoriya ştatının isə 1-ci ən qədim universitetidir. Təhsil ocağının əməkdaşları beyin kimi yumşaq və qığırdaq kimi sərt toxumaları olan orqanların dəqiq modellərini çap etməyə qadir olan 3D bioprinter yaradıblar.**

Alimlər qeyd ediblər ki, adi 3D bioprinterlər yavaş-yavaş və təbəqələr şəklində işləyir. Çəkiliş zamanı təbəqələrin ləng hərəkəti hüceyrələri zədələyə və mürəkkəb strukturlar yaratmaq imkanını məhdudlaşdıra bilər. Uzun müddət tədqiqat aparan universitetin mühəndisləri bu problemin həllini tapıblar. Yeni texnologiya hüceyrələri bir neçə saniyə ərzində ənənəvi üsullardan yüz dəfələrlə daha sürətlə, 3D strukturlara dəqiq şəkildə yerləşdirməyə imkan verir

Alimlər bu texnologiyanın müxtəlif heyvanlar üzərində təcrübələr aparılmasına ehtiyacı olmadığını bildiriblər. Qeyd ediblər ki, yeni texnologiya bir çox xəstəlikləri daha dəqiq proqnozlaşdırmağa və dərmanlar hazırlamağa kömək edəcək.



***Z.HÜSEYNLİ***
***XQ***

# Yağmursuz, duman və çiskin

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 14-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var.**

Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 8–10°, gündüz 12–15° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 771 mm civə sütunundan 767 mm civə sütununa enəcək, nisbi rütubət gecə və gündüz 65–75 faiz olacaq. Azərbaycanın rayonlarında, əsasən, yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında çiskinli yağış yağacağı ehtimalı var. Arabir duman olacaq.



Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3–7°, gündüz 11–16° isti, dağlarda gecə 1–5° şaxta, gündüz 0-5° isti olacaq.

***Q. QASIMOV***
***XQ***


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4001 |
| SİFARİŞ | 2621 |
| QİYMƏTİ | 60 qəpik |

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00